

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti
30 sentyabr 2022-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**Görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin anım günüdür**
➔Səh.7

**BDU-da Anım Gününə həsr olunmuş tədbir**
➔Səh.9

**BDU kollektivi Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edib**
➔Səh.9

**BDU-nun rektoru Daşkənddə Heydər Əliyev adına Mədəniyyət Mərkəzini ziyarət edib**
➔Səh.11

**BDU-da Belçikanın Gent Universitetinin nümayəndələri ilə görüş olub**
➔Səh.11

**Qarabağ regionunun bərpası və inkişafına həsr olunmuş Şuşa Türk Biznes Forumu keçirilib**
➔Səh.13

**Şərqşünaslıq fakültəsində Pakistanın Muslim İnstitutunun direktoru ilə görüş**
➔Səh.17

**BDU-da 600-dən çox bal toplayan I kurs tələbələri ilə görüş**
➔Səh.24



**Yeni tədris ilində BDU-ya 5415 tələbə qəbul olunub**
➔Səh.2



**Akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illiyinə həsr olunmuş Beynəlxalq konfransın açılışı olub**
➔Səh.3



**BDU və Buxara Dövlət Universiteti arasında tərəfdaşlıq müqaviləsi imzalanıb**
➔Səh.7



**BDU-da Anım Günü münasibətilə ağacəkmə aksiyası**
➔Səh.9



**BDU Elmi Şurasının yeni tədris ilində ilk iclası**
➔Səh.10




# 103 yaşlı Bakı Dövlət Universiteti

## 103 il əvvəl - 1 sentyabr 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti uzun və gərgin müzakirələrdən sonra Bakı Dövlət Universitetinin yaradılması haqqında qanun qəbul etdi

***1919/1920-ci tədris ilindən Tarix-filologiya və Tibb fakültələri ilə fəaliyyətə başlayan Universitetdə noyabrın 15-də ilk mühazirə oxundu. Beləliklə, sonralar inkişafına və tərəqqisinə əvəzsiz töhfələr vermiş Ulu Öndərimiz Heydər Əliyevin "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı, hər zaman məzunu olması ilə fəxr etdiyini ifadə edərək yüksək dəyər verdiyi Bakı Dövlət Universiteti fəaliyyətə başladı.***

BDU Xalq Cümhuriyyəti dövründə çox qısa zaman ərzində fəaliyyət göstərsə də, xalqımızın maariflənməsinə mühüm töhfələr verdi, elm və təhsilimizin çırağını əbədi yandırdı. Sovet hakimiyyəti illərində hər cür təzyiq və basqılara rəğmən universitet ölkəmizdə elm və təhsilin mərkəzi, xüsusilə milli ruhun daşıyıcısı olmağı şərəflə bacardı. Məhz bu missiyasına görə repressiyaların tüğyan etdiyi 30-cu illərdə universitetin fəaliyyəti dayandırıldı. Lakin fədakar ziyalılarımızın səyləri ilə universitet yenidən şərəfli yoluna davam etməyə müvəffəq oldu.

Bu gün fəxr, qürur və sonsuz ehtiram hissi ilə deyirik ki, 1969-cu ildən - Ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etməsindən sonra BDU-nun həyatında yeni mərhələ başladı. Bu tarixdən sonra BDU Azərbaycan elminin və təhsilinin flaqmanı kimi ölkədə və ittifaq respublikalarının təhsil və elm ocaqları arasında böyük nüfuz qazandı. Universitetin 50 illik yubiley tədbirlərinə Ulu Öndər Heydər Əliyevin şəxsən rəhbərlik etməsi, dövlət başçısı kimi bu ali təhsil müəssisəsinə hərtərəfli qayğısı BDU-nun şöhrətini daha da artırdı. 50 illik yubiley tədbirində ulu öndər Heydər Əliyevin böyük cəsarət nümayiş etdirirək ana dilimizdə çıxış etməsi bu gün də qədirbilən xalqımız tərəfindən ehtiram, hörmət və izzətlə yad edilir. Ulu Öndərimiz özü də həmin tarixi hadisəni dəfələrlə yada salmışdı: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu - nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir. Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlıqlarını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər". Bu tarixi hadisənin, həmin dövrdə müdrik rəhbərin ali təhsil ocağına xüsusi diqqət və qayğısının sayəsində Universitet yenidən milli oyanışın mərkəzinə, müstəqilliyimizə gedən yolun carçısına çevrildi.

BDU Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə də Ulu Öndər Heydər Əliyevin sayəsində inkişafının yeni və daha inamlı mərhələsinə qədəm qoydu. Müstəqilliyin ilk illərindən ölkədə olan problemlərə, çətinliklərə rəğmən Ümummilli liderimiz universitetin elmi potensialı və maddi-texniki bazasının inkişafı üçün mühüm tədbirlər həyata keçirdi. Bu gün qürurla söyləyirik ki, Ulu Öndər Heydər Əliyev BDU-nun dünyaşöhrətli məzunu olmaqla yanaşı, hər zaman bu ali təhsil müəssisəsinin hamisi olmuşdur.

*(ardı 4-cü səhifədə)*

## İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI - 140 İL

➔Səh.22

# BDU-da yeni tədris ili başlayıb

***BDU-da 2022-2023-cü tədris ili başlayıb. BDU-da ilk dərslər vətənpərvərlik mövzusuna həsr olunub.***

Hazırda BDU-da bakalavriat səviyyəsi üzrə 20273 tələbə təhsil alır. Onlardan 6930-u kişi, 13343-ü qadındır. Tələbələrdən 10930-u humanitar-sosial, 9343-ü təbiət elmləri üzrə ixtisaslarda təhsil alır. BDU-nun bakalavriaturasında təhsil alan tələbələrin 14269-u dövlət sifarişi əsasında, 6004-ü ödənişli əsaslarla oxuyur. Tələbələrimizin 200-ə yaxını Vətən müharibəsi iştirakçısıdır.Yeni tədris ilində BDU-ya 5415 tələbə qəbul olunub. Onların 3899 nəfəri (72 %) dövlət sifarişi əsasında, 1516 nəfəri (28 %) ödənişli əsaslarla təhsil alacaq. 2022/2023-cü tədris ilində BDU-nun magistraturasında



1966 tələbə təhsil alır. Onlardan 586-sı kişi, 1380-i qadındır. BDU-nun magistrantlarının 1203 nəfəri dövlət sifarişi əsasında, 763 nəfəri ödənişli əsaslarla təhsil alır.

BDU-da qiyabi və əlavə təhsil alan tələbələrin sayı 1364 nəfərdir.

BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə 1050 tələbə, "Gənc istedadlar" liseyində 652 şagird təhsil alır.

Bütün tələbələrimizi və şagirdlərimizi yeni tədris ilinin başlaması münasibətilə təbrik edir, onlara təhsillərində və şəxsi həyatlarında uğurlar arzulayırıq!

## Yeni tədris ilində BDU-ya 5415 tələbə qəbul olunub



***2022/2023-cü tədris ilində Bakı Dövlət Universitetində ödənişli əsaslarla 1516 nəfər, dövlət sifarişi əsasında 3899 nəfər olmaqla 5660 nəfər qəbul olunub.*** İlkin nəticələrə görə, 5415 tələbə qeydiyyatdan keçərək BDU ailəsinə qoşulub. Beləliklə, BDU-ya qəbul planı 96% dolub. Qəbul olanların 1733 nəfəri kişi, 3682 nəfəri isə qadındır. 284 tələbə 600-700, 1121 tələbə isə 500-600 arası bal toplayıb. Müsabiqədən kənar qəbul olan tələbələrin sayı 46-dır.

2022/2023-cü tədris ilində BDU-nun magistraturasına 975 nəfər qəbul olunub. Onlardan 311 nəfəri kişi, 664 nəfəri qadındır.

## BDU-da ilk dərslər vətənpərvərlik mövzusuna həsr olunub



***BDU-da 2022/2023-cü tədris ilinin ilk dərsləri vətənpərvərlik mövzusuna həsr olunub.*** Mühazirələrdə Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezident İlham Əliyevin, Azərbaycan xalqının və rəşadətli Ordumuzun "Dəmir yumruq" kimi birləşərək 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Zəfərin tarixi əhəmiyyəti vurğulanıb. Tələbələrə sentyabrın 12-13-dən Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı həyata keçirdiyi genişmiqyaslı hərbi təxribatlar barədə məlumat verilib. Qeyd olunub ki, Azərbaycan Ordusu tərəfindən legitim hərbi hədəflərə qarşı cavab tədbirləri həyata keçirilir. Bu təxribatların qarşısının alınması zamanı hərbi qulluqçularımız qəhrəmancasına həlak olub. Onların arasında BDU-nun məzunu Erkin Hüseynov da var. Dərslərdə gənclərin vətənpərvərlik tərbiyəsinin önəmi vurğulanıb. Sonra mövzu ətrafında müzakirələr aparılıb.

# BDU-nun rektoru I kurs tələbələri ilə görüşüb

***BDU-nun rektoru Elçin Babayev I kurs tələbələri ilə silsilə görüşlərə başlayıb. Görüşlərin keçirilməsində məqsəd tələbələrə BDU-da həyata keçirilən tədris prosesi, Universitetin sosial həyatı barədə məlumat vermək, onların ali məktəb həyatına adaptasiyasına yardım etməkdir.***



Növbəti görüş sentyabrın 20-də Tarix fakültəsinin I kurs tələbələri ilə keçirilib.

Rektor Elçin Babayev qeyd edib ki, 103 illik tarixə malik Universitetin 16 fakültəsində 25 mindən artıq tələbə təhsil alır. İndiyədək BDU 200 min nəfərədək ixtisaslı kadr yetişdirib. BDU məzunları müxtəlif qurumlarda, dövlət təşkilatlarında, eləcə də xarici ölkələrdə Azərbaycanı layiqincə təmsil edirlər. BDU-nun ən böyük məzunu isə Ümummilli liderimiz Heydər Əliyevdir.

Elçin Babayev 44 günlük Vətən müharibəsində şanlı Zəfərə imza atan və getdikcə qüdrətlənməkdə olan ölkəmizin gənclərinin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib. Bildirib ki, xüsusilə Tarix fakültəsinin tələbələri tariximizi dərindən öyrənməli, təbliğ etməli, informasiya müharibəsində yaxından iştirak etməlidirlər.

### *Rektor tələbələrə ölkənin ən böyük və ilk universiteti olan BDU-nun tarixi, tədris və elmi fəaliyyəti, Azərbaycanın ictimai-siyasi həyatında önəmi haqqında məlumat verib*

***Sentyabrın 21-də BDU-nun rektoru Elçin Babayev Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin I kurs tələbələri ilə görüşüb.***



Rektor tələbələrə ölkənin ən böyük və ilk universiteti olan BDU-nun tarixi, tədris və elmi fəaliyyəti, Azərbaycanın ictimai-siyasi həyatında önəmi haqqında məlumat verib.

Qeyd edib ki, BDU ailəsinin üzvü olmaq, yüksəkixtisaslı kadr kimi yetişmək hər bir gəncdə qürur hissi yaratmalıdır. Rektor tələbələrə Azərbaycanın gələcək inkişafı üçün peşəkar diplomatlara və iqtisadçılara xüsusi ehtiyac duyulduğunu xatırladıb, onlara yaxşı oxumağı, Universitetin ictimai-siyasi və sosial həyatında yaxından iştirak etməyi tövsiyə edib.

# Akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illiyinə həsr olunmuş Beynəlxalq konfransın açılışı olub

*Sentyabrın 29-da Bakı Dövlət Universitetində akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illiyinə həsr olunmuş "Nəzəri və təcrübi kimyanın müasir problemləri" mövzusunda Beynəlxalq elmi konfransın açılışı olub*





***Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Konfransın açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, akademik Rəfiqə Əliyeva ölkəmizdə kimya elminin inkişafına böyük töhfələr verib. Rəfiqə Əliyevanın dünyanın nüfuzlu elmi jurnallarında dərc olunmuş məqalələri, fundamental monoqrafiyaları, mühüm elmi nəticələri kimya elmi sahəsində ölkəmizin adının tanıdılmasında müstəsna rol oynayıb. Rəfiqə xanım Əliyeva eyni zamanda onu tanıyanların yaddaşına vətənpərvər ziyalı, ölkənin ictimai həyatında fəal iştirak edən, cəsarətli mövqeyi, xeyirxahlıq missiyası ilə seçilən parlaq bir şəxsiyyət kimi həkk olunub: "Akademik Rəfiqə Əliyeva ziyalılığı, kübarlığı, müdrikliyi, xalqına və Vətəninə bağlılığı, dövlətinə sədaqəti ilə onu tanıyanların hər biri üçün insanlıq nümunəsidir".

Rektor qeyd edib ki, akademik Rəfiqə Əliyeva uzun illər ölkəmizdə kimya sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayıb, onun rəhbərliyi ilə 2 doktorluq və 20 namizədlik dissertasiyası müdafiə edilib. Akademik Rəfiqə Əliyeva 2 monoqrafiya, 33 dərslik və dərs vəsaitinin, 20 patentin və 520-dən çox məqalənin müəllifidir. Moskva Dövlət Universitetinin Analitik kimya kafedrasının əməkdaşları tərəfindən nəşr olunmuş 2 cildlik "Analitik kimyanın əsasları" və "Analitik kimyadan məsələ və suallar" kitabları məhz akademik Rəfiqə Əliyevanın rəhbərliyi ilə Azərbaycan dilinə tərcümə edilib. Akademik Rəfiqə Əliyevanın rəhbərliyi ilə "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasında müxtəlif illərdə ətraf mühitin çirklənməsi qiymətləndirilib, zərərli və ağır metalların qatılaşdırılaraq ayrılmasının yeni, ucuz və iqtisadi cəhətdən əlverişli metodikaları işlənilib hazırlanıb. Akademik Rəfiqə Əliyevanın səmərəli elmi-pedaqoji və ictimai fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Alim 2000-ci ildə Əməkdar elm xadimi adına layiq görülüb, 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif olunub. Eyni zamanda görkəmli alim akademik "Yusif Məmmədəliyev adına" mükafata layiq görülüb. 2003-2004-cü tədris ilində akademik Rəfiqə Əliyeva Elm və Təhsil Nazirliyinin "Fəxri Fərman"ı ilə təltif olunub, O, 2005-ci ildə BDU-nun təsis etdiyi "İlin alimi" fəxri adına layiq görülüb. Alimin müəllifi olduğu "Ekologiya" və "Ümumi ekologiya" adlı dərs vəsaitləri Elm və Təhsil Nazirliyinin təsis etdiyi "Həsən Əliyev adına" mükafata layiq bilinib. Akademik Rəfiqə Əliyeva yüksək mənəvi keyfiyyətlərin daşıyıcısı kimi hər zaman insanlara yaxşılıqlar edib. Xeyirxah, nəcib əməllərin sahibi olub. Bütün bu keyfiyyətlər ilk növbədə Rəfiqə Əliyevanın mənsub olduğu ailədən, soykökdən irəli gəlir. Akademik Rəfiqə Əliyevanın əziz və unudulmaz xatirəsi öz taleyini bağladığı və inkişafına böyük töhfələr verdiyi Bakı Dövlət Universitetində həmişə hörmətlə və ehtiramla yad edilir. Görkəmli alimin elmi məktəbi onun davamçıları tərəfindən daha da inkişaf etdiriləcək.

Rəfiqə Əliyevanın qızı, BDU-nun Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva Rəfiqə Əliyevanın əsl pedaqoq, elm fədaisi, gözəl ana, mübariz vətəndaş olduğunu bildirib. Qeyd edib ki, ömrünün 60 ilini Bakı Dövlət Universitetinə həsr edən Rəfiqə Əliyeva bütün tələbələrinin sevimli müəllimi olub: "Akademik Rəfiqə Əliyeva analitik kimya elmində böyük məktəb yaradıb. Hazırda onun tələbələri Azərbaycanda və bir çox ölkələrdə uğurla çalışırlar. Rəfiqə Əliyeva qürurlu, məğrur, prinsipial bir şəxsiyyət idi. Rəfiqə Əliyeva Ümummilli liderimiz Heydər Əliyevin bacısı və silahdaşı kimi bu adı şərəflə daşıyırdı. O, Azərbaycanda ekoloji kimya elminin təməlini qoyan və inkişaf etdirən böyük alimdir. Mən fəxr edirəm ki, anamın yolunu davam etdirirəm".

Daha sonra türk dünyasının fəxri, dünya şöhrətli alim, Nobel mükafatçısı Əziz Səncərin konfrans iştirakçılarına təbrik məktubu oxunub.

Baş nazirin müavini Əli Əhmədov çıxışında akademik Rəfiqə Əliyevanın Universitet alimləri arasında böyük nüfuza malik olduğunu xatırladıb. Bildirib ki, akademik Rəfiqə Əliyeva Azərbaycan elminin, təhsilinin, BDU-nun inkişafında misilsiz xidmətlərə malikdir.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov akademik Rəfiqə Əliyevanın zəngin bioqrafiyasına diqqət çəkərək, onun böyük alim, zəngin intellekt sahibi və tələbkar insan olduğunu qeyd edib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov isə akademik Rəfiqə Əliyevanın nümunəvi alim, pedaqoq, ana olduğunu, Azərbaycan elminin, təhsilinin inkişafına böyük töhfələr verdiyini bildirib. O vurğulayıb ki, ümumtəhsil məktəblərinin "Kimya" dərsliklərində akademik Rəfiqə Əliyevanın tədqiqatlarına dair xüsusi mövzular salınıb.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev isə diqqətə çatdırıb ki, akademik Rəfiqə Əliyevanın neft-qazla çirklənmiş ərazilərin ekologiyasının qorunmasında böyük xidmətləri var: "Rəfiqə Əliyeva neft emalı zavodlarında müasir laboratoriyaların qurulması zamanı çox ciddi ekoloji tələblər qoyurdu. Azərbaycanın neft kimya, qaz kimya sənayelərinin inkişafında Rəfiqə Əliyevanın töhfələri böyükdür".

Sonra "Sağlamlıq və Ekologiya" Beynəlxalq Elmlər Akademiyasının prezidenti akademik Valter Koflerin BDU-nun rektoru Elçin Babayevə təbrik məktubu səsləndirilib.

Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova akademik Rəfiqə Əliyevanın görkəmli alim, pedaqoq, nümunəvi ana olmaqla yanaşı, hər zaman ictimai-siyasi proseslərin önündə olduğunu vurğulayıb. O, Yeni Azərbaycan Partiyasının qurucularından, Ümummilli liderimiz Heydər Əliyevin ən yaxın silahdaşlarından biri idi. Rəfiqə Əliyeva müasir Azərbaycan qadın hərəkatının öncül simalarından biri kimi tanınır.

ISESCO Baş katibinin elm və texnologiya üzrə müşaviri Məhəmməd Şərif isə akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illik yubileyinə həsr olunmuş konfransın kimya elminin inkişafına böyük töhfələr verəcəyinə əminliyini bildirib. Qeyd edib ki, ISESCO ilə BDU-nun çox uğurlu əməkdaşlığı var. O, konfransda iştirakdan məmnunluğunu qeyd edib.



Professor Dilarə Seyidzadə isə akademik Rəfiqə Əliyeva ilə bağlı xatirələrini bölüşüb, onun dəyərli alim, elm fədaisi olmaqla yanaşı, xeyirxah qəlbə sahib gözəl ailə sahibi, əsl dost olduğunu diqqətə çatdırıb.

Akademik Rəfiqə Əliyevanın qızı, dosent, Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova beynəlxalq konfransın təşkilinə görə minnətdarlığını bildirib. O, Rəfiqə Əliyevanın hər zaman ailəsinin qürur mənbəyi, tələbələrinin sevimlisi olduğunu vurğulayıb: "Rəfiqə Əliyeva nəcib, humanist ruha malik şəxsiyyət idi. Onun xatirəsi xalqımızın, tələbələrinin qəlbində əbədi yaşayacaq".

Qeyd edək ki, iki gün davam edəcək konfransın təşkilində əsas məqsəd müasir kimyanın fundamental və tətbiqi sahələri üzrə dünyanın müxtəlif universitet və elmi-tədqiqat institutlarında fəaliyyət göstərən tədqiqatçıları bir araya gətirmək, əldə edilmiş ən mühüm nəticələri müzakirə etmək, yeni prioritet istiqamətləri müəyyənləşdirmək, bu sahədə elmi nailiyyətləri və təcrübələri paylaşmaq, habelə, əldə edilən nəticələrin təcrübədə tətbiqinin forma, metod və yollarını tapmaq və gənclərin elmə olan marağını artırmaqdır.

Türkiyə, Pakistan, Almaniya, Ukrayna, Böyük Britaniya, Belçika, Portuqaliya, Litva, Çin, Hindistan, Vyetnam, Polşa, Özbəkistan, Rusiya, Qazaxıstan, Gürcüstan kimi xarici ölkələrdən, ölkəmizin bir çox ali təhsil müəssisələri və elmi-tədqiqat institutlarından olan tədqiqatçıların iştirakı ilə keçiriləcək konfransda analitik kimya, ekoloji kimya və ətraf mühitin mühafizəsi, kimyanın tədrisi metodikası, perspektivli materialların sintezi, fiziki kimya və qeyri-üzvi materialşünaslıq kimi sahələr üzrə məruzələr dinləniləcək, müzakirələr aparılacaq. Konfransda müxtəlif ölkələrdən olan dəvətli məruzəçilərin bu sahənin problemləri və alınmış ən son nəticələr üzrə məruzələri də dinləniləcək.

(əvvəli 1-ci səhifədə)

***Ulu Öndərin müntəzəm qayğısı ilə əhatə olunan doğma universitetimiz son 19 ildə Prezident İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Prezidentin müvafiq Sərəncamı ilə 2019-cu ildə Bakı Dövlət Universitetinin 100 illik yubileyi təntənəli şəkildə ölkədə və xaricdə qeyd olunub, əməkdaşlarımız ali dövlət mükafatları ilə təltif edilib. Dövlətimizin başçısının universitetin 100 illik yubiley mərasimindəki proqram xarakterli çıxışı bu gün hər birimiz üçün yol xəritəsidir.*** Böyük ehtiram və eyni zamanda məsuliyyət hissi ilə deyirik ki, BDU kollektivi həmişə olduğu kimi bu gün də Ulu Öndərin siyasətini, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi prioritetləri rəhbər tutaraq öz fəaliyyətini davam etdirir və ölkəmizin inkişafı naminə əzmlə çalışır. Xüsusilə, tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsindən ötən 2 il ərzində kollektivimiz və tələbələrimiz əldə etdiyimiz şanlı qələbədən güc alaraq Azərbaycanda elmə, təhsilə, vətəndaş cəmiyyəti quruculuğuna daha böyük töhfələr verir. Kollektivimiz, tələbələrimiz respublikamızda dövlətçiliyin daha da möhkəmləndirilməsi, ulu öndər Heydər Əliyevin inkişaf doktrinasının parlaq şəkildə həyata keçirilməsi yolunda öz missiyasını yerinə yetirir, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın diqqət və qayğısı ilə əhatə olunaraq elmimizə və təhsilimizə xidmət göstərməkdən şərəf duyurlar.

# 103 yaşlı Bakı Dövlət Universiteti

***Bu gün fəxr, qürur və sonsuz ehtiram hissi ilə deyirik ki, 1969-cu ildən – Ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etməsindən sonra Bakı Dövlət Universitetinin həyatında yeni mərhələ başladı. Bu tarixdən sonra BDU Azərbaycan elminin və təhsilinin flaqmanı kimi ölkədə və ittifaq respublikalarının təhsil və elm ocaqları arasında böyük nüfuz qazandı. Universitetin 50 illik yubiley tədbirlərinə Ulu öndər Heydər Əliyevin şəxsən rəhbərlik etməsi, dövlət başçısı kimi bu ali təhsil müəssisəsinə hərtərəfli qayğısı BDU-nun şöhrətini daha da artırdı. 50 illik yubiley tədbirində Ulu öndər Heydər Əliyevin böyük cəsarət nümayiş etdirirək ana dilimizdə çıxış etməsi bu gün də qədirbilən xalqımız tərəfindən ehtiram, hörmət və izzətlə yad edilir.***



103 il əvvəl 2 fakültə, 44 nəfər professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan universitetdə hazırda 16 fakültə, 120 kafedra, 2 elmi-tədqiqat institutu, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, elmi-tədqiqat laboratoriyaları, 2 milyondan çox kitab fondu olan Elmi Kitabxana, 5 muzey, 5 beynəlxalq institut və mərkəz, 1 filial, 1 kollec və 1 lisey fəaliyyət göstərir. Universitetdə ali təhsilin bütün səviyyələrində 24 mindən çox tələbə təhsil alır, 3 mindən çox əməkdaş, o cümlədən 1500 nəfərə qədər professor-müəllim heyəti və elmi işçi çalışır. Onlardan 250-dən çoxu elmlər doktoru, professor, 1000 nəfərə yaxın əməkdaş isə fəlsəfə doktoru, dosentdir.

Hazırda universitetdə tədris tarixi ənənələrin və innovativ dünya təcrübəsinin vəhdəti şəklində həyata keçirilir, elmi-tədqiqat işlərinin məzmunu yenilənir, beynəlxalq akademik əlaqələr, eyni zamanda ölkədaxili əməkdaşlıq inkişaf etdirilir.

BDU-da tələbələrin yüksək səviyyədə təhsil almaları, elmi-tədqiqata təşviq olunmaları və dəstəklənmələri üçün ən müxtəlif innovativ üsul və metodlar tətbiq olunur. Tələbələr müxtəlif platformalarda universitetin idarəçilliyinə cəlb olunur, tələbə təşkilatlarının rolu günbəgün artırılır. Son dövrlər müasir tipli yataqxananın - 5 mərtəbəli, 220 yerlik "Tələbə evi"nin, həmçinin tələbələrin keyfiyyətli, "Kitab evi"nin və Xarici Dil Mərkəzinin, müasir dərslik və dərs vəsaitləri ilə təmin edilməsi üçün BP Azərbaycan şirkətinin dəstəyi ilə müasir mətbəənin fəaliyyətə başlaması, habelə əmək bazarının tələbləri nəzərə alınaraq təhsilin bakalavriat və magistratura səviyyələrində bir sıra yeni ixtisas və ixtisaslaşmaların açılması tələbələrimizdə elmə və təhsilə böyük maraq yaratmışdır. Təhsilin bütün səviyyələri (bakalavriat, magistratura, doktorantura) üzrə təhsil proqramları sənaye və biznes müəssisələrinin mütəxəssisləri ilə birgə hazırlanır və yenilənir. İstehsalat müəssisələrindən olan mütəxəssislər tədrisə və elmi fəaliyyətə cəlb olunur, ustad dərsləri və elmi seminarlar təşkil olunur. Bu cür əməkdaşlıq çərçivəsində əmək bazarının ehtiyac və tələbləri öyrənilir. Yeni ixtisaslar (ixtisaslaşmalar) müəyyən edilir, elmi-pedaqoji potensial nəzərə alınmaqla həmin ixtisaslar üzrə kadrlar hazırlanır. Son illər BDU-nun təşəbbüsü ilə "Aktuar riyaziyyat", "Ekologiya hüququ", "Mobil tətbiqlərin hazırlanması və oyun dizaynı", "Mədəniyyət hüququ", "Vergi hüququ" kimi ixtisaslar açılıb. "Aqrar hüquq", "Qida məhsullarının kimyəvi ekspertizası", "Təbii ehtiyatlar hüququ", "İctimaiyyətlə əlaqələr" və digər yeni ixtisasların açılması üzrə işlər aparılır.

Bir ildən çoxdur ki, tətbiq edilən "Code for Future" layihəsi üzrə "Code Academy" və 2022/2023-cü tədris ilindən etibarən isə "DevEducation" ilə tərəfdaşlıq çərçivəsində Elm və Təhsil Nazirliyinin dəstəyi ilə BDU tələbələrinə müasir kompüterlərlə təchiz olunmuş auditoriyalarda proqramlaşdırma, sistem administratorluğu və şəbəkə administratorluğu üzrə biliklərinin artırılması üçün şərait yaradılıb.

Son illər BDU məzunları müəllimlərin işə qəbulu (MİQ) imtahanlarında ən yüksək nəticələr göstərir, eyni zamanda, tələbələrimiz və lisey şagirdlərimiz beynəlxalq, regional və yerli olimpiadalarda, bilik yarışmalarında ön yerləri tuturlar. BDU-nun onlarca məzunu son illər yüksək nəticələr əldə edərək nüfuzlu xarici universitetlərə qəbul olub.

Universitetdə 2020/2021-ci tədris ilinin yay semestrindən etibarən tətbiq edilən "Blackboard" - tədrisin idarə edilməsi elektron sistemi qısa zaman ərzində özünü doğruldub. Hazırda sistem üzərindən tələbələrin biliyinin qiymətləndirilməsi, dərslərin videoyazılışının aparılması, eyni zamanda, mobil tətbiq vasitəsilə məlumatların daha rahat əldə edilməsi, davamlı olaraq tələbələrin və müəllimlərin fəallığının təhlil olunması prosesi uğurla həyata keçirilir.

Universitetdə elmi fəaliyyətin səmərəli təşkili məqsədilə müəyyənləşdirilən strateji xətt sayəsində son dövrlər aparılan elmi-tədqiqat işlərinin məzmunu yenilənib, səviyyəsi artıb, alınan nəticələrin bilavasitə tətbiq sahələrinə yönəldilməsi istiqamətində əvvəlki illərlə müqayisədə daha müsbət nəticələr əldə edilib. BDU alimlərinin elmi-tədqiqat institutlarında, laboratoriyalarda və kafedralarda aldığı nəticələr mühüm hesabatlara daxil edilib, praktik əhəmiyyət kəsb edən işlər kimi yüksək dəyərləndirilib. Ölkəmizdə konvergens-innovativ biliklərə və praktiki vərdişlərə malik ali təhsilli mütəxəssislərə artan tələbatı nəzərə alaraq BDU istehsalat müəssisələri ilə olan mövcud əlaqələrini genişləndirib, fakültə, elmi-tədqiqat institut, mərkəz və laboratoriyalarının elmi-tədqiqat istiqamətləri BDU-nun 2021-2030-cu illər üçün Strateji İnkişaf Planına uyğunlaşdırılıb, fundamental və tətbiqi istiqamətlərə üstünlük verilib.

BDU-da 2021-ci ildə ilk dəfə olaraq yaradılmış Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi (Center of Excellence) təhsil-elm-istehsalat əlaqəsinin tətbiqi və elmi nəticələrin kommersiyalaşdırılması prinsiplərini əsas götürərək sənaye və istehsalat ilə əlaqələri genişləndirib. Mükəmməllik Mərkəzinin nəzdində Sənaye kimyası, Biomühəndislik, Mikrobiologiya və virusologiya, Astrokosmik və atmosfer tədqiqatları və Rəqəmsal araşdırmalar kimi yeni sənayeyönümlü elmi-tədqiqat laboratoriyalarının yaradılması qurumun fəaliyyətini daha da gücləndirib. Neft və qaz sənayesi üzrə bir sıra kommersiya əsaslı layihə müqavilələri imzalanıb.

Cari ildə tələbələrin elmi-tədqiqatlara daha geniş şəkildə cəlb edilməsi və onların elmi fəaliyyətinin təşviqi məqsədilə yaradılan Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində də elmi araşdırmaların əsası qoyulur. Mərkəzdə çalışan tələbə, magistrant və gənc tədqiqatçılar "TEXNOFEST-Azərbaycan" Aviasiya, Kosmos və Texnologiya Festivalında öz layihələri ilə çıxış ediblər. "Aqrar texnologiyalar" müsabiqəsi üzrə "SAP əsaslı hidrogellərin suvarmada tətbiqi və ağıllı suvarma sistemi" adlı layihə 2-ci yerə, "Sosial yönümlü texnologiyalar" müsabiqəsi üzrə "Triboelektrik nanogeneratorlar əsasında görmə və eşitmə əngəlli insanlar üçün sensorların hazırlanması" adlı layihə isə 3-cü yerə layiq görülüb. Mərkəzin üzvləri SOCAR və Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) birgə təşkilatçılığı ilə 2022-ci il sentyabrın 9-11-də keçirilmiş "Enerji və Dördüncü Sənaye İnqilabı" Hakaton yarışmasında 2 layihə ilə iştirak edib. Qeyd edək ki, bu layihələr Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında bərpa olunan enerji resurslarından istifadə mövzusuna həsr olunub.

Elmi fəaliyyətin təşkili və innovasiyalar, Tədrisin təşkili və idarə olunması, Tələbələrin elmi-texniki yaradıcılıq mərkəzlərinin birgə fəaliyyəti çərçivəsində tələbələrdə yaradıcılığın formalaşması (kreativlik) üçün qeyri-standart tapşırıqların birgə əməkdaşlıq və komanda şəklində həll olunması və öz fərdi biliklərini paylaşmaq bacarıqlarının aşılanması istiqamətində işlər aparılır, onlara elmi ideyaların reallaşdırılması, patentləşdirilməsi, tanıdılması və tətbiqi istiqamətlərində elmi və pedaqoji yönümlü təlimlər keçirilir, elmi tədbirlər təşkil olunur. Yeni texnologiyaların transferi və gənc tədqiqatçılara öyrədilməsi, sənayedə çalışan mütəxəssislərin tədrisə cəlb olunması, dünyanın müxtəlif ölkələrinin (Türkiyə, ABŞ, Böyük Britaniya, İtaliya, Qazaxıstan, Ukrayna, Yaponiya, Rumıniya, Almaniya, Macarıstan, Çex Respublikası və s.) elmi-tədqiqat institutlarında və universitetlərində çalışan mütəxəssislərin ustad dərsləri, mühazirələri və elmi seminarları təşkil olunur.

Universitet alimlərinin nüfuzlu elmi nəşrlərdə çap edilən məqalələrinin sayı da artan dinamika ilə inkişaf edir. BDU-nun inkişaf strategiyasının əsas hədəflərindən biri də konkret prioritet istiqamətlər üzrə elmi-tədqiqatları elmin müasir inkişaf istiqamətlərinə uyğun müəyyənləşdirməkdir. Bu prioritet istiqamətlərin əsas hədəfi fundamental və tətbiqi sahələri üzrə dünyanın müxtəlif universitet və elmi-tədqiqat institutlarında fəaliyyət göstərən tədqiqatçıları bir araya gətirmək, əldə edilmiş ən mühüm nəticələri müzakirə etmək, yeni prioritet istiqamətləri müəyyənləşdirməkdir, bu sahədə əldə olunan elmi nailiyyətləri və təcrübələri paylaşmaq, habelə, əldə edilən nəticələrin təcrübədə tətbiqinin forma, metod və yollarını müəyyənləşdirməkdir.

Bu məqsədlə gənclərin elmə olan marağını artırmaq üçün təkcə 2022-ci ildə BDU-da 20-yə yaxın respublika və beynəlxalq səviyyəli konfranslar keçirilib.

***Bu il sentyabrın 22-dən oktyabrın 2-dək Bakı Dövlət Universiteti və "Volkswagen" Fondunun birgə təşkilatçılığı ilə "Kvant elminin və texnologiyasının müasir meylləri: kvant materiallarından kvant informasiyasına qədər" adlı Beynəlxalq Yay Məktəbinin və sentyabrın 28-30-da "Mərkəzi Asiyada və Qafqazda dinamika günləri" adlı beynəlxalq konfransın, sentyabrın 29-30-da BDU və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) birgə təşkilatçılığı ilə akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illiyinə həsr olunmuş "Nəzəri və eksperimental kimyanın müasir problemləri" konfransının, oktyabrın 13-14-də BDU, ICESCO, İzmir Yüksək Texnologiya İnstitutu (Türkiyə) və Lahore Universitetinin (Pakistan) birgə təşkilatçılığı ilə professor Mirəli Axundovun anadan olmasının 120 illiyinə həsr olunmuş "Biologiyada nailiyyətlər və çağırışlar" konfransının, oktyabrın 31-dən noyabrın 4-dək BMT-nin Kosmos Məsələləri üzrə Ofisinin (UNOOSA) və BDU-nun birgə təşkilatçılığı, Qlobal Naviqasiya Peyk Sistemləri (GNSS) üzrə Beynəlxalq Komitənin (ICG) dəstəyi ilə "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer" üzrə BMT/Azərbaycan beynəlxalq tədbirinin ("United Nations/Azerbaijan Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere") keçirilməsi elmi tədqiqatların səviyyəsinin yüksəldilməsində və gənclərin elmi tədqiqatlara təşviq edilməsində əhəmiyyətli rol oynayacaq.***

Bu mənada BDU Avropa və dünya tendensiyalarına uyğun qabaqcıl texnologiya və nailiyyətlər səviyyəsində peşəkar sahələrin yaradılması və inkişafını təmin edə bilən mütəxəssislər, elmi və elmi-pedaqoji, mühəndis-texniki kadrlar hazırlayan, sənaye müəssisələri ilə olan mövcud əlaqələri inkişaf etdirməklə elmi nəticələri kommersiyalaşdıran struktura və bazaya malikdir. "Clarivate Analytics" Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, BDU-nun Hirş indeksi (h-indeksi) artaraq hazırda 52-yə yüksəlib. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2018-ci ildə 35-ə, ötən il 47-ə bərabər idi. Hər bir əsərə edilən istinadların orta sayı isə ötən ilki 5.11 göstəricisindən 6.13-ə qədər yüksəlib. Agentliyin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorant və tələbələri tərəfindən "Web of Science" bazasına daxil olan dərgilərdə artıq 3615 elmi əsər nəşr edilib. Bu əsərlərə 22000-dən çox istinad edilib. 2022-ci ilin ilk 8 ayı ərzində "Web of Science" bazasına daxil olan dərgilərdə BDU tərəfindən 148 əsər nəşr edilib və nəşr edilən əsərlərə 3000-dən



çox istinad edilib. Onu da qeyd edək ki, bu göstəricilərlə BDU Azərbaycan universitetləri arasında liderdir.

BDU-da "Web of Science Core Collection" bazasında ən yüksək - Q1 kvartil kateqoriyalı jurnallar siyahısında yer alan "Applied and Computational Mathematics" və Q2 kvartil kateqoriyalı jurnallar siyahısında yer alan "TWMS Journal Pure and Applied Mathematics" jurnalları dərc olunur. Qeyd edək ki, "Applied and Computational Mathematics" jurnalının impakt faktoru (təsir əmsalı) 4.771-ə qədər yüksəlib. Hazırda jurnalın 5 il üzrə orta impakt faktoru 3.172 təşkil edir. Jurnal dünyada tətbiqi riyaziyyat kateqoriyası üzrə 267 beynəlxalq nəşr arasında 4-cü yerdədir. Jurnalın redaksiya heyətinə dünyanın 20 ölkəsindən 38 görkəmli alim daxildir. BDU-nun "Web of Science" bazasında indekslənən digər elmi nəşrinin - "TWMS Journal Pure and Applied Mathematics" jurnalının impakt faktoru (təsir əmsalı) 2.722-yə qədər yüksəlib. Hazırda jurnalın 5 il üzrə orta impakt faktoru 1.846 təşkil edir. Jurnal dünyada riyaziyyat kateqoriyası üzrə "Web of Science" bazasında indekslənən 332 beynəlxalq nəşr arasında 17-ci, Avropada isə 9-cu yerdə qərarlaşıb.

BDU-da əməkdaşların elmi fəaliyyətə təşviqi üçün davamlı olaraq məqsədyönlü tədbirlər həyata keçirilir, nüfuzlu elmi jurnallarda dərc edilən məqalələrin müəllifləri mükafatlandırılır. 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş "İlin gənc alimi" və 27 Mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "İlin alimi" nominasiyası üzrə müsabiqələr təşkil olunur.

Son illər universitetin beynəlxalq əlaqələri də ən müxtəlif platformalarda genişlənməkdə və inkişaf etməkdədir. Son dövrlər BDU ilə Türkiyənin Bilkənt, Ankara, İstanbul, Kafkas və digər universitetləri, İzmir Yüksək Texnologiya İnstitutu, Fransanın Lion-2 Universiteti, Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universiteti, Berlin Texniki Universiteti, Çinin Anhui Universiteti, Çex Respublikasının Cənubi Bohemia Universiteti, Özbəkistanın Daşkənd Dövlət Hüquq Universiteti, Daşkənd Dövlət Şərqşünaslıq Universiteti, Q.V.Plexanov adına Rusiya İqtisad Universiteti, Cənubi Koreyanın Kyunqvoon Universiteti, Qazaxıstanın Əl-Farabi adına Qazax Milli Universiteti, Atırau Dövlət Universiteti, Pakistanın Lahor Universiteti, İsrailin Holon Texnologiya İnstitutu, ABŞ-ın Linkoln Universiteti, Portuqaliyanın Tomar Politexnik Universiteti, İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti və digər universitetlər arasında əməkdaşlıq sazişləri, bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə ikili diplom proqramına dair müqavilələr imzalanıb. 2022-ci ildə həmçinin BDU Almaniyanın Berlin Humboldt, Çexiyanın Karlova, Rumıniyanın Babes-Bolyai Universitetləri ilə Erasmus mübadilə protokolu imzalayıb. Bütün bunlar BDU-nun dünyanın qabaqcıl elm və təhsil məkanına inteqrasiyasını şərtləndirir və bu prosesi daha da sürətləndirir.

BDU nüfuzlu beynəlxalq təşkilatlarla da əməkdaşlığı özünün prioritetlərindən hesab edir və bu istiqamətdə səylərini günbəgün gücləndirir. Bu il BDU daha bir beynəlxalq quruma - ICESCO-nun nəzdində fəaliyyət göstərən İslam Dünyası Universitetləri Federasiyasına (FUIW) üzv qəbul edildi. FUIW-ə üzvlük BDU-nun akademik və inzibati imkanlarının genişlənməsinə, elmi tədqiqatların inkişafına və təcrübə mübadiləsinin reallaşmasına şərait yaradacaq. Bu sahəyə yönəlmiş proqram və layihələrin həyata keçirilməsi isə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və təşviq edilməsi istiqamətində mühüm rol oynayacaq. 1987-ci ildə Mərakeşin Rabat şəhərində əsası qoyulmuş İslam Dünyası Universitetləri Federasiyasının əsas məqsədi bütün sahələrdə elmi tədqiqatların səviyyəsini yüksəltmək, təhsil, elm, mədəniyyət və texnologiya sahələrində təcrübə mübadiləsini artırmaq, islam ölkələrində elmi və texnoloji inkişafdan faydalanmaq üçün ali təhsilin təkmilləşdirilməsi və inkişafına yardım etməkdir.

2022-ci ildən Universitetdə ICESCO-nun Biotibbi materiallar kafedrasının fəaliyyətə başlaması da xüsusi qeyd edilməlidir. Həmçinin vurğulamaq lazımdır ki, kafedra ICESCO-nun Azərbaycanda ilk ixtisaslaşdırılmış kafedrasıdır. Biotibbi materiallar kafedrasının yaradılmasında məqsəd sənaye və akademik ictimaiyyət arasında əlaqələri, təhsil-elm-sənaye üçlüyünün qarşılıqlı inteqrasiyasını inkişaf etdirmək, tələbə və gənc alimləri biotibbi materialların tətbiqi ilə bağlı tədqiqatlara cəlb etmək, həmçinin bu sahədə beynəlxalq əməkdaşlığı genişləndirməkdir. Kafedrada akademik heyətlə sənayedən olan mütəxəssislərin birgə əməkdaşlığı tibbin müxtəlif sahələri üçün perspektiv sayılan nanomodifikasiya olunmuş materialların laboratoriyadan istehsalata kliniki transferinin məqsədyönlü şəkildə asan həyata keçirilməsinə şərait yaradılacaq. Beynəlxalq fənlərarası şəbəkənin yaradılması yolu ilə nanosistemlərin ilkin dizaynının hazırlanması, effektivliyinin klinikadan əvvəlki sınaqlarının aparılması, farmakokinetika və toksikliyinin müəyyən edilməsinə nail olunacaq. Kafedra biotibbi materiallar üzərində tədqiqat işlərin aparılmasına, ICESCO-ya üzv dövlətlərdən olan tələbə və gənc alimlərin bu araşdırmalara cəlb edilməsinə və müxtəlif ölkələrlə bu sahədə əməkdaşlığın qurulmasına yardım göstərəcək.

BDU ölkəmizdə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq dünya elminin qabaqcıl elmi və təlim-tədris nailiyyətlərindən istifadə etməklə əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması istiqamətində ABŞ, Almaniya, Fransa, İsrail, İsveç, Qazaxıstan və s. kimi ölkələrin qabaqcıl 8 universitet və institutu ilə bakalavriat, magistratura, doktorantura pilləsi üzrə beynəlxalq ikili diplom proqramlarını tətbiq edir. BDU beynəlxalq reytinqlərdə mövqeyini möhkəmləndirir. Ötən il BDU Azərbaycandan yeganə universitet olaraq Times Higher Education beynəlxalq reytinqinə daxil edilib.

BDU-da beynəlxalq əlaqələrlə yanaşı, ölkədaxili əməkdaşlığa da xüsusi önəm verilir. Bu əlaqələr dövlət qurumları və özəl şirkətlərlə yaradılır, bilavasitə tədris prosesinin, elmi tədqiqat fəaliyyətinin səmərəli təşkilinə, eləcə də məzunların işlə təmin olunmasına yönəldilir. Son dövrlər Qarabağ Dirçəliş Fondu, Baş Prokurorluq, Əqli Mülkiyyət Agentliyi, Vəkillər Kollegiyası, Əmlak Məsələləri Dövlət Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), DOST Agentliyi, AzerGold, PAŞA Bank, "PAŞA sığorta", "PAŞA Həyat Sığorta", Mediasiya Şurası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, "Xəzər TV" MMC, "ARB 24" telekanalı və digər qurumlarla müvafiq memorandumlar, müqavilələr imzalanıb. Təsadüfi deyil ki, BDU-nun əlaqələrinin inkişafı nəticəsində son 2 ildə 30-a yaxın milli və beynəlxalq qrant və müqavilə əsasında layihə həyata keçirilib, 80-dən çox tələbə, doktorant, gənc tədqiqatçı layihələrdə təmsil olunub.

2020-ci ilin sentyabr ayının 27-də mənfur düşmənin növbəti təxribatlarına cavab olaraq başlayan və tarixi Zəfərlə başa çatan Vətən müharibəsində BDU kollektivi, tələbələrimiz və məzunlarımız həm ön, həm də arxa cəbhədə fədakarlıq göstərib. Universitetin çoxsaylı tələbə və məzunu könüllü olaraq cəbhəyə yollanmış, onlardan 19 nəfəri müqəddəs şəhidlik zirvəsinə ucalıb. Universitet rəhbərliyi və kollektivi mütəmadi olaraq şəhid məzun və tələbələrin ailə üzvləri ilə əlaqə saxlayır, Vətən müharibəsindən qalib əsgər kimi qayıtmış və təhsilini davam etdirən tələbələrə xüsusi həssaslıqla yanaşır. Eyni zamanda, Vətən müharibəsi günlərində BDU kollektivi və tələbələri ön cəbhədə olduğu kimi, arxa cəbhədə də mübarizə aparıb, xüsusilə informasiya savaşına özlərinin töhfələrini veriblər. Tarixi qələbədən keçən dövr ərzində də BDU kollektivi bu sahədə fəaliyyətini davam etdirir, informasiya müharibəsində, müharibənin nəticələrinin araşdırılmasında mühüm rol oynayır.

Vətən müharibəsində müzəffər sərkərdəmiz, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun parlaq Qələbəsindən sonra BDU-da iki akademik layihəyə başlanılıb. BDU-nun nüfuzlu professor-müəllim heyətinin, ölkəmizin nüfuzlu alimlərinin iştirak etdiyi hər iki layihə uğurla yerinə yetirilib. Bu layihələrdən birincisi - "Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqlarına dair kompleks beynəlxalq hesabat" Azərbaycan və ingilis dillərində nəşr olunub və ictimaiyyətə təqdim edilib. Beynəlxalq hesabatda təqribən 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən Azərbaycan Respublikası ərazilərinin işğalı nəticəsində həmin ərazilərdən olan məcburi köçkünlərin pozulmuş hüquqlarının, dəymiş ziyanın əhatə dairəsinin və istiqamətlərinin müəyyən edilməsi, beynəlxalq təcrübəni öyrənməklə pozulmuş hüquqların bərpası, nəhayət dəymiş ziyanın Ermənistan tərəfindən ödənilməsi üçün beynəlxalq-hüquqi mexanizmlər təhlil edilib. Hesab edirik ki, hesabat olduqca aktual bir məsələnin beynəlxalq-hüquqi müstəvidə həll olunmasına yönəlib və məsələnin gələcəkdə müsbət həll olunmasına da töhfə verəcək.

*(ardı 6-cı səhifədə)*

***İkinci akademik layihə isə "Vətən müharibəsi dövründə yerli və xarici medianın fəaliyyətinin təhlili" layihəsidir. Biz ölkəmizin jurnalistika elmi sahəsində ən böyük elmi potensialı olan ali məktəbi kimi, hesab etdik ki, Vətən müharibəsi dövründə Azərbaycan Respublikası Prezidentinin xarici KİV-ə müsahibələrinin Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında, informasiya müharibəsində oynadığı əvəzsiz rolunu öyrənmək, müharibə dövründə yerli və xarici mediada dərc olunan məqalələri və müsahibələri araşdırmaq, beynəlxalq medianın baxışını və yerli medianın fəaliyyətini akademik səviyyədə qiymətləndirərək, bu materiallardan tədris prosesində istifadə etmək zəruridir***

Ona görə də universitetin nüfuzlu alimləri və ölkəmizin tanınmış jurnalistləri bu layihəyə cəlb edildi. Layihə uğurla başa çatdı və layihə çərçivəsində üç kitab nəşr olundu.

Birinci kitabda - "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri" kitabında Vətən müharibəsinin getdiyi gərgin günlərdə dövlətimizin başçısının xarici media orqanlarının nümayəndələrinə verdiyi parlaq müsahibələri, bu müsahibələrin informasiya cəbhəsində, Qarabağ həqiqətlərinin, Azərbaycanın haqq mübarizəsinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rolu təhlil edilib. Kitabda Prezidentin həmin parlaq müsahibələri jurnalistika aspektindən təhlil olunub, ölkə rəhbərinin müsahibələri və bu müsahibələrin təhlili BDU Elmi Şurasının qərarı ilə dərs vəsaiti kimi təsdiq edilib. İnanırıq ki, bu dərs vəsaiti tədris prosesində geniş istifadə olunacaq, jurnalistika, tarix, beynəlxalq münasibətlər və digər əlaqəli ixtisaslar üzrə təhsil alan tələbələr üçün qiymətli mənbə olacaq.

"Vətən müharibəsi yerli və xarici mediada" adlı ikinci kitabda Vətən müharibəsi dövründə ölkə KİV-nin fəaliyyəti, xarici media orqanlarında, eləcə də Ermənistan mətbuatında dərc olunan məqalələr, müsahibələr, reportajlar, analitik yazılar və s. araşdırılıb, beynəlxalq medianın müharibəyə baxışına nəzər salınıb, fərqli yanaşmalar sistemləşdirilib, ümumiləşdirmələr aparılaraq təqdim olunub.

"Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinin ölkə mediasında çıxışları" adlı üçüncü kitabda isə 44 günlük Vətən müharibəsi dövründə BDU-nun professor-müəllim heyəti və tələbələrinin kütləvi informasiya vasitələrində çıxışları toplanıb.

Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə əzəli torpaqlarımızın işğaldan azad olunmasından sonra 2022-ci ilin "Şuşa İli" elan edilməsi bütün xalqımız kimi BDU kollektivi tərəfindən də rəğbətlə qarşılanıb. Bu tarixi hadisə ilə əlaqədar BDU Elmi Şurasında "Şuşa İli" ilə əlaqədar BDU-nun Tədbirlər Planı təsdiq olunub. Tədbirlər Planına Şuşa ilə bağlı elmi-tədqiqat işlərinin aparılması, Şuşanın tarixi, ədəbi mühiti və mədəniyyət abidələrinə həsr olunmuş monoqrafiyaların nəşri, beynəlxalq elmi konfrans, seminar, dəyirmi masa, açıq dərslərin, foto, rəsm müsabiqələri, ədəbiyyat festivalları və intellektual bilik yarışlarının keçirilməsi də daxildir. Onu da qürurla vurğulayırıq ki, 2022-ci ildə BDU əməkdaşlarının və tələbələrinin Şuşaya səfərləri təşkil edilib.




2022-ci ildə BDU-nun daha bir uğuru kimi Azərbaycan Yazıçılar Birliyi, Milli Məclisin Mədəniyyət Komitəsi, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Beynəlxalq Türk Akademiyası, TÜRKSOY, TÜRKPA, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları İdarəsi, Yunus Əmrə İnstitutu, İLESAM və Azərbaycan Yaradıcılıq Fondu ilə birlikdə Universitetdə keçirilən Birinci Türk Dünyası Ədəbiyyat və Kitab Festivalını xüsusi qeyd etmək olar. Festivalın birinci gününün Şuşa Günü, ikinci gününün Türk Dünyası Günü, üçüncü gününün isə Dədə Qorqud Günü adlandırılması da böyük rəmzi məna daşıyır. Festivalın türk dünyasının böyük mütəfəkkirləri Nizaminin, Yunus Əmrənin, Əlişir Nəvainin, Məhdimqulunun, Tüğölbay Sıdıkbekovun və Abayın xatirəsinə həsr edilməsi də olduqca önəmlidir. Festival günlərində Mirzə Ələkbər Sabirin, Həsən bəy Zərdabinin, Əhməd Cavadın, Xurşidbanu Natəvanın, Hüseyn Cavidin, Əhməd Baydursunlunun, Mirzə Fətəli Axundzadənin, Ömər Faiq Nemanzadənin yubiley tədbirlərinin keçirilməsi, müxtəlif kitab təqdimatları tədbirin əhəmiyyətini, estetikasını, mənəvi dəyərini daha da artırıb.

BDU-nun qazandığı nailiyyətlərdən bəhs edərkən universitetin 2021-ci ildə nəşr etdiyi iki cildlik "Azərbaycan Respublikasının tarixi (1991-2021)" kitabının əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Bu qiymətli əsərin ortaya çıxmasında əlbəttə ki, Ulu Öndərimiz Heydər Əliyevin alimlərimizin qarşısında qoyduğu tarixi vəzifələr mühüm rol oynayıb. Ali həqiqətdir ki, müstəqil Azərbaycan Respublikasının tarixi dedikdə, xalqımızın Ümummilli lideri, bütün həyatını Azərbaycan dövlətinin, xalqının inkişafına həsr etmiş Ulu öndərimiz Heydər Əliyevi xatırlayırıq. Ulu Öndərimiz hər zaman tariximizin obyektiv, etibarlı mənbələr əsasında, ciddi tarixşünaslar tərəfindən yazılmasını vacib hesab edirdi. Bu istiqamətdə müdrik rəhbər elm və təhsil ictimaiyyətinin qarşısında mühüm vəzifələr qoyub, prioritet hədəflər müəyyənləşdirib. Bu mənada iki cilddə nəşr olunan "Azərbaycan Respublikasının tarixi" kitabı həmin vəzifələrin yerinə yetirilməsinə böyük töhfələr verəcək. Kitabın Qarabağ Zəfərindən sonra ərsəyə gəlməsi xüsusilə əlamətdar və qürurvericidir.

Kitab 1991-ci ildə müstəqilliyimizin bərpasından 2021-ci ilə qədər olan otuz illik dövrü, onun birinci cildi isə 2003-cü ilə qədər olan dövrü əhatə edir. Bu dövr ərzində dövlətimiz, xüsusilə müstəqilliyin ilk illərində kifayət qədər keşməkeşli mərhələlərdən keçib, nəhayət, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə sabitlik, quruculuq və inkişaf mərhələsinə qədəm qoyub. Ulu Öndərimizin rəhbərlik etdiyi dövrdə Azərbaycan daxili və xarici siyasətdə bir çox uğurlara imza atıb. Ölkədə həyata keçirilən siyasi, sosial, iqtisadi islahatlar Azərbaycanda demokratiyanın möhkəm təməllər üzərində inkişafına zəmin yaradıb, xalqımızın rifahı günbəgün yaxşılaşıbdır.

Kitabın ikinci cildi 2003-2021-ci illəri əhatə edir. 2003-cü ilin oktyabr ayında İlham Əliyev yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçildi. Cənab İlham Əliyevin Prezidentliyi dövründə müstəqil Azərbaycan dövləti ordu quruculuğu, sosial-iqtisadi islahatlar, demokratikləşmə, beynəlxalq əlaqələr sahələrində inkişafının növbəti mərhələsinə qədəm qoydu. Ölkəmizdə bütün sahələrdə Ulu Öndərimizin yaratdığı ənənələr davam və inkişaf etdirildi. Bütün bu məsələlər kitabın ikinci cildində oxucuların diqqətinə faktlar və sənədlər işığında çatdırılır. Kitabın ikinci cildində toxunulan ən vacib məsələlərdən biri artıq tarixdə qalmış Qarabağ münaqişəsi ətrafında gedən danışıqlar prosesinin uğursuzluğu fonunda Ermənistanın növbəti təxribatları, bu təxribatlara cavab kimi başlayan Vətən müharibəsi və onun nəticələridir. Tariximizin Prezident İlham Əliyev tərəfindən yazılmış bu parlaq səhifələrinin kitabda yer alması nəşrin tarixi əhəmiyyətini daha da artırır.

Kitabın son bölməsində işğaldan azad olunmuş torpaqlardakı quruculuq işləri, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın azad olunmuş ərazilərə tarixi səfərləri, azad edilmiş ərazilərdə həyata keçirilən böyük layihələr əksini tapır ki, bütün bunlar qüdrətli Azərbaycanın parlaq gələcəyindən xəbər verir. Xüsusilə, dövlətimizin başçısı tərəfindən Şuşanın "Azərbaycanın mədəniyyət paytaxtı" elan edilməsi, Azərbaycan-Türkiyə arasındakı dostluq-qardaşlıq münasibətlərinin zirvəsi hesab edilən tarixi Şuşa Bəyannaməsinin imzalanması regionun hərtərəfli inkişafına mühüm töhfələr verəcək. Bakı Dövlət Universitetinin Elmi Şurasının təşəbbüsü ilə ərsəyə gəlmiş bu kitab tariximizin yüksəliş və zəfər mərhələsi ilə yekunlaşır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yüksəliş və Zəfər tariximiz isə davam edir, bu şanlı tarixin hər gün yeni-yeni parlaq səhifələri yazılır. Onu da vurğulamaq lazımdır ki, kitab akademik elmi mühit, bütövlükdə Azərbaycan ictimaiyyəti tərəfindən maraqla qarşılanıb, fundamental nəşrin Heydər Əliyev Mərkəzində ölkənin ali struktur rəhbərlərinin, nüfuzlu alimlərinin, tanınmış ziyalıların iştirakı ilə təntənəli təqdimat mərasimi keçirilib. Eyni zamanda, kitab haqqında mətbuatda görkəmli alimlərin resenziyaları dərc edilib.

Artıq ikinci ildir ki, doğma universitetimizin yaradılmasının növbəti ildönümünü torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün təmin olunması şəraitində qeyd edirik. Möhkəm təməlləri Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan Respublikası Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sayəsində dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilib. Tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsindən keçən dövr ərzində ölkəmiz günbəgün daha da inkişaf edir. Düşmən tapdağından azad edilmiş əzəli torpaqlarımızda müqayisəyəgəlməz sürətlə genişmiqyaslı quruculuq işləri aparılır, qəsəbələr salınır, hava limanları inşa edilir. Bu günlərdə Müzəffər Ali Baş Komandanımızın dəmir yumruğu, əyilməz iradəsi sayəsində Laçın şəhərinin, Sus və Zabux kəndlərinin üzərində ordumuzun nəzarətinin bərpa olunması tarixi Zəfərimizi daha da möhkəmləndirib, Azərbaycanın bölgədəki mövqeyini, nüfuzunu daha da artırıb. Hazırda bütün xalqımız kimi BDU kollektivi də bu xoş xəbərlərin, bir-birinin ardınca davam edən zəfərlərimizin ovqatı ilə daha əzmlə, gələcəyə daha böyük inamla çalışır. Bu gün - ərazi bütövlüyünü bərpa etmiş, Qarabağda üçrəngli bayrağını ucaltmış müstəqil Azərbaycan dövlətinin vətəndaşı olmaq hər birimiz üçün şərəf və sonsuz qürur mənbəyidir. Müstəqilliyimizin memarı, Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı, müdrik rəhbərin siyasi kursuna sədaqətin simvolu möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın Şuşadan Zəngəzura istiqamətlənən Zəfər yolu davam edir. Qalib ölkənin 103 yaşlı ali təhsil müəssisəsinin - BDU-nun çoxminli kollektivi və tələbələri ölkəmizin bugünkü inkişafından, tərəqqisindən güc alaraq gələcəyə daha böyük inamla qədəm qoyur.

***Elçin Babayev***
*Bakı Dövlət Universitetinin rektoru*

*AZƏRTAC*
*01.09.2022*

# Görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin anım günüdür

## *28 sentyabr XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin vəfatından 44 il ötür*

***Mir Cəlal Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanda (Ərdəbil ostanı) yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığı burada keçib. Mir Cəlal 10 yaşında olanda atası vəfat edib və o, böyük qardaşının himayəsində yaşayıb.***

Mir Cəlal Paşayev 1918-1919-cu illərdə Xeyriyyə Cəmiyyətinin köməyi ilə ibtidai təhsil alıb və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darül müəllimlinə daxil olub. Tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri seçilib. Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində, Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik edib və millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini mənimsədib. Bu mənada Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri misilsizdir.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. Sözün gücünə güvənib, onun böyüklüyünə baş əyən sənətkarın könüllərə yanğı salmış "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi ədəbiyyat tariximizin səhifələrində müəllifinə əbədiyaşarlıq qazandırıb. Onun böyük zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir.

Bakı Dövlət Universitetinin sevimli müəllimi, nüfuzlu professoru kimi xatirələrdə daim yaşayan Mir Cəlal Paşayev həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını, tələbələrini sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir".

XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə görünən Mir Cəlal az sonra istedadlı və orijinal yaradıcılıq üslubu olan yazıçı kimi tanınıb. Mir Cəlal öz yazı üslubu ilə həmkarlarından fərqlənərək Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirib. XX əsr Azərbaycan ədəbiyyatının bir sıra



nailiyyətləri bilavasitə Mir Cəlal Paşayevin adı ilə bağlıdır. Əlli illik yaradıcılıq fəaliyyəti dövründə o, görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutub. Təkcə "Bir gəncin manifesti" əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanıb. Bu əsər çapdan çıxanda onun heç 30 yaşı yox idi. 1928-ci ildə mətbuatda ilk şeirləri ("Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir") çap olunub. O dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" və digər hekayələrini çap etdirib. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerklər və novellalar kitabları işıq üzü görüb.

Mir Cəlalın ilk irihəcmli əsəri - "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunub. Hələ yarım əsr bundan əvvəl akademik Məmməd Arif yazırdı: "Mir Cəlal "Dirilən adam"la diqqətli bir realist yazıçı olduğunu göstərib".

"Bir gəncin manifesti" əsəri isə yazıçının həyatında böyük bir dönüş yaradıb, ədəbi zirvəyə aparan yoluna cığır açıb və müəllifə böyük oxucu auditoriyası qazandırıb. 1940-cı ildə "Uşaqgəncnəşr"də kitab halında kütləvi tirajla buraxılan bu əsər oxucu tələbatına görə sonrakı illərdə də təkrar çap edilib. "Bir gəncin manifesti" bu gün də qəlbləri riqqətə gətirir. Doqquz dəfə müxtəlif illərdə ayrıca kitab halında nəşr olunan bu əsər Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da sevilir.

Mir Cəlalın "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır" romanlarında keçmiş, "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər" romanlarında isə müasir həyat lövhələrinin bədii təsviri ustalıqla qələmə alınıb. Yazıçının "İnsanlıq fəlsəfəsi" (1961) kitabında toplanmış hekayələri də böyük tərbiyəvi-əxlaqi əhəmiyyətə malikdir. "İnsanlıq fəlsəfəsi", "Subaylıq fəlsəfəsi", "Təzə toyun nəzakət qaydaları", "Vicdan mühakiməsi", "Vicdan əzabı", "Hesab dostları", "Təsadüf, ya zərurət", "Qocaların uşaq söhbəti" və digər hekayələrində isə real həyat lövhələri, fəlsəfi düşüncələr əks olunub. İndiyədək yazıçının 70-dən çox kitabı çap edilib.

Mir Cəlal Paşayev çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də müstəsna və özünəməxsus yer tutub.

Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alıb. Füzuli poeziyasının qüdrətinə heyran olan, ümumiyyətlə, klassik ədəbiyyata qəlbən bağlı Mir Cəlal Paşayev 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək "Füzuli sənətkarlığı" adlı monoqrafiyasını nəşr etdirib.

Mir Cəlal Paşayevin tanınmış tədqiqatçı Firudin Hüseynovla birgə yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" əsəri uzun illərdir ki, ali məktəblər üçün dərs vəsaitidir. Bu dərslikdə XX əsrin böyük ədəbi şəxsiyyətləri, onların yaradıcılığı, ədəbi mühitə gətirdikləri yeniliklər haqqında əhatəli elmi fikirlər əks olunub.

1978-ci il sentyabrın 28-də əbədiyyətə qovuşmuş gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir Cəlal Paşayevin çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, özündən sonra gələn nəsillərə də örnəkdir. Təsadüfi deyil ki, bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri çap olunaraq maraqla oxunur.

"UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. UNESCO-nun Parisdə yerləşən iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. Bu, həm də Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür.

Mir Cəlal Paşayev insanlıq, xeyirxahlıq, müəllimlik, ədəbiyyatşünaslıq məktəbi yaradıb. Bu məktəbin işığı sonrakı nəsillərin yoluna daim işıq salır. Böyük ziyalımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq!

# BDU və Buxara Dövlət Universiteti arasında tərəfdaşlıq müqaviləsi imzalanıb

***Sentyabrın 9-da Buxara şəhərində Bakı Dövlət Universiteti və Özbəkistan Respublikasının Buxara Dövlət Universiteti arasında elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi məqsədilə tərəfdaşlıq müqaviləsi imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Buxara Dövlət Universitetinin rektoru Obidjon Xamidov imzalayıb.

İmzalanma mərasimində çıxış edən rektor Elçin Babayev Azərbaycanın ən böyük və ilk ali təhsil müəssisəsi olan BDU haqqında məlumat verib. Qeyd edib ki, 24 mindən artıq tələbənin təhsil aldığı, 1500 nəfərdən çox professor-müəllim heyətinin çalışdığı BDU-da son illər həyata keçirilən islahatlar nəticəsində tədrisin və elmi-tədqiqat işlərinin keyfiyyəti yüksəlib. Hazırda BDU-nun Hirş indeksi 52-yə çatıb. "Web of Science" bazasına ölkə üzrə daxil edilən məqalələrin 25, ali mək-



təblər arasında isə 40 faizi BDU alimlərinin payına düşür. Universitet beynəlxalq əlaqələrini genişləndirir, dünyanın nüfuzlu universitetləri ilə ikili diplom proqramları, birgə elmi-tədqiqat işlərinin aparılması istiqamətində müqavilələr imzalayır.

Elçin Babayev BDU ilə Özbəkistan ali məktəbləri arasında əlaqələrin vacibliyini vurğulayıb, elm və təhsil sahəsində son illərdə əldə olunan uğurlardan bəhs edib. Müxtəlif istiqamətlərdə ortaq layihələrin həyata keçiriləcəyini bildirərək, Buxara Dövlət Universiteti ilə əməkdaşlığın da uğurlu olacağına əminliyini ifadə edib.

Buxara Dövlət Universitetinin rektoru Obidjon Xamidov iki qardaş ölkənin ali məktəbləri arasında əməkdaşlığın çox məhsuldar və faydalı olacağını vurğulayıb. O, təcrübə mübadiləsinin hər iki universitetin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Müqaviləyə əsasən, BDU və Buxara Dövlət Universitetində təlim-tərbiyə və tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə konfrans, sərgi, seminar, simpozium, qarşılıqlı maraq doğuran sahələrdə qısamüddətli kurslar təşkil ediləcək, elmi açıq informasiya və nəşrlərin mübadiləsi, ortaq proqramların, kursların və tədris planlarının hazırlanması həyata keçiriləcək.

Müqavilədə həmçinin akademik və inzibati kadrların, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi, ortaq tədqiqat layihələri üzrə əməkdaşlıq, birgə tədris fəaliyyətinin, təlim proqramlarının və mədəni proqramların təşkili, magistratura və doktorantura dərəcələri üzrə birgə rəhbərlik istiqamətində əməkdaşlıq nəzərdə tutulur.

# Azərbaycan kimya elmini dünyada şöhrətləndirən alim

***Azərbaycan elminin parlaq simalarından olan akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illik yubileyini ölkənin elmi-mədəni ictimaiyyəti sevgi-sayğılarla qeyd edir. Rəfiqə xanım Əliyevanın şərəflə yaşanmış ömrünün səhifələrini vərəqlədikcə bir daha əmin oluruq ki, görkəmli alim Azərbaycanda kimya elminin inkişafına böyük töhfələr vermişdir.***

Alimin dünyanın nüfuzlu elmi jurnallarında dərc olunan məqalələri, fundamental monoqrafiyaları, uzun illərin gərgin zəhmətinin bəhrəsi kimi aldığı mühüm elmi nəticələr kimya elmi sahəsində ölkəmizin adının dünyada tandılmasında böyük rol oynamışdır. Rəfiqə xanım Əliyeva, eyni zamanda, vətənpərvər ziyalı kimi hər zaman ölkənin ictimai həyatında fəal iştirak etmiş, cəsarətli mövqeyi, xeyirxahlıq missiyası ilə yaddaşlara həkk olunmuşdur. Əminliklə söyləyə bilərik ki, akademik Rəfiqə xanım Əliyeva ziyalılığı, kübarlığı, müdrikliyi, xalqına və Vətəninə bağlılığı, dövlətinə sədaqəti ilə onu tanıyanların hər biri üçün bir insanlıq nümunəsidir.

Rəfiqə xanım Əliyeva 20 sentyabr 1932-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur, orta məktəbi bitirdikdən sonra ali təhsilini 1951-1956-cı illərdə Bakı Dövlət Universitetinin kimya fakültəsində almışdır. O, elmi fəaliyyətinə 1956-1960-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının Qeyri-Üzvi və Fiziki Kimya İnstitutunda (indiki akademik M.Nağıyev adına Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu) kiçik elmi işçi vəzifəsində başlamışdır. Gənc kimyaçı 1960-cı ildə BDU-nun analitik kimya kafedrasında "Analitik kimya" ixtisası üzrə aspiranturaya qəbul olunmuş və taleyini doğma BDU ilə bağlamışdır. Alim doğma universitetin analitik kimya kafedrasında assistent, baş müəllim, dosent, professor vəzifələrində çalışmışdır.

Rəfiqə Əliyeva 1970-ci ildə analitik kimya ixtisası üzrə "Germaniumun bəzi üzvi reagentlərlə əmələ gətirdiyi birləşmələrin spektrofotometrik tədqiqi və onun fotometrik metodla təyini" mövzusunda namizədlik dissertasiyası, 1999-cu ildə isə kimya elmləri doktoru elmi dərəcəsini almaq üçün "d-, f- elementləri və germaniumun tərkibində N-, S-, O- olan liqandlarla müxtəlifliqandlı kompleksləri və onların analitik tətbiqi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, həmin il analitik kimya ixtisası üzrə professor elmi adını almışdır. Alim 2001-ci ildən ömrünün sonuna kimi BDU-da öz təşəbbüsü ilə yaradılmış Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasının müdiri vəzifəsində işləmişdir. Görkəmli kimyaçı 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir.

Akademik Rəfiqə Əliyeva ölkəmizdə kimya elmində yüksəkixtisaslı kadrların hazırlanmasına bütün bilik və bacarığını sərf etmişdir. O, hələ ömrünün gənclik çağlarından yenilikçi tədqiqatçı kimi özünü sübut etmişdir. Elmi və pedaqoji fəaliyyətlə məşğul olan alimin əsas araşdırma sahələrindən biri analitik reaksiyaların xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığın müəyyən edilməsinə həsr olunmuşdur.



Rəfiqə xanım üzvi reaktivlərin köməyi ilə toksiki və radioaktiv metalların təyini və onların ayrılması metodikasını işləyib hazırlamışdır. Ekologiyanın aktual problemləri ilə bağlı elmi işləri isə ölkəmizin davamlı inkişafının təmin olunmasına öz töhfəsini vermişdir. Onun rəhbərliyi ilə analitik kimyanın nəzəri və tətbiqi məsələlərinə həsr edilmiş 2 doktorluq və 20 namizədlik dissertasiyası müdafiə edilmişdir. Akademik Rəfiqə Əliyeva 2 monoqrafiya, 33 dərslik və dərs vəsaitinin, 20 patentin və 520-dən çox məqalənin müəllifidir.

Azərbaycanın ali təhsil müəssisələrinin müəllim, elmi işçi və doktorantlarının inkişafında mühüm rol oynayan Moskva Dövlət Universitetinin Analitik kimya kafedrasının əməkdaşları tərəfindən nəşr olunmuş "Analitik kimyanın əsasları" (2 cilddə) və "Analitik kimyadan məsələ və suallar" kitabları akademikin rəhbərliyi ilə Azərbaycan dilinə tərcümə edilmişdir.

Akademik Rəfiqə Əliyeva keçid, nadir torpaq və radioaktiv elementlərin fotometrik təyini və qatılaşdırma metodikalarının öyrənilməsi sahəsində tədqiqatlar aparmış və bu elementlərin təyini üçün yüksək analitik göstəricilərə malik xarakteristikaları ilə seçilən metodika təklif etmişdir. Onun rəhbərliyi ilə piroqallol, tiofen və asetilaseton əsasında sintez edilmiş üzvi birləşmələr əsasında bir çox metal ionlarının təyini üçün fotometrik təyinat metodikaları işlənilib hazırlanmışdır. Bu metodikalar həmin elementlərin təbii və sənaye obyektlərində təyini üçün tətbiq edilmişdir. Həmin üzvi reaktivlər əsasında bir çox metal ionlarının əmələ gətirdiyi kompleks birləşmələr bərk halda sintez edilmiş, müxtəlif fiziki-kimyəvi analiz metodları ilə onların quruluşu və xassələri öyrənilmişdir.

Akademik Rəfiqə Əliyeva tərəfindən - diketonlar əsasında azobirləşmələrin ilk dəfə olaraq metal ionların fotometrik təyini üçün reagent kimi tətbiq edilməsi təklif edilmişdir. Bu sinif üzvi reagentlərin kvantkimyəvi hesablamalara görə elektron sıxlıqları hesablanmış və alınmış nəticələrə əsasən bu reagentlərin bir-birinə nəzərən nə dərəcədə analitik effekt verməsi qabaqcadan proqnozlaşdırılmışdır. Rentgen quruluş analiz metodu ilə bir çox reagentlərin və onların binar və müxtəlifliqandlı komplekslərin 20-dən çox monokristalı yetişdirilərək rentgen quruluş analizi metodu ilə tədqiq edilmişdir.

Görkəmli kimyaçı Rəfiqə Əliyeva müxtəlifliqandlı kompleks birləşmələrin tədqiqi sahəsində də ətraflı tədqiqatlar aparmışdır. O, ilk dəfə olaraq liqand-liqand qarşılıqlı təsirini müxtəlif fiziki-kimyəvi metodlarla öyrənməklə qarışıqliqandlı kompleks birləşmələrin alın-masında üçüncü komponentin seçilmə prinsipi haqqında müəyyən fikirlər irəli sürmüşdür. Təcrübi faktların təhlilinə əsasən müəyyən etmişdir ki, qarışıqliqandlı kompleks birləşmələrin alınmasında binar sistemə əlavə edilən üçüncü komponent metala koordinasiya edərsə, onda kompleks birləşmələrin davamlılığı artır, bu isə seçiciliyin artmasına səbəb olur. Əgər üçüncü komponent liqandla qarşılıqlı təsirdə olarsa, onda çox vaxt kompleksəmələgəlmə reaksiyalarının həssaslığı artmış olur. Bu sahədə akademik Rəfiqə Əliyevanın apardığı elmi tədqiqatlar çoxillik təcrübəyə malik, tanınmış alimlərin diqqətini cəlb etmişdir.

Cu(II), Cd(II), Pb(II), Zn(II), Fe(III), Ni(II), Co(II), Th(IV), U(VI) və Pd(II) ionlarının qatılaşdırılma metodları işlənilmişdir. Akademik Rəfiqə Əliyevanın rəhbərliyi ilə polibutadien və malein anhidridi-stirol sopolimerləri əsasında xelatəmələgətirici polimer sorbentlər sintez edilmiş və bu sorbentlərdən istifadə edərək fiziki-kimyəvi metodlar vasitəsi ilə sintez olunmuş sorbentlərin tərkibi, fiziki-kimyəvi xarakteristikaları təyin edilmişdir. Bu sorbentlərin sorbsiya xassələrinin ədəbiyyatdan məlum olan sorbentlərin xassələri ilə müqayisəsi göstərmişdir ki, sintez olunmuş sorbentlər daha yüksək sorbsiya tutumuna və üstün kinetik xassələrə malikdirlər.

Potensiometrik titrləmə metodu vasitəsi ilə bəzi ağır metal ionlarının alınmış sorbentlərlə komplekslərinin davamlılıq sabitləri təyin edilmiş və sorbentlərin metalların ayrılması üçün effektivliyi proqnozlaşdırılmışdır. Akademikin rəhbərliyi altında göstərilən ionların neftayırma zavodlarından alınan çirkab sularında, neft şlamında, neft çıxarılan zaman alınan suda, dəniz suyunda effektiv atom-absorbsion və sorbsion-fotometrik təyinat metodikaları hazırlanmışdır. İlk dəfə olaraq Cd(II) və Pb(II)-nun insan orqanlarında təyini metodikaları işlənilib hazırlanmışdır.

Akademik Rəfiqə Əliyevanın rəhbərliyi ilə Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tabeçiliyində olan müəssisələrlə elmi-texniki təsərrüfat müqaviləli işlər yerinə yetirilmişdir. Təsərrüfat müqavilələrinin nəticələrinə əsasən ətraf mühitin çirklənməsi qiymətləndirilmiş, zərərli və ağır metalların qatılaşdırılaraq ayrılmasının yeni, ucuz və iqtisadi cəhətdən əlverişli metodikaları işlənilib hazırlanmışdır.

Soydaşımız ABŞ, Türkiyə, Rusiya, Yaponiya, Avstraliya və digər ölkələrdə keçirilən beynəlxalq simpozium və konfransların iştirakçısı olmuşdur. O, BDU nəzdində fəaliyyət göstərən D 02.011 Dissertasiya Şurasının sədr müavini, BDU-nun və Kimya fakültəsinin Elmi şuralarının üzvü olmuşdur.

Onu da vurğulamaq lazımdır ki, akademik Rəfiqə Əliyevanın səmərəli elmi-pedaqoji və ictimai fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. Alim 2000-ci ildə Əməkdar elm xadimi adına layiq görülmüş, 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Eyni zamanda görkəmli alim akademik "Yusif Məmmədəliyev adına" mükafata layiq görülmüş, 2003-2004-cü tədris ilində akademik Rəfiqə Əliyeva Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Fəxri Fərman"ı ilə təltif olunmuş, 2005-ci ildə BDU-nun təsis etdiyi "İlin alimi" fəxri adına layiq görülmüşdür. Alimin müəllifi olduğu "Ekologiya" və "Ümumi ekologiya" adlı dərs vəsaitləri Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsis etdiyi "Həsən Əliyev adına" mükafata layiq görülmüşdür.

Akademik Rəfiqə xanım Əliyeva yüksək mənəvi keyfiyyətlərin daşıyıcısı kimi hər zaman insanlara yaxşılıqlar etmiş, xeyirxah, nəcib əməllərin sahibi olmuşdur. Əsl Azərbaycan qadınına məxsus olan bu xarakterik xüsusiyyətlər onu gəncliyindən ömrünün sonuna kimi müşayiət etmişdir. Əlbəttə ki, bütün bu keyfiyyətlər ilk növbədə Rəfiqə xanımın mənsub olduğu ailədən, soy-kökdən irəli gəlir.

2017-ci ildə ömrünün 84-cü ilində həyatla vidalaşan Rəfiqə xanım Əliyevanın 90 illik yubileyini görkəmli alimin özünün iştirakı olmadan qeyd etsək də, əminik ki, bu günlər Rəfiqə xanımın ruhu şaddır. Çünki onun da ürəyində daşıdığı ən böyük nisgil artıq sevincə çevrilib. Ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı, möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağımız 44 günlük Vətən müharibəsindəki parlaq Zəfərimizlə azadlığına qovuşub, ölkəmizin ərazi bütövlüyü təmin olunub. İndi cənnət Qarabağımızda müqayisəyəgəlməz sürətlə quruculuq işləri aparılır.

Akademik Rəfiqə Əliyevanın əziz və unudulmaz xatirəsi öz taleyini bağladığı və inkişafına böyük töhfələr verdiyi BDU-da həmişə hörmətlə və ehtiramla yad edilir. Bu günlərdə BDU-nun təşkilatçılığı ilə görkəmli alimin 90 illik yubileyinə həsr edilmiş "Nəzəri və təcrübi kimyanın müasir problemləri" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcəkdir. Beynəlxalq konfransda Azərbaycanda analitik kimya sahəsində ilk akademik adını qazanmış Rəfiqə xanım Əliyevanın elmi fəaliyyətinə dünyanın və ölkəmizin görkəmli alimləri tərəfindən işıq salınacaq, analitik kimyanın yeni prioritetləri müəyyən ediləcəkdir.

90 illik yubileyi ərəfəsində görkəmli alim, unudulmaz ziyalı, akademik Rəfiqə xanım Əliyevanı hörmət və ehtiramla yad edirik. Əminik ki, görkəmli alimin elmi məktəbi onun davam-çıları tərəfindən daha da inkişaf etdiriləcəkdir.

***Elçin Babayev***
*Bakı Dövlət Universitetinin rektoru*

*"Xalq qəzeti"*
*20.09.2022*

# BDU kollektivi akademik Rəfiqə Əliyevanın məzarını ziyarət edib



***BDU kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, kimya elmləri doktoru, professor, əməkdar elm xadimi Rəfiqə Əliyevanın anadan olmasının 90 illik yubileyi münasibəti ilə sentyabrın 20-də Fəxri xiyabana gələrək onun xatirəsini yad edib, məzarı önünə əklil qoyub, gül dəstələri düzüb.***

Azərbaycanda analitik kimya ixtisası üzrə ilk və yeganə akademik olan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər BDU-nun Analitik kimya kafedrasında işləyib. 450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifi olmuş akademik ömrünün böyük hissəsini BDU-da ixtisaslı kadrların hazırlanmasına sərf edib.

Akademik Rəfiqə Əliyevanın əziz və unudulmaz xatirəsi öz təleyini bağladığı və inkişafına böyük töhfələr verdiyi BDU-da həmişə ehtiramla yad edilir. Yaxın günlərdə BDU-nun təşkilatçılığı ilə görkəmli alimin 90 illik yubileyinə həsr edilmiş "Nəzəri və təcrübi kimyanın müasir problemləri" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcək.

# Anım Gününə həsr edilmiş xüsusi dərs keçirilib

***Kitabxanaçılıq-informasiya fakültəsində 27 sentyabr - Anım Gününə həsr olunmuş xüsusi dərs təşkil olunub.***

Xüsusi dərs Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, Birinci Qarabağ müharibəsinin veteranı Knyaz Aslanın mühazirəsi ilə davam edib. Knyaz Aslan mühazirədə Ermənistanın işğalçılıq siyasəti, artıq tarixdə qalmış Qarabağ münaqişəsinin başvermə səbəbləri, müharibənin qurbanları, ağır nəticələri barədə tələbələrə dolğun informasiya verib. Natiq Qarabağ münaqişəsinin həlli istiqamətində əməli addımların atılmasına məhz xalqımızın Ümummilli lideri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra başlandığını xüsusi vurğulayıb.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfər nəticəsində bütün şəhidlərimizin qisasının alındığını, onların ideallarının qalib gəldiyini vurğulayan natiq Vətənimizin azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda edən soydaşlarımızın əziz xatirələrinin hər zaman xalqımız tərəfindən yaşadılacağını bildirib. Knyaz Aslan həmçinin bu gün azad Qarabağda aparılan quruculuq işlərindən, həyata keçirilən mədəni tədbirlərin əhəmiyyətindən bəhs edib.

# BDU kollektivi Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edib



***Sentyabrın 27-də BDU kollektivi 27 sentyabr - Anım Günü münasibətilə Fəxri xiyabanı, Şəhidlər xiyabanını və II Fəxri xiyabanı ziyarət edib.***

BDU kollektivi Ulu öndər Heydər Əliyevin, ərazi bütövlüyümüz uğrunda şəhid olmuş qəhrəman Vətən oğullarının xatirəsini ehtiramla anaraq, məzarları üzərinə əklil və gül dəstələri qoyublar.

BDU-nun 2 saylı tədris binasının qarşısında şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə də gül dəstələri düzülüb, şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

Vətən müharibəsində BDU-nun 19 məzunu şəhid olub. Saat 12.00-da bütün ölkə ərazisində olduğu kimi, BDU-da da 1 dəqiqəlik sükut elan edilib.

Şəhidlik zirvəsinə ucalmış qəhrəman igidlərimizin əziz xatirəsi xalqımızın və BDU kollektivinin qəlbində əbədi yaşayacaq!

## BDU-da Anım Günü münasibətilə ağacəkmə aksiyası

***27 sentyabr Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən müharibəsi şəhidlərinin Anım Gününə ehtiram əlaməti olaraq Yasamal Rayon İcra Hakimiyyəti və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə BDU-nun Tələbə şəhərciyinin ərazisində ağacəkmə aksiyası keçirilib.***

Ağacəkmə aksiyasında Vətən müharibəsinin iştirakçıları, şəhid valideynləri, Yasamal Rayon İcra Hakimiyyətinin, Bakı Dövlət Universitetinin rəhbərliyi, millət vəkilləri, Yasamal rayonunun idarə və müəssisələrinin nümayəndələri və tələbələri iştirak ediblər.



# BDU-da Anım Gününə həsr olunmuş tədbir

***Bakı Dövlət Universitetində 27 sentyabr - Anım Gününə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə Dövlət himni səsləndirilib. Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, 2020-ci il şanlı tariximizə qızıl hərflərlə yazılıb, Zəfər ili kimi həkk olunub. 2020-ci ilin bu günü mənfur erməni qəsbkarlarının növbəti hərbi təcavüzünə cavab olaraq Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə ordumuzun başladığı əks-hücum əməliyyatları 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın azadlığı uğrunda ölümdirim savaşına çevrildi. Dünya hərb tarixinə qızıl hərflərlə yazılan, haqqında əsrlə danışılacaq 44 günlük Vətən müharibəsinin ilk anlarından Müzəffər Ali Baş Komandanımızın verdiyi müdrik və cəsarətli qərarlar sayəsində düşmənin müdafiə xətti yarıldı. Peşəkar, cəsur Azərbaycan Ordusu döyüşlərin başladığı ilk gündə strateji Murov zirvəsində, Füzulidə, Cəbrayılda, sonrakı günlərdə isə Suqovuşanda, Hadrutda, Xocavənddə, Zəngilanda, Qubadlıda üçrəngli bayrağımızı ucaltdı. Noyabrın 8-də Qarabağın ürəyi Şuşanın azad edilməsi ilə Ali Baş Komandanımızın rəhbərlik etdiyi müzəffər Ordumuz düşməni kapitulyasiya aktı imzalamağa məcbur etdi. Bununla da Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü təmin olundu, 30 illik müharibə ölkəmizin parlaq qələbəsi ilə başa çatdı.

Elçin Babayev vurğulayıb ki, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin də dediyi kimi, artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Artıq günbəgün, saatbasaat dirçələn, canlanan Qarabağ və Şərqi Zəngəzurumuz var: "Bu qələbə xalqımızın tarixində qazanılmış ən böyük qələbə, ən uca zəfərdir. Adı dünya hərb tarixinə qızıl hərflərlə yazılan Müzəffər Ali Baş Komandanımız 44 günlük müharibə ilə bütün dünyaya cəsarətli və ədalətli müharibə aparmağın örnəyini göstərdi, ordumuzun yalnız işğalçı qüvvələrlə döyüşdüyünü, heç bir halda mülki əhalini hədəf seçmədiyini nümayiş etdirdi. 44 günlük müharibə yalnız səngərdə, döyüş meydanında getmədi, bu müddət ərzində Azərbaycan Prezidenti İlham Əliyev diplomatiya cəbhəsində də mübarizə apardı, ölkəmizə olan təzyiqlərə qarşı özünün siyasi iradəsini, əzmkarlığını nümayiş etdirdi, Qarabağ münaqişəsinin yalnız xalqımızın maraqları çərçivəsində həll oluna biləcəyini dünyaya bəyan etdi".

Rektor qeyd edib ki, BDU-nun professor-müəllim heyəti, tələbə və məzunları da savaşın ilk anlarından doğma Vətənimizin çağırışına səs verdilər. Çoxsaylı tələbə və məzunumuz könüllü cəbhəyə yollandı. Kollektiv ön cəbhədə olduğu kimi, arxa cəbhədə informasiya savaşına da töhfələr verdi. Şəhidlərimizin 20 nəfəri BDU-nun məzunlarıdır. Onların unudulmaz xatirəsi hər birimiz üçün müqəddəsdir.

Daha sonra Milli Məclisin deputatları Aqil Abbas, Aydın Hüseynov, Azərbaycan Mətbuat Şurasının sədri, BDU-nun İctimai Nəzarət Şurasının üzvü Rəşad Məcid, BDU-nun məsləhətçi professoru, I Qarabağ müharibəsi şəhidi, Milli Qəhrəman Məzahir Rüstəmovun atası İzzət Rüstəmov, BDU-nun kafedra müdiri, I Qarabağ müharibəsi veteranı Knyaz Aslan, BDU-nun Şərqşünaslıq fakültəsinin tələbəsi, qəhrəman şəhidimiz Saməddin Əmrahovun qızı Aysu Əmrahova, Vətən müharibəsi iştirakçıları Şamil Hüseynov, Yusif Kamal, şəhid Amal Qarayevin atası Ədalət Qarayev çıxışlarında Vətən müharibəsinin ən parlaq və şanlı səhifə kimi xalqımızın tarixində silinməz iz buraxdığını qeyd ediblər. Çıxışlarda xalqımızın Vətən müharibəsi günlərində bir yumruq kimi Müzəffər Ali Baş Komandanın və Ordumuzun ətrafında birləşdiyi bildirilib, müqəddəs şəhidlərimizin xatirəsinin əbədi yaşayacağına əminlik vurğulanıb.

# BDU və Buxara Mühəndislik-Texnologiya İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb

***Sentyabrın 9-da Özbəkistanın Buxara şəhərində BDU və Buxara Mühəndislik-Texnologiya İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Buxara Mühəndislik-Texnologiya İnstitutunun rektoru Nusratilla Barakayev imzalayıblar.

İmzalanma mərasimində BDU-nun rektoru Elçin Babayev Azərbaycan-Özbəkistan dostluq münasibətlərinin bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də uğurla davam etdiyini qeyd edib. Rektor vurğulayıb ki, iki ölkə arasında münasibətlər bütün səviyyələrdə ən yüksələn xətlə inkişaf edir. Rektor BDU-nun fəaliyyətində Özbəkistanın qabaqcıl universitetləri, eləcə də təhsil qurumları ilə əlaqələrə xüsusi önəm verildiyini, Buxara Mühəndislik-Texnologiya İnstitutu ilə imzalanan müqavilənin bu əlaqələri daha da möhkəmləndirəcəyinə əmin olduğunu bildirib.



Buxara Mühəndislik-Texnologiya İnstitutunun rektoru Nusratilla Barakayev isə Azərbaycanın ən böyük ali məktəbi olan BDU ilə əməkdaşlıq müqaviləsinin imzalanmasının xüsusi önəm daşıdığını nəzərə çatdırıb. Rektor bildirib ki, iki universitetin həyata keçirəcəyi ortaq layihələr Azərbaycan və Özbəkistan arasında elm və təhsil sahəsində bağları daha da möhkəmləndirəcək.

Müqaviləyə əsasən, BDU və Buxara Mühəndislik-Texnologiya İnstitutu təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə konfrans, simpozium, qısamüddətli kurs və təlimlər keçirəcək, ortaq akademik proqramlar, tədris planları hazırlayacaq. İki universitet arasında birgə elmi tədqiqatların aparılması, təhsilin bütün səviyyələrində təhsilalanların, akademik heyət və tədqiqatçıların mübadiləsinin həyata keçirilməsi də müqavilədə öz əksini tapıb.

# BDU Elmi Şurasının iclası keçirilib



***Sentyabrın 14-də BDU-nun Elmi Şurasının 2022/2023-cü tədris ilində ilk iclası keçirilib.***

Əvvəlcə Ermənistanın hərbi-siyasi təxribatı nəticəsində şəhid olmuş hərbçilərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun rektoru Elçin Babayev bildirib ki, bu il sentyabrın 12-13-də Ermənistanın genişmiqyaslı təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olanlar arasında BDU-nun məzunu Erkin Ədalət oğlu Hüseynov da var. Rektor Vətən uğrunda həlak olan qəhrəman şəhidlərimizin qanının yerdə qalmadığını bildirib və onların əziz xatirəsinin həmişə xalqımızın qəlbində yaşayacağını vurğulayıb.

İclasda 2022/2023-cü tədris ilinin payız semestri üzrə tədrisin təşkili və digər əlaqədar məsələlər müzakirə olunub.

Qeyd olunub ki, 2022/2023-cü tədris ilində BDU-da bakalavriat səviyyəsində 3 yeni ixtisas (Mədən mühəndisliyi, Qida mühəndisliyi, Mühəndis fizikası) magistratura səviyyəsində isə 3 yeni ixtisaslaşma (Aktuar riyaziyyat, Ekologiya hüququ, Vergi hüququ) üzrə tələbə qəbulu aparılıb. Növbəti tədris ilində 5 yeni ixtisas və ixtisaslaşmanın formalaşdırılması üçün hazırlıq işləri aparılır.

2022/2023-cü tədris ilindən BDU-nun Biologiya fakültəsində Azərbaycanda İCESCO-nun ilk ixtisaslaşdırılmış Biotibbi materiallar kafedrası fəaliyyət göstərəcək.

# BDU və Qətər Universiteti arasında əməkdaşlıq əlaqələri müzakirə olunub

***Sentyabrın 21-də BDU-da Azərbaycanın Qətər dövlətindəki səfirliyi, Universitetin Beynəlxalq əlaqələr şöbəsi və Şərqşünaslıq fakültəsinin rəhbər şəxslərinin iştirakı ilə onlayn görüş keçirilib.***

Görüşdə Azərbaycanın Qətərdəki fövqəladə və səlahiyyətli səfiri Rəşad İsmayılov, BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, fakültənin dekanı Aydan Xəndan, elmi işlər üzrə dekan müavini Nigar İsmayılzadə, Ərəb filologiyası kafedrasının müdiri Vüqar Qaradağlı, Ərəb filologiyası kafedrasının müəllimi Könül Eyvazova, səfirliyin əməkdaşı Eldəniz Musayev, Qətər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sezar Veyzen, Ərəb dili və ədəbiyyatı fakültəsinin müdiri Seeda Ali N-Athha, Əcnəbi tələbələrlə iş şöbəsinin müdiri Muhammed Abdel Halim Vidatalla, Beynəlxalq münasibətlər fakültəsinin əməkdaşları iştirak ediblər.

Görüşü giriş sözü ilə açan fakültənin dekanı Aydan Xəndan Şərqşünaslıq fakültəsinin fəaliyyəti və beynəlxalq əlaqələri haqqında geniş məlumat verib. Daha sonra Ərəb filologiyası kafedrasının müdiri Vüqar Qaradağlı tədbir iştirakçılarını BDU-nun və Şərqşünaslıq fakültəsinin tarixi ilə bağlı məlumatlandırıb. Kafedranın əməkdaşı Könül Eyvazova fakültədə tədris olunan ərəb dilinin tədrisi və metodikası ilə bağlı fikirlərini bildirib.

Görüşdə BDU, xüsusilə də Şərqşünaslıq fakültəsi ilə Qətər Universiteti arasında əməkdaşlıq əlaqələri, ortaq tədqiqat işlərinin aparılması, birgə elmi seminarların, ustad və onlayn dərslərin təşkili, xüsusilə də ərəb dilinin tədrisində universitetlərarası təcrübə mübadiləsi məsələləri müzakirə olunub. Tədbir iştirakçıları şərqşünaslıq sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etməsində maraqlı olduqlarını bildiriblər.

Görüşün sonunda Qətər Universiteti haqqında təqdimat nümayiş etdirilib.

# Almaniyanın Dortmund Texniki Universitetinin professorunun BDU tələbələri üçün ustad dərsi



***Sentyabrın 21-də Almaniyanın Dortmund Texniki Universitetinin Fizika fakültəsinin professoru Dieter Suter Bakı Dövlət Universitetinin Fizika, Tətbiqi riyaziyyat və kibernetika, Mexanika-riyaziyyat fakültələrinin tələbələri üçün "Kvant kompüterləri növbəti nəsil superkompüter sayıla bilərmi?" (Are quantum computers the next generation supercomputers?) mövzusunda ustad dərsi keçib.***

Professor Dieter Suter qeyd edib ki, ənənəvi rəqəmsal superkompüterlərin yüz min illər ərzində hesablaya biləcəyi əməliyyatları yeni nəsil kvant kompüterlər saniyələr içərisində yerinə yetirmə potensialına sahibdir. Hazırda strateji əhəmiyyətinə və təhlükəsizliyin qorumasına görə yüksək sürətə malik kompüterlərə daha çox ehtiyac duyulur. Əlbəttə ki, elmi laboratoriyaların tədqiqat-inkişaf layihələrinə daha çox diqqət və sərmayə ayrılması yeni nəsil texnologiyaların intensiv inkişafına və sənayenin müxtəlif sahələrində tətbiqinə, o cümlədən, süni intellekt və beşinci nəsil naqilsiz şəbəkənin insan həyatının müxtəlif sahələrinə daxil olmasına səbəb olub.

Professor Dieter Suter məruzəsində sosial həyatı və iqtisadiyyatı dəyişdirən rəqəmsal inqilab və Mur qanununa uyğun olaraq emal gücü eksponensial qanunla artan informasiya emalı cihazları haqqında ən son məlumatları verib. O bildirib ki, kvant mexanikası qanunlarına əsaslanan daha güclü və sürətli hesablama cihazlarının hazırlanmasında elmi-texniki problemlərin həlli üzrə intensiv tədqiqatlar aparılır.

# BDU-da prioritet elmi istiqamətlər üzrə aparılan tədqiqatlarda tətbiqi xarakterli nəticələr əldə olunub

*Bakı Dövlət Universitetinin nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü, professor Vaqif Quliyevin həmmüəllifi olduğu "Ümumiləşmiş çəkili Orliç-Morri fəzalarında Riss potensialı və onun kommutatoru" (Riesz potential and its commutators on generalized weighted Orlicz-Morrey spaces) adlı məqalə Web of Science bazasında Q2 kateqoriyalı jurnallar siyahısına daxil olan "Mathematische Nachrichten" (IF: 1.199) jurnalında dərc olunub.* İşdə ümumiləşmiş çəkili Orliç-Morri fəzalarında Riss potensialının Adams tipli məhdudluğu üçün meyar verilib.

# BDU-nun rektoru Daşkənddə Heydər Əliyev adına Mədəniyyət Mərkəzini ziyarət edib

***Sentyabrın 6-da Özbəkistanın paytaxtı Daşkənddə keçirilən I Beynəlxalq Özbəkistan-İsrail Akademik Forumunda iştirak edən BDU-nun rektoru Elçin Babayev Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Mədəniyyət Mərkəzində olub.***

Rektor Mərkəzdə Ulu Öndər Heydər Əliyevin büstünü ehtiramla yad edib, büstün önünə gül dəstələri düzüb.

Mərkəzin direktoru, BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin məzunu, Azərbaycanın Özbəkistandakı səfirliyinin mədəniyyət attaşesi Samir Abbasov mərkəz haqqında məlumat verib. Qeyd edib ki, mərkəzdə Heydər Əliyev muzeyi, Azərbaycanın dövlətçilik tarixi muzeyi, Azərbaycanın və Özbəkistanın müştərək tarixi



muzeyi təşkil olunub. O, mərkəzin həyata keçirdiyi tədbirlər barədə məlumat verərək, Özbəkistanla Azərbaycanın mədəni əlaqələrinin inkişafında Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin xüsusi rolu olduğunu vurğulayıb.

Rektor Elçin Babayev eyni soya, ortaq tarixə və mədəniyyətə, milli adət-ənənələrə malik olan Azərbaycan və özbək xalqları arasındakı dostluq və qardaşlığın dərin tarixi köklərə malik olduğunu bildirib. O, Ulu öndər Heydər Əliyev və Özbəkistanın sabiq Prezidenti İslam Kərimovun müstəsna xidmətləri sayəsində 1995-ci ildən etibarən ölkələrimiz arasında siyasi münasibətlərin yaradıldığını vurğulayıb. Qeyd edib ki, qardaş Özbəkistan dövləti Ümummilli liderimizə hər zaman özünün yüksək sevgisini və rəğbətini ifadə edib. Bu ali sevginin ifadəsi kimi 2010-cu il sentyabrın 27-də Daşkənddə Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistanın o zamankı Baş naziri - hazırkı dövlət başçısı Şavkat Mirziyoyevin iştirakı və xeyir-duaları ilə Heydər Əliyev adına Mədəniyyət Mərkəzi fəaliyyətə başlayıb. Elçin Babayev Mərkəzdə fəaliyyət göstərən muzeylərin hər birində sərgilənən tarixi sənədlər, nadir eksponatların ölkələrimiz arasında qədim tarixi və mədəni əlaqələrin bariz nümunələri kimi xüsusi əhəmiyyətə malik olduğunu deyib.

Rektor daha sonra BDU-nun nəşr etdiyi ikicildlik "Azərbaycan Respublikasının tarixi (1991-2021-ci illər)" kitabını Heydər Əliyev adına Mədəniyyət Mərkəzinə hədiyyə edib.

# BDU-nun rektoru Daşkənddə keçirilən Beynəlxalq Akademik Forumda iştirak edib

***Sentyabrın 6-da BDU-nun rektoru Elçin Babayev Özbəkistanın paytaxtı Daşkənddə keçirilən 1-ci Beynəlxalq İsrail-Özbəkistan Akademik Forumu çərçivəsində 3-cü STEM^2 (Science, Societi, Technology, Tourism, Engineering, Education, Mathematics and Medicine) və "21-ci əsrdə ali təhsilin rolu və yeri" adlı elmi konfranslarda iştirak edib.***

Konfransda İsrail və Özbəkistanın bir sıra nüfuzlu ali təhsil müəssisələri ilə yanaşı, Azərbaycan, Birləşmiş Ərəb Əmirlikləri, Qazaxıstan və Finlandiyadan nüfuzlu alim və mütəxəssislər təmsil olunub. Forumun keçirilməsində məqsəd beynəlxalq akademik əməkdaşlığın müxtəlif aspektlərini, akademik qurumların 5 illik hədəflərini və son elmi nailiyyətləri müzakirə etməkdir.

Konfransda çıxış edən BDU-nun rektoru Elçin Babayev ölkəmizdə elmin və təhsilin inkişafı istiqamətində həyata keçirilən layihələrdən bəhs edib, BDU-nun beynəlxalq əlaqələri, ikili diplom proqramları və Universitetdə aparılan tədris, elmi tədqiqat işləri haqqında konfrans iştirakçılarına məlumat verib. Rektor BDU-nun strate-




ji tərəfdaşları olan İsrail və Özbəkistan universitetləri ilə əlaqələrə xüsusi önəm verdiyini vurğulayıb. Bildirib ki, BDU Avropa və dünya tendensiyalarına uyğun qabaqcıl texnologiya və nailiyyətlər səviyyəsində peşəkar sahələrin yaradılması və inkişafını təmin edə bilən mütəxəssislər, elmi və elmi-pedaqoji, mühəndis-texniki kadrlar hazırlayan, sənaye müəssisələri ilə olan mövcud əlaqələri inkişaf etdirməklə elmi nəticələri kommersiyalaşdıran struktura və bazaya malikdir. Son dövrlər BDU beynəlxalq əlaqələrini genişləndirir, dünyanın nüfuzlu universitetləri ilə əməkdaşlıq əlaqələri qurur, bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə birgə kadr hazırlığı, ikili diplom proqramına dair müqavilələr imzalayır.

Konfrans çərçivəsində BDU-nun rektoru Daşkənd Milli Universiteti və Riyaziyyat İnstitutunda olub, Daşkənd şəhərində yeni salınmış Heydər Əliyev meydanında inşa olunmuş Memorial kompleksi ziyarət edib.

Qeyd edək ki, 2022-ci il 5-11 sentyabr tarixlərində keçirilən Forum öz işinə Buxara və Səmərqənd şəhərlərində davam edib.

# BDU-da Türkiyə Respublikasının nümayəndə heyəti ilə görüş

***Sentyabrın 9-da BDU-da Türkiyə Respublikasının Kocaeli vilayətindən millət vəkili Cemil Yaman, Gebze bələdiyyəsinin başqanı Zinnur Böyükgöz və bələdiyyə məclisinin üzvlərindən ibarət nümayəndə heyəti ilə görüş olub.***

Rektor Elçin Babayev qonaqlara Azərbaycanın ilk və ən böyük ali məktəbi olan BDU haqqında məlumat verib. Qeyd edib ki, sentyabrın 1-də 103 yaşını qeyd edən Universitet son illər beynəlxalq əlaqələrini genişləndirir, xüsusilə qardaş Türkiyə universitetləri ilə əməkdaşlıq böyük önəm daşıyır: "Türkiyə və Azərbaycan Prezidentlərinin ölkələrimizin mənafeyi naminə gördükləri işlər öz bəhrəsini verir. Bu işlər hər birimiz üçün örnəkdir. İki ölkənin müxtəlif qurumları, o cümlədən təhsil sahəsində əlaqələrin gücləndirilməsi dostluq və



qardaşlığımızı daha da möhkəmləndirməyə xidmət edir".

Türkiyə Böyük Millət Məclisinin üzvü Cemil Yaman, Gebze bələdiyyəsinin başqanı Zinnur Böyükgöz də çıxışlarında özlərini vətənlərində hiss etdiklərini, Azərbaycanın Qarabağda qazandığı Zəfərin 85 milyonluq Türkiyə vətəndaşı üçün də böyük qürur olduğunu bildiriblər. Çıxışlarda iki qardaş ölkənin gələcəyinin çox uğurlu olacağı, bu istiqamətdə elm və təhsil müəssisələrinin üzərinə xüsusi vəzifə düşdüyü diqqətə çatdırılıb.

Görüşdə BDU ilə Türkiyənin əsas sənaye və texnoloji mərkəzlərindən olan Kocaelidəki universitetlər arasında əlaqələrin möhkəmləndirilməsi də müzakirə olunub.

# Belçikanın Gent Universitetinin nümayəndələri ilə görüş olub

***BDU-da Belçikanın Gent Universitetinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə Gent Universitetinin Türk dili bölməsinin müdiri Yohan Vandeveyl, Şərq dilləri və mədəniyyəti üzrə mütəxəssis Linda Gezel, Azərbaycan Respublikasının Belçika krallığındakı səfirliyinin nümayəndəsi Taleh Həsənli, BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, dekan müavini Nigar İsmayılzadə, Türk filologiyası kafedrasının müdiri Rüfət Rüstəmov, Filologiya fakültəsinin dekanı Elçin Məmmədov, Türkologiya kafedrasının müdiri Ramiz Əsgər iştirak ediblər.***

Görüşdə Gent Universitetinin Türk dili bölməsinin müdiri Yohan Vandeveyl təmsil etdiyi ali məktəb barədə məlumat verib. Qeyd edib ki, Gent Universitetinin nəzdində fəaliyyət göstərən Tərcüməçilik bölməsində holland, fransız, alman, italyan, ingilis, rus, türk dilləri və dil texnologiyası tədris olunur. Yohan Vandeveyl həmin mərkəzdə şifahi və yazılı tərcüməçilər yetişdirildiyini vurğulayıb. BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov BDU-nun beynəlxalq əlaqələrindən bəhs edib. Görüşdə Gent Universiteti ilə əlaqələrin perspektivləri müzakirə olunub.

# BDU-da "Kvant elminin və texnologiyasının müasir meylləri: kvant materiallarından kvant informasiyasına qədər" mövzusunda Beynəlxalq yay məktəbinin açılış mərasimi

*Tədbir çərçivəsində, həmçinin BDU üçün xüsusi maraq kəsb edən tədqiqat nəticələrinə diqqət yetiriləcək, beynəlxalq koordinasiya və əməkdaşlıq yeni müstəvidə genişləndiriləcək.*

***Sentyabrın 23-də BDU və "Volkswagen" Fondunun birgə təşkilatçılığı ilə "Kvant elminin və texnologiyasının müasir meylləri: kvant materiallarından kvant informasiyasına qədər" mövzusunda Beynəlxalq yay məktəbinin açılış mərasimi keçirilib.***

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın qorunması uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Azərbaycan və BDU haqqında videoçarxlar nümayiş etdirilib.

Beynəlxalq tədbiri giriş sözü ilə açan BDU-nun Elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov bildirib ki, Azərbaycanın ən qədim Universitetində keçirilən bu cür mötəbər yay məktəbinin məqsədi müasir kvant elminin qabaqcıl ideyalarını, yeni nəticələrini, mövcud problemlərini və inkişaf perspektivlərini, kvant texnologiyalarında mümkün tətbiqləri tələbələrə çatdırmaqdır. Azərbaycanda dünya elminin tələblərinə cavab verən tədqiqatların aparılması, elmi-texniki potensialın inkişafı, eləcə də yüksəkixtisaslı kadrların hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkəmizin davamlı inkişafı, iqtisadi, siyasi və hərbi qüdrəti təhsilin keyfiyyəti və səviyyəsi, həmçinin ölkənin elmi potensialı və bu sahələrdəki uğurları ilə bilavasitə bağlıdır. Hazırda BDU-da 16 fakültə, 120 kafedra, 2 elmi-tədqiqat institutu, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, 20 elmi-tədqiqat laboratoriyası, Elmi Kitabxana, 5 muzey, 5 beynəlxalq institut və mərkəz, 1 filial, 1 kollec və 1 lisey fəaliyyət göstərir. BDU ölkəmizdə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq dünya elminin qabaqcıl elmi və təlim-tədris nailiyyətlərindən istifadə etməklə əmək bazarının tələblərinə uyğun kreativ düşüncəli mütəxəssislərin hazırlanması istiqamətində ABŞ, Almaniya, Fransa, İsrail, İsveç, Qazaxıstan və s. kimi ölkələrin qabaqcıl 10 universitet və institutu ilə bakalavriat, magistratura, doktorantura pilləsi üzrə 9 beynəlxalq ikili diplom proqramını tətbiq edir. Yeni yaradılmış Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində BDU tələbələrinin bilavasitə iştirakı ilə müxtəlif layihələr həyata keçirilir. Təsadüfi deyil ki, BDU-nun sənaye müəssisələri ilə əlaqələrinin inkişafı nəticəsində son 3 ildə 50-yə yaxın yerli və beynəlxalq qrant və müqavilə əsaslı elmi-tədqiqat layihələri həyata keçirilib, 100-dən çox tələbə, doktorant, gənc tədqiqatçı layihələrdə təmsil olunub.




"Clarivate Analytics" şirkətinin InCites qiymətləndirmə sisteminin nəticələrinə görə, 2017-2021-ci illərdə Azərbaycanda çap olunmuş elmi işlərin ümumi sayında BDU-nun payı 20%, Azərbaycan Respublikasının bütün ali məktəblərində çap olunan elmi nəşrlərdə isə 43% təşkil edir. BDU-nun Hirş indeksi artıq 53-dür və hər bir əsərə istinadların orta sayı 6.2-yə yüksəlib. BDU beynəlxalq reytinqlərdə mövqeyini möhkəmləndirir. Ötən il BDU Azərbaycandan yeganə universitet olaraq "Times Higher Education" beynəlxalq reytinqinə daxil edilib. Fizika-kosmos elmləri sahəsi BDU-nun təbiət elmləri sahəsində 5 prioritetinə daxildir. Hazırda BDU-nun elmi-tədqiqat institutlarında və Mükəmməllik Mərkəzində fizika üzrə elmi fəaliyyət üçün lazımi infrastruktur yaradılır. BDU-nun əsas missiyası tələbələrin mürəkkəb problemlərin həllinə innovativ və yaradıcı yanaşmalarına imkan verəcək "Tədqiqat Universiteti" kontekstində təhsil və elmi tədqiqatların yenidən formalaşdırılmasıdır.

Hüseyn Məmmədov 10 gün davam edəcək yay məktəbinin iştirakçılarına uğurlar arzulayıb.

Daha sonra AMEA-nın həqiqi üzvü Nazim Məmmədov magistrant, doktorant və gənc tədqiqatçılar üçün təşkil olunan yay məktəbinə dünyanın 20-dək ölkəsindən müvafiq sahə üzrə tanınmış alim və mütəxəssislərin cəlb olunduğunu qeyd edib. Bu sahə üzrə tədbirlərin müxtəlif illərdə, müxtəlif ölkələrdə keçirildiyini vurğulayan Nazim Məmmədov kvant fizikasının çox geniş imkanlara malik olduğunu, yay məktəbində təqdim olunan mövzuların bu sahənin inkişafına töhfə verəcəyinə əminliyini bildirib. Sonra Almaniyanın Dortmund Texniki Universitetinin professoru Dieter Suter, Gürcüstanın Tbilisi Dövlət Universitetinin professoru Georgi Caparidze və Özbəkistanın Turin Politexnik Universitetinin professoru Davron Matrasulov təbrik nitqi söyləyiblər.



Yay məktəbi işini sessiya iclaslarında davam etdirib.

Elm və Təhsil Nazirliyinin tabeliyində Fizika İnstitutunun professoru Elçin Cəfərovun "An Exact Solution To The Non-Rectangular Quantum Well Nanostructures Exhibiting Asymmetrical Confinement Effect" mövzusunda məruzəsi maraqla qarşılanıb.

Tədbir çərçivəsində, həmçinin BDU üçün xüsusi maraq kəsb edən tədqiqat nəticələrinə diqqət yetiriləcək, beynəlxalq koordinasiya və əməkdaşlıq yeni müstəvidə genişləndiriləcək.

Yay məktəbində 40-dək məruzə dinləniləcək. Sonda iştirakçıların əldə etdiyi biliklərin qiymətləndirilməsi məqsədilə final tapşırıqları ediləcək. Məktəbi uğurla bitirən iştirakçılara sertifikatlar təqdim olunacaq.

# BDU və Təhsildə Keyfiyyət Təminatı Agentliyi arasında əməkdaşlıq müqaviləsi imzalanıb

***Sentyabrın 1-də Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) ilə Bakı Dövlət Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.***

Müqaviləni TKTA-nın İdarə Heyətinin sədri Ülkər Səttarova və BDU-nun rektoru Elçin Babayev imzalayıb.

Mərasimdə çıxış edən rektor Elçin Babayev 1 Sentyabr gününün tək BDU üçün deyil, ümumilikdə ölkəmiz üçün şərəfli günlərdən biri olduğunu, zəngin tarixə malik olan Universitetin 103 yaşını qeyd etdiyini bildirib, bu münasibətlə tədbir iştirakçılarını təbrik edib. Universitetin əsas vəzifəsinin ölkəmiz üçün yüksəkixtisaslı kadrlar hazırlamaq olduğunu vurğulayan rektor diqqətə çatdırıb ki, TKTA ilə imzalanan müqavilə BDU-da tədris prosesinin keyfiyyətinin daha da artmasına xidmət edəcək: "Agentlik təhsil müəssisələrinin akkreditasiyası, xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyasının tanınması, təhsil fəaliyyətinin lisenziyalaşdırılması və s. kimi mühüm funksiyaları yerinə yetirir. Biz bu müqavilə vasitəsilə TKTA ilə hüquqi əməkdaşlığın əsasını qoyuruq".



TKTA-nın İdarə Heyətinin sədri Ülkər Səttarova isə qeyd edib ki, rəhbərlik etdiyi qurumun əsas missiyası təhsilin müxtəlif pillələrində keyfiyyətin təminatı sisteminin qurulmasıdır: "BDU öz qarşısına çox böyük hədəflər qoyub və bunun üçün lazımi potensiala malikdir. Əməkdaşlıq çərçivəsində səmərəli daxili keyfiyyət təminatı sisteminin qurulması, təhsil proqramlarının beynəlxalq akkreditasiyası üçün əlaqələndirici qismində dəstəyin göstərilməsi nəzərdə tutulur".

Müqavilədə təhsilalanların bilik və bacarıqlarının, peşəkarlıq səviyyələrinin inkişafına, təhsil proqramlarına dəstək göstərilməsi, təlim, müsahibə və digər tədbirlərin təşkil edilməsi və qarşılıqlı maraq doğuran digər istiqamətlərdə əməkdaşlıq da nəzərdə tutulur.

# Qarabağ regionunun bərpası və inkişafına həsr olunmuş Şuşa Türk Biznes Forumu keçirilib

***Sentyabrın 16-da Şuşa şəhərində Qarabağ regionunun bərpası və inkişafına həsr olunmuş Şuşa Türk Biznes Forumu keçirilib.***

Forum Türk Dövlətləri Təşkilatının, Türk Ticarət və Sənaye Palatasının, İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının birgə təşkilatçılığı ilə baş tutub.

Tədbirə Azərbaycanla yanaşı, Türk Dövlətləri Təşkilatının 4 daimi üzvü (Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan) və müşahidəçi üzv Macarıstanın dövlət qurumlarının, eləcə də müxtəlif təşkilatların və diplomatik korpusun nümayəndələri, iş adamları qatılıb. BDU-nun rektoru Elçin Babayev də Forumda iştirak edib.

Forumun məqsədi Türk dövlətləri arasında iqtisadi, biznes və investisiya əlaqələrinin daha da dərinləşməsi, sahibkarlar arasında dialoqun təşviqi, Qarabağ regionunun iqtisadi və sərmayə potensialının xarici iş adamlarına təqdim olunmasıdır.

Forumda rəsmi şəxslərin çıxışları, ikitərəfli görüşlər keçirib. "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda investisiya imkanları" mövzusunda xüsusi sessiya baş tutub. Bir sıra sənədlərin imzalanmasından sonra Şuşa gəzintisi olub.

# BDU-da görkəmli şərqşünas alim Aida İmanquliyevanın xatirəsinə həsr olunmuş dəyirmi masa

***Sentyabrın 19-da Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasında görkəmli şərqşünas-alim, professor Aida İmanquliyevanın xatirəsinə həsr edilmiş dəyirmi masa keçirilib.***

Dəyirmi masada fakültə rəhbərliyi, Ərəb filologiyası kafedrasının müəllimləri və ərəb dili ixtisası üzrə təhsil alan tələbələr iştirak ediblər.

Fakültənin dekanı, dosent Aydan Xəndan Aida İmanquliyevanın həyat və yaradıcılığı, elmi fəaliyyəti barədə geniş məlumat verib, onunla bağlı xatirələrini bölüşüb. Alimin yüksək insani keyfiyyətlərə və humanizmə malik olduğunu vurğulayıb.

Ərəb filologiyası kafedrasının müdiri, dosent Vüqar Qaradağlı isə bildirib ki, Aida İmanquliyeva korifey şərqşünas kimi Şərqşünaslıq fakültəsinin məşhur məzunları arasında xüsusi yer tutur. O, müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açıb, öz fundamental araşdırmaları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, dünya şərqşünaslığını da zənginləşdirib və inkişaf etdirib.

Aida İmanquliyevanın tələbəsi, Ərəb filologiyası kafedrasının müəllimi Aytən Əlizadə görkəmli alimlə bağlı xatirələrini bölüşüb.

Dosent Çinarə Mütəllimova alimin tədqiq etdiyi sahənin unikal bir sahə olduğunu, ilk dəfə məhcər ədəbiyyatının nümayəndələrinin məhz Aida İmanquliyeva vasitəsi ilə Azərbaycan elminə tanıdılmasını vurğulayıb.

Sonda şərqşünas-alimin həyat və fəaliyyəti barədə tələbələrin sualları cavablandırılıb, fikir mübadiləsi aparılıb.

# BDU-nun Hirş indeksi 2022-ci ilin ilk 8 ayı ərzində 4 bal artdı

***Təhsil-elm-istehsalat triadası üzrə kreativ düşüncəli və konvergens biliklərə malik mütəxəssislərin hazırlanması, ən müasir cihaz və avadanlıqlarla təchiz olunmuş sənaye yönümlü elmi-tədqiqat mərkəz və laboratoriyaların yaradılmasını özünün əsas prioritetlərindən biri kimi inkişaf etdirən BDU Hirş indeksi 53 olub.***

"Clarivate Analytics" Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, 2022-ci ilin ilk 8 ayı ərzində BDU-nun Hirş indeksi 4 bal artaraq 53-ə çatıb. Hirş indeksi alimlərin, elmi təşkilatın fəaliyyətinin elmi əsərlər və həmin əsərlərə istinada görə kəmiyyət göstəricisidir. Hər bir əsərə istinadların orta sayı isə 6.2-yə qədər yüksəlib.

Agentliyin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorantları və tələbələri tərəfindən "Web of Science" bazasına daxil olan dərgilərdə artıq 3629 elmi əsər nəşr edilib. Bu əsərlərə 22000-dən çox istinad olunub. 2022-ci ilin ilk 8 ayı ərzində "Web of Science" bazasına daxil olan dərgilərdə BDU tərəfindən 162 əsər nəşr edilib və həmin əsərlərə 3400-dən çox istinad olunub.

Onu da qeyd edək ki, bu göstəricilərlə BDU Azərbaycan universitetləri arasında liderliyini qoruyur.

# "Necə nəşr etməli?" vebinarının növbəti buraxılışı

***BDU Elmi Kitabxanasının təşkilatçılığı ilə Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu çərçivəsində "Necə nəşr etməli?" adlı silsilə vebinarın "Ekspert rəyi" ("Peer Review") mövzusunda növbəti buraxılışı keçirilib.*** Vebinar "Sage" nəşriyyatının əməkdaşları, nüfuzlu tədqiqatçı redaktorlar Cesika Lipovski, Britni Stüart, Viki Kritenden və Cil Adelsanın iştirakı ilə keçirilib. Beynəlxalq nəşriyyatlarda məqalə nəşrinin müxtəlif aspektlərinə həsr olunan silsilə vebinarların sentyabr ayı buraxılışında akademik jurnallarda məqalənin resenziyalaşdırılma müddəti, ekspert rəyindən keçməsi üçün tələb edilən zaman, diqqət edilməsi lazım olan digər məqamlara toxunulub.

# BDU-nun 3 komandası "ADEX-2022" 4-cü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində iştirak edir



***BDU əməkdaşları və tələbələri "ADEX-2022" 4-cü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində iştirak ediblər.***

BDU sərgidə 4 stenddə 3 komanda və 7 layihə ilə təmsil olunub.

Sentyabrın 6-da BDU-nun "Uçuş texnologiyaları" komandası pilotsuz uçuş aparatlarını ziyarətçilərə təqdim edib.

3 gün davam edən sərginin növbəti günlərində BDU komandalarının hazırladığı alternativ enerji sistemlərinin müdafiə sənayesində tətbiqi, müxtəlif süni intellekt əsaslı proqramlaşdırma layihələri təqdim edib. BDU əməkdaşları həmçinin sentyabrın 8-də keçirilmiş "Gələcəyin milli sənaye kompleksi" adlı dəyirmi masada da iştirak edəblər.

Qeyd edək ki, "ADEX" sərgisi Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilib. Tədbirin təşkilati işlərinin icrası "Caspian Event Organisers" şirkətinə həvalə edilib.

"ADEX" müasir silah və texnikanın sərgisi pandemiyanın yaratdığı məcburi fasilədən sonra növbəti dəfə baş tutur. Sərginin xüsusi əhəmiyyəti həm də onun Azərbaycanın Vətən müharibəsində qazandığı şanlı Zəfərdən sonra ilk dəfə keçirilməsidir. Sərgidə Azərbaycan Ordusunun qələbəsində



müstəsna rol oynamış ölkənin hərbi-sənaye kompleksinin gücü və qüdrəti, müasir silahlar nümayiş etdirilib.

Sərgidə dünyanın 32 ölkəsindən 200-dən çox şirkət iştirak edib.

# BDU tələbələri Yaponiyanın Qunma Universitetində təhsil alacaqlar

***BDU-nun Regionşünaslıq (Yaponiya üzrə) ixtisasının III kurs tələbələri Mədinə Nuruşova, Nuray Rəsulzadə və Ülviyyə Nəzərova bir il ərzində Yaponiyanın Qunma Universitetində təhsil alacaqlar.***

Bu, BDU ilə Qunma Universiteti arasında mövcud olan əməkdaşlıq müqaviləsinə əsasən həyata keçiriləcək.

Tələbələr bir il ərzində Qunma Universitetində yapon dili, Yaponiya tarixi və mədəniyyətini öyrənəcək, bu ölkənin adət-ənənələri və yaşayış tərzi ilə tanış olacaqlar.

# BDU-da Abdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzinin professoru Mikhail Kiselevin ustad dərsi keçirilib

***Sentyabrın 28-də Abdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzinin (The Abdus Salam International Centre for Theoretical Physics (ICTP), Italy) tədqiqatçı alimi, professor Mikhail Kiselev Bakı Dövlət Universitetində "ICTP-nin Təhsil və Tədqiqat Proqramları" mövzusunda ustad dərsi - mühazirə keçib.***

Mühazirədə İtaliyanın Triest şəhərində yerləşən, İtaliya hökuməti, UNESCO və Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin himayəsi altında fəaliyyət göstərən Abdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzinin bir çox elm sahələri üzrə elmi-tədqiqat işlərini həyata keçirdiyi diqqətə çatdırılıb. Qeyd edilib ki, bu sahələr arasında Yüksək enerjilər, Kosmologiya və astrohissəciklər fizikası, Kondensə olunmuş hal fizikası və statistik fizika, Riyaziyyat, Yer elmləri, Elm, texnologiya və innovasiya və Həyat elmləri sahələri üstünlük təşkil edir.

Məruzəçi həmçinin Mərkəzdə fizika və riyaziyyat üzrə birgə doktorantların hazırlığı, karyeranın inkişafı, digər əməkdaşlıq proqramlarının da həyata keçirilməsi haqqında iştirakçılara geniş məlumat verib.

Qeyd edək ki, BDU ilə Beynəlxalq Nəzəri Fizika Mərkəzi arasında sıx elmi əlaqələr qurulub. Müxtəlif elm sahələrində, xüsusilə də fizika və riyaziyyatın nəzəri və tətbiqi məsələləri üzrə birgə elmi-tədqiqat işlərinin təşkili və planlaşdırılması ilə bağlı ikitərəfli əməkdaşlıq mövcuddur.

Tədbirdə BDU-nun əməkdaşları, gənc tədqiqatçılar və tələbələr iştirak ediblər. Mühazirənin sonunda Mikhail Kiselev verilən sualları cavablandırıb.

# BDU Avropa Universitetlər Assosiasiyasının nəzdindəki Tədqiqat və İnnovasiya Strategiyası Qrupunda təmsil olunacaq

***BDU-nun rektoru Elçin Babayev Avropa Universitetlər Assosiasiyasının (EUA) nəzdində fəaliyyət göstərən Tədqiqat və İnnovasiya Strategiyası Qrupuna (RISG) üzv qəbul edilib. RISG-də Avropanın Sarbonna Universiteti (Fransa), Leuven Katolik Universiteti (Belçika), Tilburg Universiteti (Niderland), Oslo Universiteti (Norveç), Lodz Universiteti (Polşa) və digər ali təhsil müəssisələrinin rəhbərləri, o cümlədən İsveçrənin Ali Təhsil İnstitutları Assosiasiyasının sədri üzv kimi fəaliyyət göstərirlər. BDU Azərbaycandan RİSG-də təmsil olunan yeganə qurumdur.***

EUA-nın nəzdində fəaliyyət göstərən RISG Assosiasiyanın Avropa universitetlərinə dair tədqiqat və innovasiya strategiyasını hazırlamaq üçün geniş səlahiyyətlərə malikdir.

Qrupun tədqiqat və innovasiya sahəsində təcrübə və səriştəyə malik universitet rəhbərlərindən ibarət üzvləri strateji siyasəti nəzərdən keçirməklə, habelə tədqiqat və innovasiya sahəsində Avropa siyasəti üzrə EUA-nın mövqeyini, bəyanatlarını və tövsiyələrini hazırlamaqla EUA Şurasına məsləhət və dəstək verirlər. Sözügedən Qrup EUA-nın uzunmüddətli strateji qrupu kimi yaradılır və onun fəaliyyəti iki ildən bir Şura tərəfindən nəzərdən keçirilir.

Qeyd edək ki, BDU cari ilin fevral ayında 17 milyon tələbənin təhsil aldığı, 47 ölkənin 800-dən çox universitetinin birləşdiyi Avropa Universitetləri Assosiasiyasının tam hüquqlu üzvü qəbul edilib və Avropanın qabaqcıl universitetlərini birləşdirən platformaya qoşulub.

# Jurnalistika fakültəsinin 4 tələbəsi "ARB24"də işlə təmin olunub

***BDU və "ARB 24" telekanalı arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində "ARB 24 NewsLab" təlim proqramı yekunlaşıb. Təlimə cəlb olunan 10 tələbədən 4-ü telekanalda işlə təmin edilib.***



Telekanalın direktoru Radik İsmayılov bildirib ki, 2023-cü ilin fevralında layihənin yenidən keçirilməsi planlaşdırılır. Proqram ənənəvi şəkildə hər il davam etdiriləcək.

BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu isə tələbələrə göstərdiyi dəstəyə görə "ARB 24" telekanalına təşəkkürünü bildirib və əməkdaşlığı davam etdirməkdə maraqlı olduqlarını vurğulayıb. Həmçinin Universitetin nəzdində televiziyanın kiçik studiyasının yaradılmasının nəzərdə tutulduğunu qeyd edib.

Daha sonra layihəni uğurla bitirən tələbələrə sertifikatlar təqdim edilib və onlara çalışacaqları verilişlər barədə məlumat verilib. Bildirilib ki, oktyabrın 1-dən seçilən 4 şəxslə əmək müqaviləsi imzalanacaq və onlar rəsmi şəkildə işə götürüləcəklər.

Qeyd edək ki, təlim proqramı 3 ay davam edib. Müsahibə mərhələsindən uğurla keçən tələbələr daha sonra praktik məşğələlərə cəlb olunublar. BDU və "ARB 24"ün birgə layihəsi xəbər hazırlanması, nitq mədəniyyəti, görüntü, videomontaj sahələrini əhatə edib.

# Şəhid Erkin Hüseynovun xatirəsi anılıb

***Sentyabrın 20-də Sosial elmlər və psixologiya fakültəsində sentyabrın 12-də Ermənistanın genişmiqyaslı təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olan Erkin Hüseynovun xatirəsinə həsr olunmuş "Şəhidlər ölmür" adlı tədbir keçirilib.***

Əvvəlcə Vətən uğrunda şəhid olan qəhrəmanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Fakültə dekanı Rövşən Cavadov Erkin Hüseynovun 2016-2020-ci illərdə fəlsəfə ixtisası üzrə təhsil aldığını, tələbə vaxtı özünü mükəmməl şəxsiyyət kimi göstərdiyini, bütün müəllim heyəti və dostlarının dərin hörmətini qazandığını bildirib.

Tədbirdə fakültənin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Nəzakət Kərimova, Fəlsəfə və mədəniyyətşünaslıq kafedrasının müdiri professor Rəbiyyət Aslanova, Fəlsəfə kafedrasının müdiri dosent Kəmalə Pənahova, müəllimlər Ülviyyə Ağabəyova, Nəriman Süleymanov, şəhidin qrup yoldaşları Fərid Əmirov, Kamal Zeynili, Murad Ağakişiyev, İsa Mustafayev, Afaq Nağıyeva, Gülay Həsənzadə, Səbinə Hüseynova, Mədinə İbrahimova, Ayişə Mirzəyeva, Zeynəb Manafova, Yetər Hüseynli, Şəbnəm Qarayeva, Ləman Mehdizadə, Leyla Mehdiyeva Erkin Hüseynov haqqında xoş xatirələrini bölüşüblər.

Tədbirin sonunda Erkin Hüseynovun əziz xatirəsinə hörmət əlaməti olaraq fakültədəki şəkli önünə gül dəstələri düzülüb.

# BDU-nun şəhid məzunu Nicat Əhmədovun məzarı ziyarət olunub

***Sentyabrın 22-də BDU-nun kollektivi Vətən müharibəsi dövründə şəhid olan tələbə və məzunlarının xatirəsini daim əziz tutur, şəhid ailələri və müharibə iştirakçıları ilə vaxtaşırı görüşlər keçirilir.***

Sentyabrın 22-də BDU-nun bir qrup əməkdaşı Vətən müharibəsi şəhidi, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu Nicat Əhmədovun doğum günündə ailəsi ilə görüşüb, məzarını ziyarət edib. Ziyarətdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekan müavini Kənan Vəkilov, fakültənin könüllüləri və fəal tələbələri iştirak ediblər. Görüşdə çıxış edənlər Nicat Əhmədovun Vətən torpağı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını bildiriblər. Təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Nicat Əhmədovun müəllimləri və tələbə yoldaşlarının qəlbində daim yaşayacağı qeyd olunub.

Qeyd edək ki, Nicat Əhmədov 2016-2020-ci illərdə BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində təhsil alıb. 2020-ci il oktyabrın 8-də səhər saatlarında Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb.

# BDU-nun SABAH qruplarının tələbələri "PAŞA Holding"in "Əlaçı" proqramının qalibi olublar

***BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisasında təhsil alan tələbələri Sadıq Hacılı, Rəhim Abasov, Nicat İsmayılzadə və Sultanə Sultan "PAŞA Holding"in "Əlaçı" proqramının qalibi olublar.***

"PAŞA Holding"in "Əlaçı" proqramı bakalavriat pilləsinin III və IV kurs tələbələrini əhatə edən bir illik təqaüd proqramıdır. Proqram 2022/2023-cü tədris ilini əhatə edir və qeydiyyatdan uğurla keçən tələbələrin aylıq təqaüdlə təltif edilməsini nəzərdə tutur.

Proqram ərzində tələbələr həmçinin şəxsi və karyera inkişafı üzrə təlim proqramları, karyera məsləhətləri və mentorluq, eləcə də şəbəkələşmə fəaliyyətlərinə cəlb olunacaqlar.

# Astrofizika kafedrası: Yupiter sentyabrın 26-da Yerə ən yaxın məsafədə olacaq

***Günəş sisteminin ən böyük planeti olan Yupiter 2022-ci il sentyabrın 26-da Bakı vaxtı ilə saat 23:10-da Yer və Günəşlə bir düz xətt üzərində və həmin an özünün orbitində Günəşə ən yaxın nöqtədə - perihelidə olacaq.***

BDU-nun Astrofizika kafedrasının məlumatına görə, səma cisimlərinin belə yerləşməsi təxminən 12 ildən bir baş verir və bu hadisə elmdə "Yupiterin böyük qarşıdurması" adlanır. Yupiter periheli nöqtəsində 19 yanvar 2023-cü ildə olacaq.

"Böyük qarşıdurma"nın əsas xüsusiyyəti ondan ibarətdir ki, bu hadisə zamanı Yupiter Yerə minimum məsafədə yaxınlaşır, bu məsafə 3.95 astronomik vahid və ya 591 295 396 km, Yupiterin bucaq ölçüsü 49.87, parlaqlığı isə demək olar ki, -2,94 ulduz ölçüsü təşkil edir. Yupiter gecə səmasında Ay və Veneradan sonra üçüncü ən parlaq obyekt olacaq.

Sonuncu dəfə bu cür qarşıdurma 2010-cu il sentyabrın 20-də baş verib. 26 sentyabrda baş verəcək hadisədən sonra növbəti dəfə ən çox yaxınlaşmanı isə 2034-cü il oktyabrın 1-də müşahidə etmək mümkün olacaq.

Astronomik qarşıdurma dedikdə planetin Yerə nisbətən Günəşdən əks tərəfdə olması başa düşülür. Qarşıdurma zamanı planet Yerdən müşahidə zamanı səmada Günəşdən 180 dərəcə bucaq məsafəsində yerləşir, yəni, Günəş qərbdə batan zaman planet şərqdə üfüqdə görünür. Əgər qarşıdurma planet öz orbitinin periheli nöqtəsinə yaxın olanda baş verirsə, belə astronomik hadisə "böyük qarşıdurma" adlanır.

Orbitləri Yerin orbitinin xaricində olan planetlər qarşıdurmada ola bilirlər. Qarşıdurma hadisəsinin baş verməsi üçün Yerin həmin planetlə Günəş arasında olması lazımdır. Qarşıdurma hadisəsinin baş verə biləcəyi planetlər bunlardır: Mars, Yupiter, Saturn, Uran və Neptun.

Planetlərdən başqa, kometlər, asteroidlər və Günəş sisteminin bəzi digər obyektləri də qarşıdurmada ola bilər. Ən məşhur qarşıdurma isə dolu Ay hadisəsidir.

Planetlərin adi qarşıdurması təxminən ildə bir dəfə, Yer Günəşlə planetin arasında lazımi konfiqurasiyaya çatdıqda baş verir. Yupiterin adi qarşıdurması 13 aydan bir baş verir. Yeganə istisna Marsdır. Qırmızı planetin orbiti və orbital sürəti Yerin uyğun parametrlərinə çox yaxındır, ona görə də planetimiz 27 ayda yalnız bir dəfə Marsı "ötür". Bu səbəbdən Marsın qarşıdurması təxminən 2-3 ildən bir baş verir. Merkuri və Venera Yerin orbiti daxilində yerləşir, ona görə də bizim onları heç vaxt qarşıdurmada görməyəcəyik.

Yupiter insanlara qədim zamanlardan məlumdur. Mesapotomiya mədəniyyətində planet "Ağ ulduz" adlanırdı. Yupiterin 12 illik hərəkət dövrünün ətraflı təsviri planeti "İlin ulduzu" adlandıran Çin astronomları tərəfindən verilib. Yunanlar onu "Zevs ulduzu" adlandırırdılar.

"Böyük qarşıdurma" Yupiteri Yerdən müşahidə etmək üçün ən əlverişli vaxt hesab olunur. Bu zaman planetin görünən bucaq ölçüsü böyük olduğuna görə onun səthində daha çox detalları ayırd etmək mümkün olur. Yupiterin diskində ekvatora paralel tünd bulud zolaqları və ləkələr var ki, onların görünüşü hər il dəyişir: kiçik ləkələr görünür və yox olur, rənglər, burulğanlar öz formasını dəyişir. 362 ildir ki, astronomlar Böyük Qırmızı Ləkəni müşahidə edirlər. Böyük Qırmızı Ləkə Günəş sistemindəki unikal uzunömürlü və ən nəhəng qasırğadır. Ləkə planetin ekvatoruna paralel olaraq hərəkət edir. Ən uzunömürlü bu tsiklon Yerdən əhəmiyyətli dərəcədə böyükdür - uzunluğu 30 min km və eni 15 min km-dir. 100 il əvvəl ləkənin ölçüsü indiki ölçüsündən iki dəfə böyük olub.

Bakıda Yupiter 26 sentyabr tarixində saat 19:19-dan sentyabrın 27-si saat 05:54-dək görünəcək. Onun müşahidəsi şərqdə üfüqdən 7° yüksəkliyə qalxdıqdan sonra saat 19:19-dan etibarən mümkün olacaq. Sentyabrın 27-də saat 00:36-da Yupiter səmada ən yüksək nöqtəyə çatacaq. 05:54 radələrində qərb üfüqündə 7°-nin altında olduqda artıq Yupiterin müşahidəsi mümkün olmayacaq.

# Media nümayəndələri BDU-nun həyətində Yupiterin Yerə yaxınlaşmasını izləyiblər

***Sentyabrın 26-da Günəş sisteminin ən böyük planeti olan Yupiter sentyabrın 26-da Bakı vaxtı ilə saat 23:10-da Yer və Günəşlə bir düz xətt üzərində və həmin an özünün orbitində Günəşə ən yaxın nöqtədə - perihelidə olub.***

Təbiət hadisəsi BDU Tələbə Elmi Texniki-Yaradıcılıq Mərkəzinin həyətindəki teleskop vasitəsilə canlı yayımlanıb. Universitet rəhbərliyi, müəllimlər, tələbələr, ictimaiyyət və media nümayəndələri prosesi izləyiblər.

Səma cisimlərinin belə yerləşməsi təxminən 12 ildən bir baş verir və bu hadisə elmdə "Yupiterin böyük qarşıdurması" adlanır.






"Böyük qarşıdurma"nın əsas xüsusiyyəti ondan ibarətdir ki, bu hadisə zamanı Yupiter Yerə minimum məsafədə yaxınlaşır, bu məsafə 3.95 astronomik vahid və ya 591 295 396 km təşkil edir. Yupiter gecə səmasında Ay və Veneradan sonra üçüncü ən parlaq obyekt olur.

Sonuncu dəfə bu cür qarşıdurma 2010-cu il sentyabrın 20-də baş verib. 26 sentyabrda baş verəcək hadisədən sonra növbəti dəfə ən çox yaxınlaşmanı isə 2034-cü il oktyabrın 1-də müşahidə etmək mümkün olacaq.

# Fizika fakültəsində ixtisaslı mühəndislərin hazırlığına başlanılıb

***Azərbaycan Respublikasının yüksək iqtisadi inkişaf templəri bütün sahələrdə müasir innovativ texnologiyaların tətbiqini zəruri edir. Bu isə öz növbəsində ixtisaslı, fundamental biliklərə yiyələnmiş mühəndis kadrlarının hazırlanmasını bir vəzifə kimi ali təhsil müəssisələrinin qarşısında qoyur. Bu vəzifəni yerinə yetirmək məqsədilə Bakı Dövlət Universitetinin Fizika fakültəsində yeni "Mühəndis fizikası" ixtisası açılıb.***

"Mühəndis fizikası" ixtisası informasiya-kommunikasiya texnologiyasına, nüvə fizikasına, elektrotexnikaya, elektronikaya, aerokosmik mühəndisliyə, materialşünaslığa və maşınqayırmaya xüsusi diqqət ayırmaqla fizika, kimya, biologiya və mühəndislik elmlərinin elementlərini özündə ehtiva edən ixtisasdır. Ənənəvi mühəndislik ixtisaslarından fərqli olaraq, mühəndis fizikası elm və texnikanın müəyyən bir sahəsi ilə məhdudlaşmır. Əksinə, mühəndis fizikası seçilmiş peşə üzrə tətbiqi fizikanın daha ətraflı öyrənilməsi üçün nəzərdə tutulub. Bu ixtisas riyazi, elmi-statistik və mühəndislik prinsiplərini dərindən anlamaqla nəzəri biliklərlə praktik mühəndislik arasında bağlılıq yaratmağa xidmət edir. İxtisaslı mühəndis fiziklər yüksək texnologiyalı sahələrdə (optika, nanotexnologiya, materialşünaslıq, elektronika, mikrotexnologiya, mikroelektronika, hesablama texnikası, fotonika, nüvə mühəndisliyi, biofizika, energetika, maşınqayırma və s.) peşəkar fizik və ya mühəndis kimi, müxtəlif elmi və texniki sahələrdə ekspert kimi çalışa bilərlər.



2022-2023-cü tədris ilində "Mühəndis fizikası" ixtisasına 15 tələbə qəbul olunub. Həmin tələbələrin ixtisas üzrə zəruri biliklərə yiyələnməsi məqsədilə fakültə dekanlığı tərəfindən lazımi tədbirlər görülür. Belə ki, sentyabrın 16-da Fizika fakültəsinin "Mühəndis fizikası" ixtisasına qəbul olunmuş tələbələr BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində olublar. Onlara Mərkəzin strukturu, fəaliyyəti, üzərində iş gedən layihələr, əldə olunmuş uğurlar barədə məlumatlar verilib və həmin tələbələrin Mərkəzin işinə cəlb olunmaları üzrə danışıqlar aparılıb.

# Almaniyanın Karlsrue Texnologiya İnstitutunun tədqiqatçı-professoru Əli İsmayıl-Zadə BDU-da mühazirə keçib

***Sentyabrın 1-də Almaniyanın Karlsrue Texnologiya İnstitutunun tədqiqatçı-professoru, fizika-riyaziyyat elmləri doktoru Əli İsmayıl-Zadə Bakı Dövlət Universitetinin əməkdaşları, gənc tədqiqatçıları və tələbələri üçün "Fəlakətlər haqqında elmin sərhədlərinin genişləndirilməsi" (Advancing Frontiers of Disaster Science) mövzusunda mühazirə ilə çıxış edib.***

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Universitetin ən böyük missiyası ölkə üçün yüksək səviyyəli kadrların hazırlanmasıdır: "Universitetin dünya şöhrətli məzunu Ümummilli liderimiz Heydər Əliyevdir. BDU məzunları ölkəmizdə və xaricdə layiqincə təmsil edirlər. Dünyanın müxtəlif ölkələrində öz elmi məktəblərini yaradan BDU məzunları da var. Belə uğurlu məzunlarımızdan biri də professor Əli İsmayıl-Zadədir".




Əli İsmayıl-Zadə mühazirəsinin əvvəlində fundamental elmlərin, geofizikanın, təbii təhlükələrin öyrənilməsinin risklərin qiymətləndirilməsinə necə töhfə verdiyindən danışıb.

O qeyd edib ki, təbii təhlükələr, fəlakətlərə qarşı həssaslıq və onların təsirləri ilə bağlı tədqiqatlara inteqrasiya olunmuş Yer müşahidələri, məlumatların təhlili və modelləşdirilməsi əsasında elmi kəşflər risklərin qiymətləndirilməsinə kömək edir və beləliklə, fəlakətlər haqqında elmin sərhədlərini genişləndirir. Litosferin dinamikasının ədədi modelləşdirilməsi və zəlzələlərin modelləşdirilməsi seysmik təhlükənin ehtimal analizi ilə birlikdə gələcəkdə güclü zəlzələlər nəticəsində potensial yer silkələnməsinin daha dəqiq qiymətləndirilməsini təmin edə bilər. Lava qübbəsinin böyüməsinin, onun potensial dağılmasının və lava/piroklastik axınların modelləşdirilməsi vulkan təhlükəsinin qiymətləndirilməsində önəmli rol oynayır. Təhlükələrin təhlili, modelləşdirilməsi və proqnozlaşdırılması ekstremal hadisələrin təsirini azaltmağa yönəlmiş profilaktik tədbirlərin işlənilib hazırlanmasına kömək edir. Təbii fəlakətlərə qarşı həssaslıq, sosial qarşılıqlı əlaqə və mürəkkəblik, habelə risklərin azaldılması, risklər barədə ictimaiyyətin məlumatlandırılması, davamlı inkişafın təmini və elmi əsaslı inkişaf siyasətinin hazırlanması ilə bağlı problemlər artdıqca, təhlükəli hadisələrin nəticələrinin şiddəti də artır.

Mühazirədə daha sonra fəlakətlər və risklər haqqında elmi biliklərin fəlakət və fəlakətlərə hazırlıqla əlaqəsi, eləcə də əhalinin onlar haqqında məlumatlandırılması haqqında danışılıb. Qeyd olunub ki, təbiət, mühəndislik, sosial elmlərin və təcrübənin inkişaf siyasəti ilə inteqrasiyası fəlakət riskinin azaldılması tədbirlərini əhəmiyyətli dərəcədə təkmilləşdirməlidir. Məlumatlı qərarlar qəbul etmək üçün əldə edilmiş biliklərin faydalı mesajlar və mümkün siyasi və iqtisadi tədbirlər şəklində ötürülməsi məqsədilə elmi tədqiqatlarda vahid, fənlərarası və konvergens yanaşmaların inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

# BDU əməkdaşları Rumıniyanın Konstanta Maritime Universitetində keçirilən təlimdə iştirak ediblər

***Coğrafiya fakültəsinin əməkdaşları Natavan Cəfərova, Anar Nuriyev və Aytən İmanova 2022-ci il 04-11 sentyabr tarixlərində Rumıniyanın Konstanta Maritime Universitetində keçirilən pedaqoji təlimdə iştirak ediblər.***

ERASMUS+ proqramının dəstəyi və "Sahilyanı ərazilərdə iqlim dəyişmələrinə adaptasiya tədbirləri üzrə məkan-zaman mühəndisliyi istiqamətində yeni tədris kurslarının yaradılması" ("New courses in geospatial engineering for climate change adaptation of coastal ecosystems") layihəsi çərçivəsində keçirilən təlimlərə Azərbaycan, Qazaxıstan, Türkmənistan, Almaniya, Litva, Rumıniya və Hollandiyanın tərəfdaş universitetlərinin əməkdaşları qatılıblar.

Təlimin əsas məqsədi universitetlər arasında əməkdaşlığı dərinləşdirmək, tərəfdaş ölkələrin müəllimlərini Avropa universitetləri tərəfindən təklif olunan kurslar və onların tədris metodları ilə tanış etmək, təcrübə mübadiləsi aparmaq olub.

Təlim müddətində iştirakçılar Geonetcat, Eumetsat Google Earth Engine, Copernicus Climate Data Store və OpenEO peyk təsvirlərinin emalı, Yerin müşahidəsi üçün kiçik peyklərin və Meteosat İkinci Nəsil (MSG) peyklərin funksiyaları, texnoloji tendensiyalar, innovativ məhsulların kommersiyalaşdırılması, mühəndislər üçün startap təşəbbüsləri, hidroloji, hidravlik və ekoloji proseslərin modelləşdirilməsi və risklərin idarə edilməsi modulları üzrə yenidən hazırlıq, praktiki nümunələr, effektiv tədris metodları və Konstanta Maritime Universitetinin laboratoriyaları və xüsusi avadanlıqları ilə tanış olublar.

Təlimin sonunda universitetlər üzrə hesabatlar dinlənilib, layihənin gələcək planları nəzərdən keçirilib və təlim iştirakçılarına sertifikatlar təqdim olunub.





# ORBİCOM-da BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrası haqqında məlumat yerləşdirilib

***Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən UNESCO kafedraları arasında əlaqələri intensivləşdirmək üçün yaradılmış Kommunikasiya üzrə UNESCO kafedraları şəbəkəsinin (ORBİCOM) saytında (www.orbicom.ca) Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrası haqqında da məlumat yerləşdirilib. Saytın Kafedralar (Chaires) bölməsində Avropa regionu üzrə kafedralar arasında kafedra haqqında ümumi məlumat, Nəşrlər (Piblications) bölməsində isə 2022-ci ilin avqust ayında dərc edilmiş Bülletendə (Orbi-Info Bulletin of August 2022 (No. 2022-04, Aug. 2022) geniş məlumat əks olunub.***

ORBİCOM - informasiya mübadiləsini və ortaq layihələrin inkişafını təmin etmək məqsədilə akademik, media, korporativ və hökumət dairələrindən kommunikasiya liderlərini birləşdirən beynəlxalq şəbəkədir.

Qeyd edək ki, BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrası 2022-ci ilin əvvəllərində kafedra haqqında məlumatları və kafedranın hesabatını ORBİCOM-un Baş katibliyinə göndərib, kafedranın fəaliyyəti müsbət qiymətləndirilərək, bu məlumatlar cari ilin avqust ayında "Orbi Info" Bülletenində çap edilib və şəbəkə üzrə yayımlanıb. Artıq kafedranın fəaliyyəti dünyanın bütün regionlarında izlənilir, bu da beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulması üçün geniş imkanlar yaradır.

# BDU-nun alimi yüksək impakt faktorlu jurnalın xüsusi bölməsinin redaktoru oldu

***Mexanika-riyaziyyat fakultəsinin Cəbr və həndəsə kafedrasının müdiri, əməkdar elm xadimi, professor Arif Səlimov və Çex Respublikasının Palacky Universitetinin professoru Josef Mikeşin redaktoru olduğu "Müasir fizikada diferensial həndəsi üsullar" ("Differential Geometric Methods in Modern Physics") adlı xüsusi bölmə "Web of Science" bazasında Q2 kvartil kateqoriyalı jurnallar siyahısına daxil olan "Frontiers in Physics" jurnalında (IF: 3.718) dərc olunub.***

Xüsusi bölmədə dünyanın müxtəlif ölkələrindən olan alimlərin 7 məqaləsinə redaktorlar tərəfindən rəy verilib. Bölmədə müasir fizikada tətbiq olunan yeni diferensial həndəsi metodlar ətraflı təsvir edilib. Əsas məqsəd müxtəlif həndəsi strukturlarla təmin edilmiş çoxobrazlılar nəzəriyyəsində yeni anlayış və üsulların təklif edilməsi və nəzəri fizikada tətbiq yollarının göstərilməsi olub.

# Şərqşünalıq fakültəsində Pakistanın Muslim İnstitutunun direktoru ilə görüş

***Sentyabrın 23-də Şərqşünaslıq fakültəsində Pakistanın Muslim İnstitutunun direktoru, Cunaqat əyalətinin hazırki baş naziri, Beynəlxalq Sülh və İnkişaf İnstitutu tərəfindən (INSPAD) 2020-ci ildə "İlin ən nüfuzlu müsəlmanları" onluğuna daxil edilən Sultan Əhməd Əli Sahib ilə görüş keçirilib.***

Görüşdə Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, dekan müavinləri Nigar İsmayılzadə, Şahin Yusifli, fakültənin əməkdaşları və tələbələr iştirak ediblər.

Fakültənin dekanı Aydan Xəndan qonağa BDU-nun tarixi, burada həyata keçirilən tədris və elm prosesi, Şərqşünaslıq fakültəsinin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib.

İran filologiyası kafedrasının müdiri Mehdi Kazımov Sultan Əhməd Əli Sahibi Şərqşünaslıq fakültəsində urdu dilinin tədrisi və perspektivləri ilə tanış edib. Məruzəçi görüşdə Azərbaycan-Pakistan ədəbi əlaqələrini qarşılıqlı şəkildə müqayisə edib.

Sultan Əhməd Əli Sahib görüşün sonunda fakültə tələbələrinin urdu dilində çıxışlarını dinləyib.

# BDU-da "Mərkəzi Asiya və Qafqazda Dinamika Günləri"nin açılışı olub

***Sentyabrın 28-də BDU-nun təşkilatçılığı və Abdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzinin dəstəyi ilə "Mərkəzi Asiya və Qafqazda Dinamika Günləri" adlı beynəlxalq elmi konfransın açılışı keçirilib.***



Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov tədbiri giriş sözü ilə açaraq BDU-da son dövrlərdə aparılan elmi-tədqiqat işlərinin müasir çağırışlara cavab verəcək səviyyədə qurulması üçün görülən işlərdən, yeni yaradılmış laboratoriya və mərkəzlərdən bəhs edib. Bildirib ki, məhz bunun nəticəsində BDU-nun Hirş indeksi 53-ə çatıb. Tədqiqat Universitetinə çevrilməyi hədəfləyən BDU-da bu cür konfransın keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Mais Süleymanov vurğulayıb ki, konfransın məqsədi mürəkkəb və qeyri-xətti sistemlər fizikasında az öyrənilmiş bəzi məsələləri, son nailiyyətləri və gələcək inkişaf perspektivlərini təqdim və müzakirə etməkdir.

Sonra İtaliyanın İnsubria Universitetinin professoru Giulio Kasati keçirilən konfransın mövzusunun dünyanın inkişaf etmiş ölkələrində uzun müddət araşdırıldığına diqqət çəkib, ABŞ, Avropa, Çin, Yaponiya və Avstraliyada da bu mövzuda tədbirlərin təşkil olunduğunu deyib.

Qeyd edib ki, beynəlxalq konfrans ilk dəfə 2013-cü ildə Səmərqənddə (Özbəkistan) keçirilib. Giulio Kasati Beynəlxalq konfransın Mərkəzi Asiya, Qafqaz və digər inkişaf etməkdə olan ölkələrin tədqiqatçılarının Avropa, ABŞ, Yaponiya kimi inkişaf etmiş ölkələrin alimləri ilə əməkdaşlığının qurulmasına dəstək verəcəyinə əminliyini vurğulayıb.

Konfrans "Xaos və qeyri-xətti dinamika", "Aşağı ölçülü domenlərdə qeyri-xətti təkamül tənlikləri", "Solitonlar və kvant damcıları", "Mürəkkəb şəbəkələr və şəbəkə dinamikası", "Nanoölçülü sistemlərdə mürəkkəb hadisələr", "Statistik fizika və onun tətbiqləri", "Kvant elmində mürəkkəb hadisələr", "Epidemiyaların proqnozlaşdırılma və modelləşdirilməsi", "Astronomiya və astrofizikada mürəkkəb hadisələr" adlı mövzuları əhatə edir.

Bir çox ölkələrdən olan tanınmış alim-mütəxəssislərin iştirak etdiyi konfransda Riçardo Adami (Turin Politexnik Universiteti, İtaliya), İman Əsgərbəyli (Ankara Universiteti, Türkiyə), Karlo Beenakker (Leiden Universiteti, Hollandiya), Matthias Ehrhardt (Vuppertal Universiteti, Almaniya), Rosario Fazio (Əbdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzi, İtaliya), Yuval Gefen (Weizman İnstitutu, İsrail), Theo Geisel (Gottingen Universiteti, Almaniya), Elçin Cəfərov (Fizika İnstitutu, Azərbaycan), George Caparidze (Tbilisi Dövlət Universiteti, Gürcüstan), Mikhail Kiselev (Əbdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzi, İtaliya), Davron Matrasulov (Turin Politexnik Universiteti, Özbəkistan) və digərlərinin məruzələri nəzərdə tutulub. Konfrans 3 gün davam edib.

# Astrofizika kafedrası: 29 sentyabr - 1 oktyabr tarixlərində maqnit qasırğası gözlənilir

***Son üç sutka ərzində Günəş aktivliyinin aşağı səviyyədə olmasına baxmayaraq, Günəş səthində bəzi aktiv oblastlar parçalanıb, Yerə praktik təsir edə bilməyən C sinif və zəif təsirli olaraq radiadalğaların yayılmasını əngəlləyə, hətta pozulmasına gətirərək radiasiya və maqnit qasırğası yarada bilən M sinif alışmalar müşahidə olunub.*** Maqnit qasırğasının gücünü göstərən əmsal 9 ballıq sistemlə 2-dən 6-ya kimi yüksələcək. Günəşdə alışmaların baş vermə ehtimalı sentyabrın 29-da C sinif alışmalar üçün 90%, M sinif alışmalar üçün 25% və X sinif alışmalar üçün isə 5%-dir.

# Doktoranturaya qəbul olmaq üçün fəlsəfə fənni üzrə qəbul imtahanları keçirilib



***2022-ci il 01-02 sentyabr tarixlərində Bakı Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq üçün fəlsəfə fənnindən qəbul imtahanları keçirilib.***

İmtahanlarda BDU-nun doktoranturasına sənəd təqdim etmiş 157, eləcə də Xəzər Universiteti, Bakı Biznes Universiteti, Qərbi Kaspi Universiteti, Azərbaycan Universiteti, Bakı Avrasiya Universiteti və Odlar Yurdu Universitetinin doktoranturalarına sənəd vermiş 47 nəfər, ümumilikdə 204 iddiaçı iştirak edib.

İmtahanlar BDU, Xəzər Universiteti, Bakı Biznes Universiteti, Qərbi Kaspi Universiteti, Azərbaycan Universiteti, Bakı Avrasiya Universiteti və Odlar Yurdu Universitetinin professor-müəllimlərindən ibarət İmtahan Komissiyası tərəfindən şifahi formada keçirilib.

İmtahandan müvəffəqiyyətlə keçən 174 iddiaçı növbəti ixtisas imtahanında iştirak edəcək.

# BDU-da yeni ixtisasların açılması nəzərdə tutulur

***BDU-da "Aqrar hüquq", "Qida məhsullarının kimyəvi ekspertizası", "Təbii ehtiyatlar hüququ", "İctimaiyyətlə əlaqələr" və digər yeni ixtisasların açılması üzrə işlər aparılır.***

BDU-da əmək bazarının tələbləri nəzərə alınaraq təhsilin bakalavriat və magistratura səviyyələrində bir sıra yeni ixtisas və ixtisaslaşmaların açılması elmə və təhsilə böyük maraq doğurub. Təhsilin bütün pillələri (bakalavriat, magistratura, doktorantura) üzrə təhsil proqramları sənaye və biznes müəssisələrinin mütəxəssisləri ilə birgə hazırlanır və yenilənir.

İstehsalat müəssisələrindən olan mütəxəssislər tədrisə və elmi fəaliyyətə cəlb olunur, ustad dərsləri və elmi seminarlar təşkil olunur. Bu cür əməkdaşlıq çərçivəsində əmək bazarının ehtiyac və tələbləri öyrənilir. Yeni ixtisaslar (ixtisaslaşmalar) müəyyən edilir, elmi-pedaqoji potensial nəzərə alınmaqla həmin ixtisaslar üzrə kadrlar hazırlanır. Son illər BDU-nun təşəbbüsü ilə "Aktuar riyaziyyat", "Ekologiya hüququ", "Mobil tətbiqlərin hazırlanması və oyun dizaynı", "Mədəniyyət hüququ", "Vergi hüququ" kimi ixtisaslar açılıb.

BDU-nun onlarca məzunu son illər yüksək nəticələr əldə edərək nüfuzlu xarici universitetlərə qəbul olub.

# Altsheymer xəstəliyinə qarşı dərman preparatlarının hazırlanması üzrə tədqiqatlar davam edir

***Kimya fakültəsinin Neft kimyası və kimya texnologiyası kafedrasının müdiri, professor İbrahim Məmmədov, Üzvi kimya kafedrasının Zərif üzvi sintez elmi-tədqiqat laboratoriyasının aparıcı elmi işçiləri Fərid Nağıyev və Rizvan Əskərovun həmmüəllifi olduqları "İzatiliden malononitrillər əsasında funksional əvəzlənmiş pirimidin və piran törəmələrinin sintezi və bioloji aktivliyi" adlı məqalə "Web of Science" elmmetrik bazasında Q2 kvartil kateqoriyalı jurnallar siyahısına daxil olan (IF: 2.307) "Chemistry Select" jurnalında çap olunub.***

İşdə yeni sintez olunan maddələrin bir çox xəstəliklərin törədicisi olan enzimlərə qarşı inhibitor kimi xassələri tədqiq olunub. Dərmanların bir qrupu asetilxolinesteraz (AChE) inhibitorlarıdır ki, onlardan Altsheymer xəstəliyinə qarşı geniş istifadə olunur.

Tədqiqatlarda istifadə olunan pirimidin və piran törəmələrinin AchE, butirilxolinesteraz (BChE) və glükosidaz (AG) enzimlərinə qarşı yüksək inhibitor effekti göstərməsi müəyyən edilib. Araşdırmalarda istifadə olunan beş maddədən ikisinin (9 və 4a) anti-AchE, ikisinin (6 və 4b) anti-BchE, ikisinin (4a və 10) isə anti-AG effektləri aşkar olunub.

Beləliklə də, sınaqdan keçirilən birləşmələrin dərman maddəsi kimi potensial tətbiqə malik olması müəyyən edilib.

# BDU-nun dissertantı ABŞ-ın Massaçusets Universitetində Fulbrayt Fakültə İnkişaf Proqramında iştirak edir

*Sentyabrın 22-də Sosial elmlər və psixologiya fakültəsinin Pedaqogika kafedrasının "Təhsilin təşkili və planlaşdırılması" ixtisası üzrə dövlət sifarişli fəlsəfə doktoru proqramının dissertantı Günay Ağamalıyeva ABŞ-ın Massaçusets Universitetində universitet müəllimlərinin professional inkişafı üçün nəzərdə tutulmuş Fulbrayt Fakültə İnkişaf Proqramında iştirak edir.*




Proqramın məqsədi iştirakçıları ABŞ-da tədris proqramının inkişafına dair ən yaxşı təcrübələr və nəzəri yanaşmalarla tanış etmək, habelə iştirakçılara akademik və tədqiqat mənbələrinə ümumi baxış da daxil olmaqla bir kurikulumun necə inkişaf etdirilməsi barədə konkret strategiyalar göstərməkdir.

Qeyd edək ki, Günay Ağamalıyeva Fulbrayt Fakültə İnkişaf Proqramının ən gənc iştirakçısıdır.

# BDU könüllüləri ilə görüş

*Sentyabrın 26-da BDU-nun rektoru Elçin Babayev Universitetin ictimai həyatında fəal iştirak edən könüllülərlə görüşüb.*



Rektor ölkəmizdə son illər könüllülük hərəkatının geniş vüsət aldığını, BDU könüllülərinin bu prosesdə fəal iştirak etdiklərini vurğulayıb.

Rektor qeyd edib ki, BDU könüllüləri "ASAN Xidmət", "Regional İnkişaf" İctimai Birliyi, Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq (IDEA) İctimai Birliyi və digər təşkilatların könüllüləri ilə sıx əməkdaşlıq edir.

Rektor BDU-nun struktur bölmələrində və fakültələrində çalışan könüllü tələbələrin fəaliyyətini yüksək qiymətləndirib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, gəncləri yeni təşəbbüslər irəli sürməyə çağırıb. Qeyd edib ki, BDU könüllülərinin bir hissəsi Universitetin inzibati şöbələrinə təhkim olunub və təcrübə əldə ediblər. Onlardan bəziləri artıq Universitetdə işlə təmin olunub. Bu, digər könüllülər üçün də stimuldur.

Qeyd edək ki, "BDU könüllüləri" qrupu 2020-ci ildə yaradılıb. Hazırda qrupun 730-dan artıq üzvü var.

# BDU könüllüləri sahilyanı təmizlik aksiyasında iştirak ediblər

*Sentyabrın 26-da Ekologiya və torpaqşünaslıq fakültəsinin könüllüləri Beynəlxalq Sahilyanı Təmizlik Günü ilə əlaqədar IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Gənclər Fondu və "Təmiz Şəhər" ASC-nin birgə təşkilatçılığı ilə keçirilən ənənəvi sahilyanı təmizlik aksiyasında iştirak ediblər.*

*Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları çimərliklərdən xeyli tullantı toplayıb və çeşidləyiblər.*

Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları çimərliklərdən xeyli tullantı toplayıb və çeşidləyiblər. Tullantıların toplanması prosesini daha effektiv təşkil etmək məqsədilə əraziyə xüsusi texnika da cəlb olunub.

Daha sonra bütün tullantılar Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna təhvil verilib. Tədbirin əsas məqsədi sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dənizətrafı mühitin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.





# BDU-nun dilçi alimləri XVII Uluslararası Böyük Türk Dili Qurultayında iştirak ediblər

*26-27 sentyabr 2022-ci il tarixlərində İhsan Doğramacı adına Ərbil Vəqfi, Türkiyənin Özbəkistandakı səfirliyi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Yunus Əmrə İnstitutu, Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsi və Əlişir Nəvai adına Daşkənd Dövlət Universitetinin birgə təşkilatçılığı ilə XVII Uluslararası Böyük Türk Dili Qurultayı keçirilib. Dünyanın müxtəlif ölkələrindən tanınmış dilçi alimlərin və türkoloqların qatıldığı mötəbər beynəlxalq tədbirdə türk dillərinin tarixi, etimologiyası və onomastikası, dialektologiya, türk lüğətçiliyi, dil əlaqələri və dil siyasəti, türk xalqları ədəbiyyatına dair məruzələr dinlənilib.*

"Zoom" platforması üzərindən təşkil olunmuş qurultayda Bakı Dövlət Universitetini Filologiya fakültəsinin dilçi alimləri uğurla təmsil ediblər. BDU-nun Türkologiya kafedrasının əməkdaşları - professor Ramiz Əskər "Türkçe ve Hamse Geleneği", dosent Qızılgül Abdullayeva "On yedinci Yüzyıl Azerbaycan Edebi Dilinde Emir ve Israrın İntegrallik, Diferensiyallik ve Yenilikle Görünümü", dosent İslam Vəliyev "Mustafa Daririn "Yusuf ve Züleyha Mesnevisinde Arkaizmler (Türkiye Türkçesi ile Ortak Özellikler)"; Azərbaycan dilçiliyi kafedrasının əməkdaşları - professor Zemfira Şahbazova "Azerbaycan ve Türkiye Türkçelerinde Ünlemlerin Lengüistik Özelliklerine Dair Görüşler", filologiya elmləri doktoru, dosent Reyhan Həbibli "Karabağ?ın Metaforik Toponimleri", dosent İsmayıl Məmmədov "Divanü Lugat-it Türk Eserinin Azerbaycan'da Tetkiki Tarihinden"; Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti Rəhilə Quliyeva "Bahtiyar Vahabzade Şiirlerinin Söz Varlığı", Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının dosenti Samirə Mərdanova "Kul Alin?in "Kıssa-i Yusuf" Eserinde Aile - Günlük Konuşma Üslubu Unsurları", "Türkoloji araşdırmalar" elmi tədqiqat laboratoriyasının elmi işçiləri - filologiya üzrə fəlsəfə doktoru Ramil Bayramov "Azerbaycan Dilciliğinde Fiilin Tarz Kategorisi İle İlgili Görüşler" və Pərvin Eyvazov "Azerbaycan Edebi Dili Tarihinin Bekir Çobanzade Tarafından Dönemsel Açıdan Sınıflandırılması" adlı məruzələrlə çıxış ediblər. ?

Qurultayda Ramiz Əskər, Qızılgül Abdullayeva, Rəhilə Quliyeva və Samirə Mərdanova bölmə iclaslarına sədrlik ediblər. Seksiyalarda alimlərimizin çıxışları maraqla qarşılanıb və məruzələr ətrafında maraqlı müzakirələr aparılıb.

# Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün...

*27 sentyabr qüdrətli Azərbaycanımızın tarixinin ən şanlı, qürurverici səhifəsinin yazılmağa başladığı gündür - Vətən müharibəsinin başlanmasından iki il ötür.*




İkinci Qarabağ müharibəsi əhali arasında Vətən müharibəsi və “Dəmir Yumruq” əməliyyatı kimi qəbul edilərək Azərbaycan tarixinə ən parlaq səhifə kimi yazıldı. 44 gün davam edən müharibə zamanı Azərbaycan xalqı dünya tarixində misli görünməmiş, sözün əsl mənasında, qeyri-adi birlik və fədakarlıq göstərərək ölkə başçısının ətrafında sıx birləşdi. Azərbaycan əsgəri yüksək rəşadət nümayiş etdirib dünya hərb tarixində yeni nailiyyətlərə imza atdı. Məhz peşəkarlıq Azərbaycan ordusunun az itki ilə qısa müddətdə parlaq qələbə qazanmasına şərait yaratdı.

30 ildir qisas hissi ilə yaşayan, hər an son döyüş əmrini gözləyən rəşadətli Ordumuz Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə əzmlə döyüşə atıldı. Taleyüklü Vətən müharibəsi günlərində qədirbilən xalqımızın hər zaman olduğu kimi Prezident İlham Əliyevin ətrafında yumruq kimi sıx birləşməsi Zəfərə gedən yolumuzun uzaqda olmadığının müjdəsini verirdi.

Torpaqlarımız uğrunda canlarından keçmiş bütün şəhidlərimizin, eləcə də Bakı Dövlət Universitetinin tələbəsi və məzunu olan şəhidlərimizin əziz və unudulmaz xatirəsi hər zaman qəlbimizdə yaşayacaq.

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 02 dekabr 2020-ci il tarixli sərəncamı ilə Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Anım Günü kimi qeyd edilir.

Allah Sizə rəhmət eləsin, yeriniz behişt olsun, əziz şəhidlərimiz! Bu günlərimiz üçün Sizlərə borcluyuq.

Azərbaycanın şanlı bayrağı işğaldan azad edilmiş torpaqlarda əbədi dalğalanacaq!

# Tarix fakültəsində şəhidlərimizin xatirəsi anılıb



***Sentyabrın 26-da Tarix fakültəsində 27 sentyabr - Anım Gününə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Tarix fakültəsinin dekanı İbrahim Zeynalov Vətən müharibəsinin Azərbaycan tarixinin ən şanlı və qürurlu səhifəsi olduğunu bildirib, O, mənfur ermənilər tərəfindən torpaqlarımızın işğalı, Ordumuzun keçdiyi inkişaf yolu barədə danışıb. Azərbaycanın hər zaman münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu deyən İbrahim Zeynalov Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə yüksək peşəkarlıqla həyata keçirdiyi xarici siyasət kursundan danışıb. O, Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müqəddəs ata vəsiyyətini yerinə yetirdiyini, şanlı Zəfərin qazanılmasında xalq-iqtidar birliyinin əvəzsiz rol oynadığını vurğulayıb.

Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri, dosent Mehman Abdullayev bildirib ki, ermənilərin tarixi başdan-başa yalanlardan ibarətdir. O, tarixi Zəfərin canlı şahidi olan xalqımızın çox şanslı olduğunu, doğma Qarabağımızda üçrəngli bayrağımızın əbədi dalğalanacağını qeyd edib.

Tarix fakültəsinin IV kurs tələbəsi İsmayıl Məmmədli, II kurs tələbəsi Aytən Əhmədova Vətən müharibəsinin tariximizdə silinməz iz qoyduğunu söyləyib, şanlı Zəfəri canı, qanı bahasına qazanan şəhidlərimiz haqqında məlumat veriblər.

Daha sonra Tarix fakültəsinin tələbələri Nəbi Hüseynov Ehtiram Qurbanov Vətən müharibəsinə həsr etdikləri şeirlərini səsləndiriblər.

Sonda ordumuzun qəhrəmanlığına həsr olunmuş videoçarx nümayiş etdirilib.

# BDU-nun alimləri antifungal təsirə malik yeni birləşmə hazırlayıblar

***Bakı Dövlət Universitetinin Sənaye kimyası və Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyalarının əməkdaşları Ələkbər Hüseynzadə, Hacı Vahid Axundzadə, Ülviyyə Həsənova və Qönçə Eyvazovanın "Salisilaldehidi əsasında sintez olunmuş dihidropirimidinlərin kristal quruluşu, Hirşfeld səth analizi, "in silico" və antifungal tədqiqatları" adlı məqaləsi "Web of Science" bazasında Q3 kvartil kateqoriyalı jurnallar siyahısına daxil olan "Journal of Iranian Chemical Society" jurnalında dərc olunub.***

Məqalə salisilaldehidi törəmələri əsasında Bijinelli reaksiyası şəraitində sintez olunmuş dihidropirimidininlərin quruluşu və bioloji aktivliklərinin tədqiqinə həsr olunub. Birləşmələrin quruluşu nüvə maqnit rezonans və kütlə-spektroskopiya üsulları ilə tədqiq edilib. Alınmış monokristal birləşmələrin rentgen şüalarının difraksiyası üsulu və Hirşfeld səth analizi metodları ilə tədqiqi əsasında kristal quruluşda müxtəlif qeyri-kovalent əlaqələrin mövcudluğu müəyyənləşib. Bioloji aktiv birləşmə Candida albicans və Aspergillus niger göbələk növlərinə qarşı tədqiq edilib və müsbət nəticələr əldə olunub. Birləşmələrin aktivliyi məlum antibiotikin (Flukonazol) aktivliyi ilə də müqayisə edilib və sintez olunan birləşmənin qeyd olunan antibiotiklə müqayisədə daha aktiv olduğu müəyyənləşdirilib. Bioloji aktivliyi izah etmək üçün "in silico" tədqiqatlar da yerinə yetirilib və aktiv mərkəzlər müəyyən olunub.

# Məhəmməd Şərif: "BDU ilə ICESCO-nun əməkdaşlıq perspektivləri parlaqdır"

***İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş katibinin elm və texnologiya üzrə müşaviri Məhəmməd Şərif Bakı Dövlət Universitetində akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illiyinə həsr olunmuş "Nəzəri və təcrübi kimyanın müasir problemləri" mövzusunda keçirilən Beynəlxalq elmi konfransla bağlı təəssüratlarını bölüşüb.***

O qeyd edib ki, konfransda kimya elminin müxtəlif aspektlərinə və aktual problemlərinin həllinə dair məruzələr dinlənilir: "Konfrans çərçivəsində müxtəlif ölkələrdən olan alimlərlə təcrübə mübadiləsi aparılacaq. Hər şey möhtəşəmdir. Konfransın kimya elminin inkişafına böyük töhfələr verəcəyinə əminəm".

Məhəmməd Şərif vurğulayıb ki, BDU ilə ICESCO arasında bir çox sahələrdə uğurlu əməkdaşlıq var. BDU-da elmi texnologiya əsaslı ICESCO-nun Biotibbi materiallar kafedrası fəaliyyət göstərir. Həmçinin, ICESCO-nun "Cihazqayırma və tərsinə mühəndisliyin əsasları" adlı beynəlxalq seminarı da BDU-da keçirilib. BDU ilə ICESCO-nun gələcək əməkdaşlıq perspektivləri də parlaqdır.

# Kvant elminin və texnologiyalarının müasir trendlərinə həsr olunan beynəlxalq yay məktəbi davam edir



***Sentyabrın 27-də BDU və "VolkswagenStiftung" Fondunun birgə təşkilatçılığı ilə "Kvant elminin və texnologiyasının müasir trendləri: kvant materiallarından kvant informasiyasına qədər" mövzusunda beynəlxalq yay məktəbi davam edir.***

Yay məktəbində Özbəkistanın Turin Politexnik Universitetinin professoru Davron Matrasulov, Almaniyanın Dortmund Texniki Universitetinin professoru Dieter Suter, İtaliyanın Abdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzinin professoru Rosario Fazion, BDU-nun dosenti Şahmərdan Əmirovun müxtəlif mövzularında məruzələri dinlənilib.

Yay məktəbinin iştirakçıları, eyni zamanda, Bakının tarixi yerləri ilə tanış olublar. Xarici iştirakçılar Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib, Qoşa qala qapısı, Qız Qalası, Şirvanşahlar sarayı, Heydər Əliyev Mərkəzi ilə tanış olublar.

Beynəlxalq Yay Məktəbinin IV günü Portuqaliyanın Lissabon Universitetinin professoru Yasser Omar, Almaniyanın Düsseldorf Universitetinin professoru Dagmar Bruss, Fizika İnstitutunun elmi işçisi Elvin Əlizadə, Ankara Universitetinin professoru Ali Gencer, Özbəkistanın Yeoju Daşkənd Texniki İnstitutunun professoru Jambul Yusupov, Gürcüstanın İlia Dövlət Universitetinin professoru Şota Qaruçava müxtəlif mövzularda məruzə ilə çıxış ediblər.

Qeyd edək ki, yay məktəbində ümumilikdə 40-dək məruzə dinləniləcək. Sonda iştirakçıların əldə etdiyi biliklərin qiymətləndirilməsi məqsədilə müsabiqə keçiriləcək. Məktəbi uğurla bitirən iştirakçılara sertifikat veriləcək.

# BDU-da tələbələr üçün "Həyat sığortası-praktiki kazuslarla" mövzusunda təlim



***Sentyabrın 30-da BDU və "Paşa Həyat Sığorta" ASC arasında imzalanmış əməkdaşlıq haqqında memoranduma uyğun olaraq BDU-da tələbələr üçün "Həyat sığortası - praktiki kazuslarla" mövzusunda növbəti təlim keçirilib.***

Tədbiri giriş sözü ilə açan BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov sektorun fəaliyyəti, tələbələr üçün təşkil ediləcək təlim və seminarlar haqqında məlumat verib. Sığorta şirkətlərinin inkişafının əmək bazarında yaratdığı rəqabətliliyi qeyd edən İlkin Şərifov tələbələri təlimdə aktiv iştirak etməyə səsləyib.

"Paşa Həyat Sığorta ASC"nin Hüquq departamentinin direktoru, BDU-nun məzunu Səbuhi Göyüşov isə tələbələri sığortanın tarixi, mövcud vəziyyəti haqqında məlumatlandırıb. Əmək bazarında gündəlik baş verən praktik kazusları qeyd edən təlimçi iştirakçıların mövzu ətrafında çoxsaylı suallarını cavablandırıb.

Sonda təlimdə fəal iştirak edən tələbələrə şirkət tərəfindən həvəsləndirici hədiyyələr təqdim edilib.

# BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə Anım Günü qeyd olunub



***BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə 27 sentyabr - Anım Günü ilə bağlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Kollecin direktoru Səhər Orucova 2020-ci il sentyabrın 27-də ermənilərin ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ?Ordumuzun işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda apardığı Vətən müharibəsi və həmin dövrdə xalqımızın göstərdiyi əzmkarlıqdan söz açıb. Səhər Orucova kollecin şəhid məzunları Novruz Həsənov, Elgün Muradov, Nicat Səmədov haqqında danışaraq onların timsalında bütün şəhidlərimizin xalqımızın qəlbində əbədi yaşayacağını bildirib.

Gənclərin Çağırışaqədərki Hazırlığı rəhbəri, ehtiyatda olan polkovnik-leytenant Pərviz Hüseynov isə qeyd edib ki, Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib, 2900 nəfərdən artıq hərbi qulluqçumuz həlak olub, minlərlə ?hərbçimiz yaralanaraq sağlamlığını itirib.

Kollecin şəhid məzunu Nicat Səmədovun anası Pərvanə Səmədova oğlunun uşaqlığından, tələbəlik illərindən, arzu-istəklərindən, gələcək planlardan söz açaraq onunla fəxr etdiyini diqqətə çatdırıb. Yaradıcılıq Mərkəzinin sədri Kamran Eyubov şəhidlər haqqında şeir səsləndirib.

Tədbirdən sonra kollecin direktoru Səhər Orucova şəhid Nicat Səmədovun ailəsi ilə görüşüb, onların problem və təkliflərini dinləyib.

# Hüquq fakültəsində Anım Günü qeyd edilib



***Sentyabrın 27-də Hüquq fakültəsində 27 sentyabr - Anım Gününə həsr edilmiş tədbir keçirilib. Tədbirdə Milli Məclisin deputatları Soltan Məmmədov və Bəhruz Məhərrəmov, Hüquq fakültəsinin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.***

Hüquq fakültənin dekanı Zaur Əliyev bildirib ki, Vətən müharibəsi Azərbaycan tarixinin ən şanlı səhifələrindən biridir. Müharibənin ilk günündən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun başladığı əks-hücum əməliyyatı nəticəsində işğal altında olan ərazilər, strateji yüksəkliklər azad edildi. Ön cəbhədə əsgər və zabitlərimiz, arxa cəbhədə mülki insanlarımız - bütövlükdə xalqımız bir yumruq kimi birləşərək, düşmənə sarsıdıcı zərbələr endirdi. Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq günahsız mülki insanları hədəfə aldı, Gəncə, Bərdə, Tərtər kimi şəhərlərimizdə müharibə cinayətləri törətdi.

Zaur Əliyev bildirib ki, Hüquq fakültəsinin 50-dən çox tələbə və məzunu Vətən müharibəsində könüllü kimi iştirak edib, bir nəfər məzunu - Ceyhun Şalıyev isə qəhrəmancasına vuruşaraq şəhid olub. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsinə daim yüksək ehtiram göstərir, onların xatirəsinin əbədiləşdirilməsini, eləcə də qazilərimizin müalicəsini və sağlamlıqlarının bərpasını diqqət mərkəzində saxlayırlar. Heydər Əliyev Fondunun bu istiqamətdə genişmiqyaslı tədbirlər və layihələr həyata keçirdiyi diqqətə çatdırılıb.

Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəisi, Milli Məclisin deputatı Soltan Məmmədov çıxış edərək, 44 günlük Vətən müharibəsində şanlı tarix yazan, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşən xalqımızın mərd oğullarından bəhs edib. O, Vətənin inkişafı naminə gənclərin öz sahələrində uğur qazanmağının, inkişafının vacibliyini vurğulayıb, gənclərə dövlət qayğısından danışıb. Soltan Məmmədov Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr barədə məlumat verib, Fondun gənclərin inkişafına hər zaman dəstək olduğunu qeyd edib.

Milli Məclisinin deputatı, Hüquq fakültəsinin Dəniz və enerji hüququ mərkəzinin rəhbəri Bəhruz Məhərrəmov tələbələrə Vətən müharibəsində əldə olunmuş qələbənin eyni zamanda uğurlu bir siyasətin nəticəsi olduğunu bildirib. O, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq Azərbaycanın regionda ali hüquq dəyərlərinə, beynəlxalq hüququn prinsip və normalarına riayət edən dövlət kimi tanındığını xüsusilə vurğulayıb.

BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müdiri, professor Əmir Əliyev isə erməni vandalizmindən bəhs edib, müxtəlif ölkələrdə Azərbaycan səfirliklərinə hücumları pisləyib, beynəlxalq hüququn norma və prinsiplərinin yenə Ermənistan tərəfindən məhəl qoyulmadan pozulduğunu bildirib. O qeyd edib ki, bütün bunlara baxmayaraq, dövlətimiz elmi və hüquqi dəlillərə əsaslanan sivil mübarizəni davam etdirir və Azərbaycan həqiqətlərini dünyaya çatdırır.

# "Qarabağ mühazirələri" adlı yeni layihəyə başlanılıb



***Sentyabrın 29-da BDU-nun könüllülərinin təşəbbüsü ilə "Qarabağ mühazirələri" adlı yeni layihəyə başlanılıb.***

Layihənin məqsədi gənclərimizin tariximizə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsi ilə bağlı məlumatlarını daha da zənginləşdirmək, onlarda vətənpərvərlik hisslərini gücləndirməkdir.

Layihənin ilk qonağı millət vəkili, I Qarabağ müharibəsi veteranı, BDU-nun İctimai Nəzarət Şurasının sədri Arzu Nağıyev olub.

Arzu Nağıyev 44 günlük Vətən müharibəsinin tarixi əhəmiyyəti barədə gənclərə məlumat verib, bu qələbənin Prezident-xalq-ordu birliyinin məntiqi nəticəsi olduğunu deyib. O bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz qısa müddət ərzində uydurma erməni mifini darmadağın edib, 30 ildən çox müddətdə işğalda qalan torpaqlarımızda üçrəngli bayraqlarımızı əbədi ucaldıb. Arzu Nağıyev müharibənin yalnız ön cəbhədə deyil, informasiya cəbhəsində də getdiyini diqqətə çatdırıb. Vurğulayıb ki, Prezident İlham Əliyevin Vətən müharibəsi dövründə xarici mediaya verdiyi müsahibələr Azərbaycanın haqq səsini və haqlı mövqeyini dünyaya bəyan edib: "Müzəffər Ali Baş Komandanın qələbə tvitləri xalqımızı, ordumuzu daha da ruhlandırırdı və tarixi Zəfəri yaxınlaşdırırdı".

Arzu Nağıyev daha sonra doğma Qarabağımızda aparılan sürətli yenidənqurma və bərpa işləri ilə bağlı tələbə könüllülərə məlumat verib. Qeyd edib ki, dövlətçiliyimizin qorunmasında, haqq səsimizin dünyaya çatdırılmasında Azərbaycan gəncliyinin üzərinə böyük məsuliyyət düşür. O, gəncləri yaxşı təhsil almağa, ölkəmizin mənafeyini qorumağa səsləyib.

Daha sonra Arzu Nağıyev tələbələrin çoxsaylı suallarını cavablandırıb.

# Ankara Universitetinin professoru Əli Gəncər BDU-da "Dayanıqlı inkişafda elm və texnologiyaların rolu" mövzusunda mühazirə oxuyub




***Sentyabrın 30-da Türkiyənin Ankara Universitetinin professoru, ifratkeçiricilik sahəsində dünyada tanınmış alimlərdən olan Əli Gəncər Fizika fakültəsində "Dayanıqlı inkişafda elm və texnologiyaların rolu" mövzusunda mühazirə oxuyub.***

Professor Əli Gəncər müasir dövrdə ölkələrin iqtisadi inkişafında, yüksək həyat səviyyəsinin əldə olunmasında texnologiyaların rolu və aktual problemləri barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Bildirib ki, elm, təhsil və iqtisadiyyatı əhatə edən sistemli siyasət hər bir ölkənin davamlı və dayanıqlı inkişafının başlıca təminatçısıdır. Elm və texnologiyaların ölkələrin sosial rifah və davamlı inkişafında çox mühüm rolu var. Əli Gəncər texnologiyaların daha çox inkişaf etdiyi ölkələrdə insanların orta ömür yaşının da yüksək olduğunu son 150 ilin statistik məlumatlarının təhlili əsasında göstərib. Əli Gəncər bu istiqamətdə Türkiyə və Azərbaycanda həyata keçirilən və görülməli olan işlər barədə də fikirlərini bölüşüb.

Sonra məruzə ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

# BDU Özbəkistanın daha iki universiteti ilə əməkdaşlığa başlayıb

*Bakı Dövlət Universiteti beynəlxalq əlaqələrində türkdilli ölkələrin ali təhsil müəssisələri ilə münasibətlərin qurulmasına xüsusi önəm verilir. Bu çərçivədə növbəti görüş sentyabrın 30-da Mirzə Uluqbəy adına Özbəkistan Milli Universiteti və Abdulla Qədiri adına Cizak Dövlət Pedaqoji Universiteti ilə olub.*



BDU-da Özbəkistan nümayəndə ilə heyəti ilə keçirilən görüşdə rektor Elçin Babayev bildirib ki, türkdilli ölkələr arasında münasibətlərin daha da inkişafında, xalqların yaxınlaşmasında elm-təhsil müəssisələri xüsusi rola malikdir. Elçin Babayev Azərbaycan və Özbəkistan arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini qeyd edib. O, BDU-nun Özbəkistanın ali məktəbləri ilə əməkdaşlığının iki ölkə arasında əlaqələrin inkişafına töhfə olacağına və qısa müddətdə real nəticələr verəcəyinə əminliyini bildirib.

Daha sonra BDU ilə Mirzə Uluqbəy adına Özbəkistan Milli Universiteti arasında anlaşma memorandumu imzalanıb.

Anlaşma memorandumuna əsasən, tərəflər tədris proqramlarının hazırlanması və mübadiləsi, inzibati və professor-müəllim heyətinin qısamüddətli və uzunmüddətli mübadiləsi sahələrində əməkdaşlıq edəcəklər. Akademik mübadilə proqramlarının hazırlanması, elmi tədqiqatlar sahəsində birgə əməkdaşlıq, elmi informasiya və materialların mübadiləsi də memorandumda əks olunub.

Görüşdə BDU ilə Abdulla Qədiri adına Cizak Dövlət Pedaqoji Universiteti arasında da əməkdaşlıq müqaviləsi imzalanıb.

Müqavilədə humanitar və təbiət elmləri sahəsində ortaq elmi tədqiqatların aparılması, birgə elmi seminar, ustad dərsləri, konfrans və simpoziumların keçirilməsi, elm və təhsil sahəsində birgə layihələrin hazırlanması nəzərdə tutulur.

# Özbəkistanın Turin Politexnik Universitetinin professoru BDU-da ustad dərsi keçib

*Sentyabrın 30-da BDU-da Özbəkistanın Turin Politexnik Universitetinin professoru Davron Matrasulov "Kvant elmindən kvant texnologiyalarına" (From quantum science to quantum technologies) mövzusunda BDU əməkdaşları və tədqiqatçıları üçün ustad dərsi keçib.*

Məruzəçi kvant elmi və texnologiyasının müasir inkişafı və problemlərinə toxunaraq klassik və kvant ölçüləri, hissəciyin vəziyyətinin təyini ilə bağlı klassik və kvant təsəvvürlər, onların təsvir formaları, kvant paradokslar, hərəkətin əsas tənlikləri haqqında danışıb.

Ustad dərsində kvant sensorlar, kvant metrologiyası, kriptoqrafiyası və kompüterləri, təkfotonlu kvant hesablaması, kvant informasiyalarının kvant şəbəkəsi, şəbəkədə hissəciklərin tənliklərinin kvant qrafları vasitəsi ilə ifadə olunması, həqiqi xətt üzərində şəffaf sərhəd şərtlərinin qurulması və bu kimi digər maraqlı faktlar iştirakçıların diqqətinə çatdırılıb. Qeyd olunub ki, klassik kompüterlərin milyon ildə görə biləcəyi işi kvant kompüterləri saniyələr içində edə bildiyindən kvant texnologiyası ilə yeni dövrə keçid baş verir.

Sonra Davron Matrasulov sualları cavablandırıb.



# Şərqşünaslıq fakültəsində İraq-Azərbaycan Dostluq Cəmiyyətinin sədri ilə görüş



*Sentyabrın 30-da Şərqşünaslıq fakültəsində İraq-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, İraq Respublikası Strateji Araşdırmalar Mərkəzinin direktoru, Bağdad Universitetinin təhlükəsizlik və informasiya elmləri üzrə doktoru Mutəzz Muhy Əbdülhəmid ilə görüş keçirilib.*

*Görüşdə Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, dekan müavini Tərlan Məlikov, Ərəb filologiyası kafedrasının müdiri Vüqar Qaradağlı və kafedranın əməkdaşları iştirak edib.*

Dekan Aydan Xəndan qonağa Şərqşünaslıq fakültəsinin tarixi və fəaliyyəti ilə bağlı məlumat verib, Azərbaycan-İraq əlaqələrinin inkişafında göstərdiyi fəaliyyətə görə Mutazz Muhy Əbdülhəmidə öz təşəkkürünü bildirib.

Mutazz Muhy Əbdülhəmid İraq-Azərbaycan Dostluq Cəmiyyətinin fəaliyyətindən, baş redaktoru olduğu "Sadaka" qəzetinin Azərbaycana həsr olunmuş məqalələrindən bəhs edib. Azərbaycanla bağlı yazdığı "Qarabağ münaqişəsinin tarixi" kitabını fakültəyə təqdim edən qonaq "Azərbaycan Vətən müharibəsində" və "Şuşa Azərbaycanın mirvarisidir" adlı kitablarının da nəşr ərəfəsində olduğunu bildirib.

Daha sonra Mutazz Muhy Əbdülhəmid fakültə əməkdaşlarının suallarını cavablandırıb.

# Fizika fakültəsində ikifazalı su-polimer sistemlərin ayırdetmə qabiliyyətinə dair seminar keçirilib



*Fizika fakültəsində "Su-polimer ikifazalı sistemlərin ayırdetmə qabiliyyəti" mövzusunda elmi seminar keçirilib.*

Maddə quruluşu kafedrasının müdiri, professor Eldar Məsimov eyniadlı məruzə edib. Məruzəçi bildirib ki, canlı orqanizmin əsas hissəsi su və yüksəkmolekullu birləşmələrdən ibarətdir və orqanizmdəki maddələr mübadiləsi əsasən qan vasitəsi ilə həyata keçirilir.

Su-polimer ikifazalı sistemlərin fazalarının fiziki-kimyəvi xassələri, xüsusi halda nisbi hidrofobluqları müxtəlif olduqlarından onların bioloji obyektlərin komponentlərinə həssaslıqları da müxtəlif olur. Buna görə ikifazalı su-polimer sistemləri bioloji obyektlərin (viruslar, hüceyrələr, fermentlər və s.) ayrılması, təmizlənməsi və dərman preparatlarının təmizliyinə nəzarət üçün yumşaq, asan və ucuz sistem kimi biotexnologiyada geniş istifadə olunur. Belə sistemlərdə müxtəlif maddələrin qeyri-bərabər paylanması həmin maddələrin sistemin fazalarının su mühitləri ilə hidrofob və hidrofil qarşılıqlı təsirinin müxtəliflikləri ilə əlaqədardır.

Seminarın sonunda məruzə ətrafında müzakirələr aparılıb və seminar iştirakçıları tərəfindən verilən suallar cavablandırılıb.

# BDU tələbələrinə "CV yazarkən nələrə diqqət etməliyik?" mövzusunda təlim keçirilib

*Bakı Dövlət Universitetinin Karyera və məzunlarla əlaqə sektoru Universitetin Tələbə Gənclər Təşkilatı ilə birlikdə tələbələr üçün "CV yazarkən nələrə diqqət etməliyik?" mövzusunda təlim keçirib.*

Təlimi giriş sözü ilə açan BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov iştirakçılara sektorun fəaliyyəti, tələbələr üçün təşkil ediləcək təlim və seminarlar haqqında məlumat verib.

İşə qəbul mərhələsində namizədin CV-sinin çox önəmli olduğunu qeyd edən İlkin Şərifov düzgün edilmiş müraciətin işin qazanılması üçün əsas şərtlərdən olduğunu deyib. Bildirib ki, əksər hallarda namizədlərin CV-ni düzgün yazmadığı və göndərmədiyi müşahidə olunur. Sonra İlkin Şərifov tələbələri uğurlu CV yazmağın qaydaları ilə tanış edib. Tədbirin sonunda iştirakçıların mövzu ilə bağlı sualları cavablandırılıb.

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI - 140 İL

***Bu il 140 illiyini qeyd etdiyimiz İrəvan Müəllimlər Seminariyası təhsilimizin, milli-mənəvi dirçəlişimizin inkişafına böyük töhfə vermişdir. Seminariyanın açılışı, fəaliyyəti, sonrakı inkişafı müəyyən tarixi şəraitlə, ictimai-siyasi mühitlə bağlıdır. İlk əvvəl bu məsələni qısaca nəzərdən keçirək.***

1800-cü ilin əvvəllərinə qədər Azərbaycan torpaqlarında müstəqil xanlıqlar mövcud idi. Məs., Naxçıvan, Qarabağ, İrəvan, Lənkəran və b. 1801-ci ildə rus imperatoru I Pavelin vəfatından sonra taxta çıxan I Aleksandrın dövründə Rus çarizmi cənub torpaqlarını - Azərbaycanı və Gürcüstanı zəbt etmək, Rusiya tərkibinə qatmaq üçün böyük hərəkata başladı.

1805-ci ildə Şimali Azərbaycan torpaqlarının böyük bir qismi Rusiya tərəfindən zəbt edildi (Naxçıvan, İrəvan və Lənkəran xanlıqlarından başqa). 1812-ci ildə I Rusiya-İran müharibəsi başladı və bir il davam etdi. 12 oktyabr 1813-cü ildə Gülüstan sülh müqaviləsi ilə müharibə başa çatdı. Müqaviləyə görə, Araz çayının şimal hissəsi Rusiyanın, cənub hissəsi isə İranın tabeliyinə keçdi.

14 il sonra - 1826-cı ilin iyul ayında II Rusiya-İran müharibəsi başlayır və iki ildən sonra 2 fevral 1828-ci ildə Türkmənçay sülh müqaviləsi ilə başa çatır. Müqaviləyə görə, Naxçıvan və İrəvan xanlıqları da Rusiya tərkibinə qatılır. Təəccüblüdür ki, nə İran, nə də Rusiya müharibə zamanı qaçqın düşən azərbaycanlıları öz doğma el-obalarına geri dönməyə icazə vermirlər.

Türkmənçay müqaviləsindən sonra İran, İraq, Suriya və digər ərazilərdən ermənilərin Qarabağa, Naxçıvan və İrəvana kütləvi şəkildə köçürülməsi başlanır. 1828-ci il martın 21-də Novruz bayramı günü Çar hökuməti Azərbaycanın Naxçıvan və İrəvan torpaqlarında "erməni vilayəti" yaratmaq haqqında fərman verdi. Bununla da ermənilərin



azərbaycanlılara qarşı vəhşiliklərinin, xalqımızın başına gətirilən faciələrin təməli qoyulmuş oldu.

Vətənimizin və xalqımızın bölünməsi, torpaqlarımızın işğalı ilə nəticələnən ədalətsizlikdən, tarixi haqsızlıqlardan bir əsrdən çox vaxt keçməsinə baxmayaraq ermənilərin vəhşilikləri bu gün də davam etməkdədir, hətta beynəlxalq arenaya çıxmaqdadır. Lakin onlar unutmasın ki, iki il öncə 44 günlük Vətən müharibəsində xalqımız bir yumruq kimi birləşərək Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi altında rəşadətli ordumuz azğın düşmənə sarsıdıcı zərbə endirdi, möhtəşəm qələbə çaldı, doğma torpaqlarımızı işğaldan azad etdi. Bu möhtəşəm qələbə təkcə işğalçı Ermənistanın yox, həm də onun havadarlarının üzərində tarixi qələbə idi. Bu böyük, şanlı Zəfər xalqımızın sarsılmaz birliyinin, vətənpərvərliyinin, qalib ordumuzun Müzəffər Sərkərdəsi, Azərbaycan Prezidenti cənab İlham Əliyevin hərbi-siyasi, diplomatik, müdrik siyasətinin təntənəsi idi! Həm də tarix boyu torpaq iddiasına düşən azğın düşmənə və onun havadarlarına ciddi bir xəbərdarlıq, mesaj oldu.

Azərbaycan torpaqlarına ermənləri kütləvi şəkildə köçürməkdə Rusiya və İranın məqsədi nə idi? Əsas məqsəd Azərbaycan torpaqlarını zəbt etmək, təbii sərvətlərimizi mənimsəmək idi. Digər məqsəd isə Azərbaycanda, xüsusən tarixi torpağımız olan İrəvanda, habelə Naxçıvanda erməni dövləti yaratmaq, bununla da Osmanlı imperiyasına, Türkiyəyə qarşı qoruyucu sədd (plasdarm) çəkməkdən ibarət olmuşdur.

Həm də təhsil yolu ilə yerli xalqları ruslaşdırmaq, itaətdə saxlamaq, çarizmin hökmranlığını möhkəmlətmək lazım idi. Bunun üçün mollaxanalarda verilən dini təhsili rus dili və rus ənənələrinə əsaslanan dünyəvi təhsillə əvəz etmək istəyirdilər.

XIX əsrdə Cənubi Qafqazda baş verən siyasi proseslər müxtəlif sahələrdə olduğu kimi, təhsil və məktəb sahəsində də yeni meyllərin yaranmasına səbəb oldu. Ənənəvi təlim müəssisəsi kimi fəaliyyət göstərən mollaxana və mədrəsələr getdikcə tənəzzülə uğrayır, öz yerini dünyəvi məktəblərə verməyə məcbur olurdu. XIX əsrin əvvəllərində Şimali Azərbaycan Rusiyanın tərkibinə daxil edildikdən sonra yeni tipli məktəblər - qəza məktəbləri, rus-tatar məktəbləri açılmağa başladı. Bu hal əzəli Azərbaycan torpağı olan İrəvan xanlığında da özünü göstərmişdir. İrəvanda qəza məktəbləri və gimnaziya ilə yanaşı yeni üsullu məktəblər də açıldı (Mirzə Kazım Əsgərzadə, Mirzə Kazım Rüşdiyyə). Quberniyada ildən-ilə ibtidai məktəblərin açılması bu məktəblərdə dərs deyə bilən müəllimlərin hazırlanmasına böyük ehtiyac yaratmışdı. İrəvan Müəllimlər Seminariyası bu ehtiyacdan yarandı və 1881-ci il noyabrın 8-də fəaliyyətə başladı.

İrəvan Müəllimlər Seminariyasında təhsilin məzmunu yeni əsasda qurulur, dünyəvi təhsil verən dərslər geniş yer tuturdu: rus dili, hesab, həndəsə, coğrafiya, tarix, biologiya, Azərbaycan şöbəsində tatar (Azərbaycan dili) tədris olunurdu. Seminariyanın nəzdində yeni tipli hazırlıq sinfi və nümunəvi ibtidai məktəb fəaliyyət göstərirdi. Tələbələr pedaqoji təcrübəni həmin məktəbdə keçir, bacarıq və vərdişlərə yiyələnirdilər.

İrəvan Müəllimlər Seminariyasında təlimin yeni əsaslarda təşkili, yeni pedaqoji ideya və metodların tətbiqi, pedaqoji prosesə yaradıcı yanaşma, tələbələrin tədqiqat işlərinə cəlb edilməsi geniş yer tuturdu. Bu sahədə Qori Müəllimlər Seminariyasının və onun məzunlarının böyük rolu olmuşdur. Qori Seminariyası məzunları (F.Köçərli, R.Əfəndiyev, C.Məmmədquluzadə, Ü.Hacıbəyli, N.Nərimanov və b.) yüksək hazırlıqlı müəllim, maarifçi-ziyalılar olaraq Azərbaycanda, o cümlədən əzəli torpağımız olan İrəvan quberniyasında müəllimlik etmiş, ənənəvi dini təhsildən fərqli olaraq yeni pedaqoji ideyalara, metod və prinsiplərə uyğun dünyəvi məzmunda təlim keçmiş, habelə qızların təhsilə cəlb edilməsi, xalqın savadlanması istiqamətində böyük maarifçilik və əməli pedaqoji iş aparmışlar. Bu o qədər də asan olmamışdır; köhnəliklə, avamlıqla, eləcə də erməni təxribatı, terroru, vəhşiliyi ilə mübarizə şəraitində keçmişdir. 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə səbəbindən İrəvan Müəllimlər Seminariyası fəaliyyətini dayandırmış, müəllim və tələbələrin bir qismi amansızlıqla qətlə yetirilmiş, sağ qalanlar isə doğma yurdlarını tərk edərək Türkiyəyə və Azərbaycana pənah aparmışlar. Çar Rusiyasının bilavasitə dəstəyi ilə təsis edilən İrəvan quberniyasının əsasında ilk erməni dövləti (Ararat) yaradıldı. Bu torpağın qədim sakinləri olan azərbaycanlılar isə öz vətənlərində azsaylı xalqların birinə çevrildilər.

İrəvan Müəllimlər Seminariyası 37 illik fəaliyyəti dövründə (1881-1918-ci illər) Azərbaycan təhsilinə, elminə, mədəniyyət və incəsənətinə 100-lərlə ziyalı, maarif fədaisi, alim, dövlət xadimləri yetişdirmişdir. Onların sırasında görkəmli elm və dövlət xadimi Əziz Əliyev, böyük bir nəslin nümayəndələri - tanınmış ictimai və elm xadimləri: akad. Mustafa bəy Topçubaşov, Əlimərdan bəy Topçubaşov, Mirzə Cəfər Topçubaşov, İbrahim Topçubaşov, eləcə də görkəmli bəstəkar Səid Rüstəmov, ədəbiyyatşünas alim, akademik Heydər Hüseynov, tanınmış dövlət xadimi Həsən Seyidov, məşhur ədəbiyyatşünas alim, akad. Cəfər Xəndan, şair Əhməd Cəmil, ədəbiyyatşünas alim, prof. Mirəli Seyidov, məşhur xalçaçı rəssam Kamil Əliyev və b. göstərmək olar.

1988-ci ildə Qarabağda ermənilərin separatçılarının növbəti dəfə baş qaldırması, Ermənistanda azərbaycanlıların kütləvi şəkildə deportasiya olunması və bununla da zəngin ənənəyə malik olan Azərbaycanlı təhsil ocaqlarının birdəfəlik bağlanması ilə nəticələndi.

140 il əvvəl qədim Azərbaycan torpağı olan İrəvanda fəaliyyətə başlamış Müəllimlər Seminariyası şərəfli yol keçmiş, təhsilimizin, maarif və mədəniyyətimizin inkişafında mühüm rol oynamışdır.

***Məcid İsmixanov***
*Pedaqogika kafedrasının professoru*

# Mexanika-riyaziyyat fakültəsində Vətən müharibəsi iştirakçıları ilə görüş

***Mexanika-riyaziyyat fakültəsində Vətən müharibəsi iştirakçıları ilə görüş keçirilib.***

Tədbirdə əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi anılıb.

Fakültənin dekanı Ziyatxan Əliyev Universitetin şəhid məzun və tələbələrinin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin əhəmiyyətindən danışıb. O, şəhid ailələri və müharibə iştirakçılarının dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu qeyd edib.

İdarəetmə nəzəriyyəsinin riyazi üsulları kafedrasının müdiri Hamlet Quliyev torpaqlarımızın düşməndən azad edilməsində əsl qəhrəmanlıq göstərən şəhidlərimizin xatirəsinə və



müharibə iştirakçılarına öz ehtiramını bildirib. Onların 30 ilə yaxın işğal altında olan torpaqlarımızın 44 gün ərzində yağı düşməndən azad edilməsində əsl vətənpərvərlik, böyük fədakarlıq göstərdiklərini vurğulayıb.

Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrasının müdiri Əli Əhmədov, Cəbr və həndəsə kafedrasının müəllimi, Vətən müharibəsi iştirakçısı Fərid Əsədli çıxış edərək Vətən müharibəsində qazandığımız şanlı qələbədən danışıblar. Çıxış edənlər Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun şanlı Zəfərinin tariximizə qızıl hərflərlə yazıldığını vurğulayıblar. Vətən müharibəsi iştirakçıları - fakültənin məzunu Pərvin Arslan, tələbələri Pərviz Bilişzadə, Rəhman Qasımov, Mirvahid Vahidli keçdikləri döyüş yolundan bəhs ediblər. Tədbirdə Vətən müharibəsində qazandığımız şanlı Qələbəmizə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Sonda fakültənin I kurs tələbəsi Murad Muradov və III kurs tələbəsi Fidan Paşayeva fakültə tələbələrinin adından çıxış ediblər.

# BDU tələbələri üçün daha bir imkan



***Bakı Dövlət Universitetinin inkişaf strategiyasının əsas hədəflərindən biri də "Riyaziyyat və kompüter elmləri", "Fizika və kosmos elmləri", "Kimya və materialşünaslıq", "Yer elmləri və ətraf mühit", "Biologiya və həyat elmləri" kimi təbiət və dəqiq elmlər sahəsində 5 prioritet istiqamət üzrə elmi-tədqiqatların səviyyəsinin yüksəldilməsi, beynəlxalq əməkdaşlığın gücləndirilməsidir. Bu məqsədlə, BDU-da mütəmadi olaraq təhsilin bütün səviyyələri (bakalavriat, magistratura və doktorantura) üzrə tədris proqramları sənaye və biznes müəssisələrinin mütəxəssisləri ilə birgə hazırlanır və yenilənir.*** Müxtəlif qurumlardan olan mütəxəssislər tədrisə və elmi fəaliyyətə cəlb olunur, ustad dərsləri, elmi seminarlar təşkil olunur, müxtəlif layihələr həyata keçirilir.

Belə mühüm layihələrdən biri də hal-hazırda BDU-da Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilən "Code for Future" layihəsidir. 2022/2023-cü tədris ilindən etibarən bu layihəyə "DevEducation" şirkəti də qoşulur. Layihə çərçivəsində BDU-nun müvafiq ixtisaslar üzrə müsabiqə yolu ilə seçilmiş tələbələrinə müasir kompüterlərlə təchiz olunmuş auditoriyalarda proqramlaşdırma, sistem administratorluğu və şəbəkə administratorluğu üzrə təhsil almaq üçün ən müasir şərait yaradılıb. Layihədə BDU-nun III-IV kurs tələbələri iştirak edəcəklər. Təlimlər sentyabrın 15-dən başlayacaq.

# 2022-2023-cü tədris ilində BDU-nun SABAH qruplarında 9 ixtisas üzrə 823 tələbə təhsil alacaq

***2022-2023-cü tədris ilində BDU-nun SABAH qruplarının ikinci kursuna 9 ixtisas (Biologiya müəllimliyi, Coğrafiya müəllimliyi, Fizika müəllimliyi, Hüquqşünaslıq, Kimya müəllimliyi, Kompüter elmləri, Riyaziyyat müəllimliyi, Psixologiya, Tarix müəllimliyi) üzrə 355 tələbə qəbul olunub. Yeni tədris ilində BDU-nun SABAH qruplarında 9 ixtisas üzrə 823 tələbə təhsil alacaq. SABAH qruplarının üçüncü kursunda 200, dördüncü kursunda 268 tələbə təhsilini davam etdirəcək.***

Qeyd edək ki, 2022-2023-cü tədris ilində SABAH qruplarına müxtəlif ali təhsil müəssisələri üzrə 2500-dən çox tələbə qeydiyyatdan keçib. 2000-dən artıq tələbə test imtahanında iştirak edib, onlardan 1398 nəfəri uğur qazanıb. 1325 tələbə müsahibə mərhələsində iştirak edib. Nəticədə 10 ali təhsil müəssisəsinin müxtəlif ixtisasları üzrə SABAH qruplarına 982 nəfər qəbul olunub.

# BDU-da yeni açılmış "Qida mühəndisliyi" ixtisasına tələbə qəbulu həyata keçirilib

***2022-2023-cü tədris ilindən Biologiya fakültəsində yeni açılmış "Qida mühəndisliyi" ixtisasına bakalavr təhsil səviyyəsi üzrə tələbə qəbulu aparılıb.***

"Qida mühəndisliyi" ixtisası ölkədə sosial, iqtisadi, milli prioritetlər, əmək bazarının yeni tendensiyaları nəzərə alınaraq açılıb. İxtisas üzrə təhsil alan tələbələr məhsulun, xammalın keyfiyyətini və onun xüsusiyyətlərini təhlil etməyi, qida əlavələrinin lazımi miqdarda istifadəsini, istehsal prosesini və mərhələlərini öyrənəcəklər.

Əmək bazarının tələblərinə uyğun kadrların hazırlanması məqsədilə tədris prosesinə bu sahə üzrə fəaliyyət göstərən sənaye müəssisələrindən olan ixtisaslı mütəxəssislər cəlb olunacaq. İxtisas üzrə təhsilini başa vuran məzunlar qida sənayesinin müxtəlif sahələrində - şərab, ət, süd məhsullarının, un və qənnadı məmulatlarının istehsalı, yağ və meyvə-tərəvəz emalı və s. üzrə fəaliyyət göstərən müəssisələrdə mühəndis-texnoloq kimi çalışacaqlar. Məzunlar həmçinin idxal və ixrac olunan bütün növ qida məhsullarının keyfiyyət qiymətləndirilməsinin, yararlılıq və təhlükəsizlik göstəricilərinin müəyyənləşdirilməsi məsələlərinin həyata keçirilməsi üçün gömrük məntəqələrində, bu sahə üzrə elmi-tədqiqat institutlarında, uyğun peşə təhsili, orta ixtisas və ali təhsil müəssisələrində, qida xammallarının və hazır məhsulların saxlanılmasını həyata keçirilən anbarlarda, restoran şəbəkələrində, Qida Təhlükəsizliyi Agentliyinin struktur bölmələrində işləmək imkanı qazanacaqlar.

# BDU-da Vergi hüququ və iqtisadi ekspertiza Mərkəzi yaradılıb

*2022/2023-cü tədris ilində ixtisaslaşmaya plan üzrə nəzərdə tutulmuş 10 yerə Azərbaycan və ingilis dili bölmələrinin hər biri üzrə 5 magistrant olmaqla ümumilikdə 10 magistrant qəbul olunub*

***BDU-da Vergi hüququ və iqtisadi ekspertiza Mərkəzi yaradılıb. Bununla bağlı BDU Elmi Şurasının iclasında qərar qəbul olunub.***

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin təşəbbüsü ilə BDU tərəfindən magistratura səviyyəsində yaradılması təklif olunmuş "Vergi hüququ" ixtisaslaşması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 02 iyun tarixli 326s nömrəli sərəncamı ilə 2022/2023-cü tədris ilindən etibarən "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na əlavə olunub. 2022/2023-cü tədris ilində ixtisaslaşmaya plan üzrə nəzərdə tutulmuş 10 yerə Azərbaycan və ingilis dili bölmələrinin hər biri üzrə 5 magistrant olmaqla ümumilikdə 10 magistrant qəbul olub.

Təhsil-elm-istehsalat əlaqələrinin genişləndirməklə əmək bazarının tələblərinə uyğun mütəxəssis hazırlığına nail olmaq, ixtisaslaşma üzrə tədrisin təşkilində BDU-nun professor-müəllim heyətinin və Dövlət Vergi Xidmətinin (DVX) mütəxəssislərinin birgə iştirakını təmin etmək, təhsil alan magistrantların dövlət vergi orqanlarında təcrübə keçmələrinə şərait yaratmaq məqsədilə BDU-nun nəzdində Vergi hüququ və iqtisadi ekspertiza Mərkəzi yaradılıb. Mərkəzdə həmçinin vergi hüququ klinikası xidmətləri göstəriləcək, dövlət vergi orqanları, sahibkarlıq fəaliyyətinin subyektləri və sifariş verən digər subyektlərin müraciətləri əsasında iqtisadi sahədə işlər üzrə ekspertizaların aparılması həyata keçiriləcək.

# "Erasmus+ KA2" layihəsi çərçivəsində yay məktəbi



***BDU-da əmək bazarının tələblərinə uyğun yeni ixtisas və ixtisaslaşmalar üzrə mütəxəssislərin hazırlanması istiqmətində məqsədyönlü işlər aparılır. Bu istiqamətdə Tətbiqi riyaziyyat və kibernetika fakültəsində "Mobil tətbiqlərin hazırlanması və oyun dizaynı" ixtisaslaşması üzrə "MAGnUS Erasmus+ KA2" layihəsi çərçivəsində kadrlar hazırlanır.*** Layihədə İsveç, Böyük Britaniya, Estoniya, Portuqaliya və Rusiya Federasiyasından tanınmış universitetlər iştirak edir. İxtisaslaşma yalnız BDU-da mövcuddur. İxtisaslaşma üzrə kadr hazırlığı 2021/2022-ci tədris ilindən başlayaraq Tətbiqi riyaziyyat və kibernetika fakültəsində magistratura təhsil səviyyəsinin ingilis bölməsində həyata keçirilir. Tədrisin yeni məzmunda təşkil olunması və əmək bazarının tələblərinə uyğun kadrların hazırlanması məqsədilə tədris prosesinə BDU ilə yanaşı, sənaye və biznes müəssisələrindən ixtisas üzrə peşəkar mütəxəssislər cəlb olunur, ölkəmizdən və xarici ölkələrdən tanınmış alimlərin ustad dərsləri və mühazirələri, habelə intensiv təlimlər və Yay məktəbləri təşkil olunur, tərəfdaş universitetlərin professor-müəllim heyəti mübadilə proqramlarında iştirak edir.

Belə ki, 2022-ci il sentyabrın 5-dən 9-dək BDU-da təşkil olunan yay məktəbinə İsveçin Linköping Universiteti, Böyük Britaniyanın Derbi Universiteti, Estoniyanın Tallin Universiteti, Portuqaliyanın Tomar Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Mühəndislik Universitetinin müəllim və magistrantları qatılıblar. Yay məktəbində "Oyunlarda və mobil proqramlarda təbii dil emalının vacibliyi", "Təhsil və avtosürücülüyün təhlili sahələrində interaktiv layihələr", "OpenMP, MPI və C/C++ texnologiyalarına əsaslanan çoxnüvəli və çoxqovşaqlı kompüter sistemlərində paralel proqramlaşdırma", "Real hadisə ilə ələqəli peşəkar simulyasiya və oyun mühitlərində istifadə üçün nəzərdə tutulmuş yüksək dəqiqliyə malik virtual reallıq (VR) simulyatorunun yaradılması", "Mobil proqramların inkişafı və oyun dizaynının artan imkanları", "Bulud texnologiyaları və bulud hesablama sistemlərində təhlükəsizlik" kimi mövzularda mühazirələr dinlənilib.

Qeyd edək ki, Avropa İttifaqının maliyyələşdirdiyi layihədə BDU ilə yanaşı, İsveçin Linköping Universiteti, Böyük Britaniyanın Derbi Universiteti, Estoniyanın Tallin Universiteti, Portuqaliyanın Tomar Universiteti, Rusiya Federasiyasının Həştərxan Universiteti, Voronej Universiteti və Cənubi Federal Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Mühəndislik Universiteti də iştirak edir.

# BDU-da 600-dən çox bal toplayan I kurs tələbələri ilə görüş

***Sentyabrın 15-də BDU-da 600-dən çox bal toplayan I kurs tələbələri ilə görüş keçirilib.***

*Rektor yüksək bal toplayan tələbələrin elmi-tədqiqat işlərinə cəlb edilməsi, elmi, yaradıcılıq və tədqiqatçılıq vərdişlərinin aşılanması, elmi tədqiqatlarda real iştirakının təmin olunması məqsədilə yeni yaradılan mərkəzlərin fəaliyyətinə diqqət çəkib.*

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətənimizin azadlığı və torpaqlarımızın qorunması uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev qalib gəlmiş, Zəfər çalmış qüdrətli ölkənin vətəndaşları olmağın böyük qürur olduğunu bildirib: "Azərbaycanın şanlı Zəfəri bütün dünya tərəfindən qəbul olunub. Mənfur Ermənistanın genişmiqyaslı təxribatlarının davam etdiyi və şanlı Ordumuz tərəfindən bu təxribatlara layiqli cavab verildiyi, şəhidlərimizin olduğu bir vaxtda daha çox birləşmək lazımdır. Bu birlik bütün sahələrdə öz əksini tapmalıdır".

Rektor daha sonra tələbələrin Azərbaycanın daha da qüdrətlənməsi, güclənməsi naminə səylərini birləşdirərək bütün sahələrdə elmli, təhsilli, vətənpərvər kadr kimi yetişməli olduqlarını bildirib. Ümummilli lider Heydər Əliyevin "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı və xalqımızın maariflənməsində, milli təfəkkürünün, milli özünüdərkinin formalaşmasında müstəsna rol oynayan BDU-nun bu gün də flaqman rolunu uğurla davam etdirdiyini deyən Elçin Babayev Universitetin tarixi keçmişi, müasir inkişaf mərhələləri, beynəlxalq əlaqələri barədə məlumat verib. 284 tələbənin BDU-ya 600-dən çox bal toplayaraq qəbul olunduğunu vurğulayan rektor onların hər birinə BDU ailəsinin üzvü kimi yaxşı mütəxəssis olmağı, Azərbaycanın Zəfər günlərini gələcək nəsillərə ötürməyi tövsiyə edib.

Rektor yüksək bal toplayan tələbələrin elmi-tədqiqat işlərinə cəlb edilməsi, elmi, yaradıcılıq və tədqiqatçılıq vərdişlərinin aşılanması, elmi tədqiqatlarda real iştirakının təmin olunması məqsədilə yeni yaradılan mərkəzlərin fəaliyyətinə diqqət çəkib.

BDU-nun Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, hüquq elmləri doktoru, professor, Azərbaycan Respublikasının əməkdar hüquqşünası Məsumə Məlikova, BDU-nun İctimai Nəzarət Şurasının sədri, millət vəkili Arzu Nağıyev, AMEA-nın müxbir üzvü, BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, AMEA-nın müxbir üzvü Təhsin Mütəllimov, Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli, millət vəkili Əminə Ağazadə, Geologiya fakültəsinin dekan müavini İlqar Quliyev çıxışlarında tələbələrə XXI əsrin çağırışlarına cavab olaraq elmli, təhsilli, güclənmiş dövlətimizə layiq vətəndaş kimi yetişməyi tövsiyə ediblər.

Daha sonra I kurs tələbələri adından 687 balla BDU-nun Hüquq fakültəsinə qəbul olunmuş Nəcməddin Orucov, 676 balla BDU-nun Mexanika-riyaziyyat fakültəsini seçmiş Alsu Mehdiyeva öz təəssüratlarını bölüşüb, yeni tədris ili ilə bağlı tələbə yoldaşlarını və tədbir iştirakçılarını təbrik ediblər.

# "Hədəfimiz yaxşı təhsil almaq və peşəkar mütəxəssis kimi yetişməkdir"

*Bu il BDU-ya qəbul olunan tələbələrdən 6 nəfər qəbul imtahanlarında 670 baldan artıq nəticə göstərib. BDU ailəsinə yeni qoşulan "yaxşıların ən yaxşıları"nın təəssüratlarını təqdim edirik:*


Nəcməddin Orucov



Aytac Həsənova



Murad Əsgərov


Alsu Mehdiyeva


Elnur Behputov


Şəhriyar Yusubov

***Son illər qəbul imtahanlarında yüksək bal toplayaraq Bakı Dövlət Universitetini seçən abituriyentlərin sayı artır. Bu il BDU-ya qəbul olunan tələbələrdən 284-ü 600-dən yuxarı bal toplayıb. 6 nəfər isə qəbul imtahanlarında 670 baldan artıq nəticə göstərib. BDU ailəsinə yeni qoşulan "yaxşıların ən yaxşıları"nın təəssüratlarını təqdim edirik:***

***Hüquq fakültəsinin I kurs tələbəsi Nəcməddin Orucov (687 bal):*** "BDU-nun Hüquq fakültəsinin tarixi keçmişi və nüfuzu hər kəsə məlumdur. Gələcəkdə güclü mütəxəssis kimi cəmiyyətə fayda vermək, öz ixtisasım üzrə yaxşı biliyə yiyələnmək əsas məqsədimdir. Məncə, BDU hüquq təhsilinə görə birinci yerdədir".

***Hüquq fakültəsinin I kurs tələbəsi Aytac Həsənova (683 bal):*** "Öz üzərimdə çox işləyərək ixtisaslı kadr kimi yetişmək, gələcəkdə tanınmış, məşhur hüquqşünas olmaq istəyirəm. BDU Azərbaycanın ən qədim və nüfuzlu universitetidir, Ümummilli lider Heydər Əliyevin məzunu olduğu universitetdə oxumaq mənim üçün şərəfdir. Düşünürəm ki, universitetdəki təcrübəli müəllimlərimiz də bizim yaxşı bir hüquqşünas kimi formalaşmağımıza böyük dəstək olacaq. Arzuladığım universitetə 683 balla qəbul olduğum üçün çox sevincliyəm, inanıram ki, BDU mənə çox şey verəcək".

***Hüquq fakültəsinin I kurs tələbəsi Murad Əsgərov (681 bal):*** "681 bal toplayanda BDU-nun Hüquq fakültəsinə qəbul olmağa inamım artdı. Təhsilimi müvəffəqiyyətlə başa vurmaq, 2-ci kursdan etibarən SABAH qruplarında təhsil almaq əsas hədəflərim sırasındadır. BDU-nu seçməyimdə Hüquq fakültəsində tədrisin ingilis dilində də olması, burada eyni ixtisas üzrə təhsil alan dostlarımın tövsiyəsi mühüm rol oynayıb. Məzun olduqdan sonra xaricdə magistratura təhsili almaq niyyətindəyəm. BDU kollektivinin və Hüquq fakültəsinin professor-müəllim heyətinin ilk gündən səmimi münasibəti xoş təəssürat oyatdı. Bütün I kurslara müvəffəqiyyət arzu edirəm".

***Mexanika-riyaziyyat fakültəsinin I kurs tələbəsi Alsu Mehdiyeva (677 bal):*** "İxtisasımla bağlı hədəfim müəllimlərimin mənə öyrətdiklərini öz şagirdlərimə aşılamağı, riyaziyyatı onlara sevdirməyi bacarmaqdır. BDU ölkəmizin ən yaxşı təhsil verən universitetlərindən biridir. Ölkəmizin ən güclü riyaziyyat müəllimlərindən biri kimi cəmiyyətə fayda vermək, təhsilimi magistratura, doktorantura səviyyələrində davam etdirmək istəyirəm. Xüsusilə rektor Elçin Babayev və dəyərli müəllimlərlə görüş məni çox sevindirdi. Bizə olan diqqət və qayğını gördükcə ən doğru qərarı verdiyimə bir daha əmin oluram. Bütün bunlara görə minnətdarlığımı bildirirəm. Çox xoşbəxtəm ki, 677 balla mən də BDU ailəsinin bir üzvü oldum".

***Hüquq fakültəsinin I kurs tələbəsi Elnur Behputov (673 bal):*** "BDU-nun Hüquq fakültəsinə 673 balla qəbul olmaqla abituriyent kimi ilk hədəfimə çatdım. Növbəti illər üçün əsas məqsədim bakalavriat pilləsini uğurla bitirib, hüquq sahəsində yaxşı kadr kimi yetişməkdir. Hüquq fakültəsinin mənə öyrədəcəklərinə güvənir və hədəflərimə çatacağıma inanıram. Gələcəkdə yaxşı hüquqşünas və hakim olmaq niyyətindəyəm. BDU-nun böyüklüyü və möhtəşəmliyi inanılmazdır. Geniş auditoriyalar, kitabxanalar, oxu zalları, geniş yaşıl həyət - burada oxumaq üçün bütün şərait yaradılıb".

***Hüquq fakültəsinin I kurs tələbəsi Şəhriyar Yusubov (670 bal):*** "Hədəfim kamil bir insan kimi yetişmək və vətənimə layiqli, yararlı kadr olmaqdır. 670 balla BDU-nun Hüquq fakültəsinə qəbul olmuşam. Təhsilimi ingilis bölməsində alacağam. BDU Azərbaycanın ən böyük təhsil müəssisəsi və dünya universitetləri arasında yer tutmuş bir məkandır. Həmçinin hüquqi biliklərə yiyələnmək üçün möhtəşəm təhsil ocağıdır. Hədəfim universiteti əla qiymətlərlə bitirmək və xaricdə magistratura təhsili almaqdır. İlk təəssüratlar çox xoş idi. Çox sevinirəm ki, belə bir mühitə düşmüşəm. Məsul şəxslərin, müəllimlərin və tələbələrin isti münasibətini gördükdən sonra qərarımın yanlış olmadığına bir daha əmin oldum".

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Xatirə Hüseynova
Samir Mirzəyev
Günel Orucəliyeva

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.
**Çapa imzalanıb:** 30.09 .2022
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08